Rafiq Yusifoğlu

# SEVDALI ÖMÜR YAŞADIM



Rafiq Yusifoğlu

# SEVDALI ÖMÜR YAŞADIM



Bakı - 2019

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115761

84(5Aze)
Y 92

Redaktor

**Məhərrəm Qasımlı**

Rafiq Yusifoğlu. Sevdalı ömür yaşadım. Şeirlər. Bakı, ADPU nəşriyyatı, 2019. - 304 səh.

"Sevdalı ömür yaşadım" müasir ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri, şair, ədəbiyyatşünas, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "İlin ən yaxşı kitabı", "Araz" və s. ədəbi mükafatların laureatı Rafiq Yusifoğlunun oxucularla yeni görüşüdür. Kitaba onun son illərdə qələmə alınan təzə şeirləri daxil edilmişdir.

© $\frac{1947812279}{1957(H)030919}$ - 2019 Qrifli nəşr

MƏCBURİ NÜSXƏ
№

© Rafiq Yusifoğlu

F. Köçərli adına Respublika Uşaq KİTABXANASI
İNV. № 15 46



# HİKMƏT XƏZİNƏSİ

## EY YARADAN

Ulu Allah, bizə rəhm et,
Bir ilahi təmas ilə!
Ucalt bizi dərgahına
Xəcalətdən xilas elə!
Torpağımız qan ağlayır
Kafirlərin tapdağında,
Hava tək, su tək gərəkdi
Xilas yurda, xilas elə!
Gözümüz səni axtarır,
Könlümüz səni axtarır
İş çətinə düşən kimi…
Biz göz açıb yumanacan
Ömür keçir fişəng kimi…
Ulu Tanrım, qədəminə
Zərif, incə çiçəkləri
min qəhrəman,
min ər ələr…
İnsanların
Sənə olan sevgisidi
bu məbədlər,
minarələr…

**05.03.2018**

## RƏSƏDXANA VƏ MƏSCİD

Rəsədxanaların
məscidə
bənzəri var. –
Orda olanın da,
burda olanın da
göylərə nəzəri var…

2017

***

Kainatın böyüklüyü,
Yaradanın böyüklüyü
mütləqdi,
qətidi…
Kiçikliyini
dərk eləmək
İnsanın böyüklüyünün
ilkin əlamətidi…

10.04.2017



## BU TALEYİN NAXIŞINA MİN ŞÜKÜR

Səni görcək "him-cim" ilə danışan
Gözəllərin göz-qaşına min şükür!
Bu dünyanın payızına, yazına,
Od yayına, buz qışına min şükür!

Namərd səni salıb dərin quyuya,
Həsrət odu çox çətin ki, soyuya,
Ürəyinin bir küncündə uyuyan,
Darı boyda qurğuşuna min şükür!

Bu dünyada nə görmüsən hələ sən?
Bu həyata bir də çətin gələsən!
Anaların "Səni igid öləsən!"
Sözərinə, qarğışına min şükür!

Neçə yara zoqquldayır içində,
Dərd bulağı paqqıldayır içində,
İldırımlar şaqqıldayır içində,
Şimşəklərin çaxışına min şükür!

Bir ocaq çat ürəyimin qoruna,
Həssas könül eşqdən çətin qoruna,
Bu dünyanın dolusuna, qarına,
Çovğununa, yağışına min şükür!

Əzabları sənə sovqat göndərən,
Leysanları sinən üstə əndərən,
Ürəyini çay daşına döndərən
Eşq selinin axışına min şükür!

Gecə-gündüz yuxu getmir gözünə,
Qızınan var ürəyinin közünə,
Xəzəlləri dərd eləmə özünə,
Gözəllərin baxışına min şükür...

Yusifoğlu, solan çətin boy ata,
Dil dönərmi tər söyləyə boyata? –
İnsan kimi gəlmisənsə həyata,
Taleyinin naxışına min şükür!

**20.02.2019**

## SELLƏMƏ YAĞIŞLA GƏLDİ BU İL YAZ

Bu il qarsız gəlib, qarsız da getdi
Bilmədik zavallı qışın dərdi nə?
Sellənə yağışla gəldi bu il yaz,
Hönkürüb ağladı qışın dərdinə....

Döydü qapımızı sərsəri külək,
Şimşəklər hikkəli, buludlar kövrək,
Sanki şərik olmaq istədi ürək
Yuvası islanan quşun dərdinə.



Təzəcə qoyulub kiminsə adı,
Kimsə öz ömrünün axırındadı,
Dünya öz əvvəlki axarındadı,
Arabir çatılan qaşın dərdi nə?

Ürəyim üsyana qalxıb arabir,
Başımda şimşəklər çaxıb arabir,
Uzanan yollara baxıb arabir
Gözümdən sellənən yaşın dərdi nə?

Bu ürək nə qədər ağrıya dözdü!
Onu dərdə salan bir alagözdü...
Əllidi, altmışdı, səksəndi, yüzdü, –
Dizdə təpər varsa, yaşın dərdi nə?

Onunçün nə fərqi qaradı, ağdı,
Məskəni çaylaqdı, dərədi, dağdı?
Olandan, keçəndən xəbəri yoxdu –
Qayanın dərdi nə, daşın dərdi nə?

Həsrətdən gözümün kökü saralıb,
Kədər sevincimi didərgin salıb,
Dünyanın işləri mənəmi qalıb,
Kəsəkmi ağlasın daşın dərdinə?!

**20.03.2019**

## QOCASI, CAVANI OLMUR ŞAİRİN

Təmiz məhəbbətdir ömrə yaraşıq,
Ürəyim sevgidən doymaz heç zaman…
Şair qəlbindəki ilahi işıq
Onu qocalmağa qoymaz heç zaman…

Qopsa min fırtına, qopsa min tufan,
Vecinə də deyil uca şairin.
Sevginin qədrini bilməyən cavan
Yerini verərmi qoca şairin?

Qəlbi gözəllikdən deyil doyası,
Sevdalı sözlərdən kimlər güc alırır?
Sevgiylə yoğrulub onun mayası,
Hər şey qocalsa da, sevgi qocalmır.

İlham çiçəkləri solmur şairin,
Qanadı yoxdu ki, qartal tək uça.
Qocası, cavanı olmur şairin,
Şair gah uşaqdı, gah müdrik qoca…

Sənsiz yatağıma qor ələnsə də,
Tale qismətimə adını yazdı.
Şairin saçına qar ələnsə də,
Şairin qəlbində həmişə yazdı…

**12.07.2017**



## BİZİM VAXT İTİRƏN VAXTIMIZDIMI

Yaşıdlarıma

Min yol qəlbimizi çəkib sınağa,
Bizi min bəladan Allah saxladı…
Sevgi məlhəm oldu qəlbi sınığa,
Çox şükür, qocalıq bizi haqladı…

Üşəndim, göllərdə baxıb əksimə,
Sevindim həyatı duyduğum üçün…
Şükür yaradana, mənim köksümə
Sevdalı bir ürək qoyduğu üçün…

Gəzdim bu dünyanı mən qarış-qarış,
Necə olduğumu bu dağlar desin!
Necə sevdiyimi dənizdən soruş,
Necə yandığımı bulaqlar desin.

Oxşadı alnımı həsrət küləyi,
Dözdüm doğmaların intizarına.
Çiçəkli düzlərdə gəzdim, ürəyim
Çevrildi arzular çəmənzarına…

Yaradan qəlbinə salmasın kölgə,
Şair, möhlət dilə, Allaha yalvar!
Hələ gəzmədiyin nə qədər ölkə,
Hələ üzmədiyin nə qədər göl var…

Həmişə nur saçdı sevgidən üzün,
Ürəyin sevgilər muzeyi oldu…
Sevdin insanları, dağı, dənizi,
Sevgi həyatının bəzəyi oldu…

Qoymayın ömrümüz dönə səraba,
Sevgiylə ödəyin mənim muzdumu…
Ömür günəşimiz enir qüruba,
Bizim vaxt itirən vaxtımızdımı?!

**08.02.2018**

## TANRI ƏSİRGƏMƏZ SƏXAVƏTİNİ

Əlini qoynuna qoyub ağlama,
Könül sirdaşını axtar, ara bir!
Hər şeydə taleyə sən bel bağlama,
Kömək əli uzat ona arabir!

Heç zaman sındırma öz qürurunu,
Görəndə çabanı, hərəkətini,
Qəlbindən boylanan iman nurunu,
Tanrı əsirgəməz bərəkətini…

Əgər sidq ürəklə əhd eləməsən,
Halalıq mayası hopmaz qanına.
Sən xoşbəxt olmağa cəhd eləməsən,
Xoşbəxtlik perikər, gəlməz yanına …

**13.05.2017**



## ÖZÜMÜZ DÜZƏLSƏK, DÜZƏLƏR DÜNYA

*"Dünya düzəlmir ki, düzəlmir, babam"…*
*Məmməd Araz*

Sevdalı qəlbimiz düşər tilsimə,
Yarpağı çevirər xəzələ dünya.
Ona " düzəlmir ki, düzəlmir" – demə,
Özmüz düzəlsək,
düzələr dünya...

Əsrlər, nəsillər düzülüb səfə,
Allah yurd eləyib dünyanı bizə!
Qoynunda dönmüşük əziz-xələfə,
Biz ona borcluyuq,
dünyamı bizə?

Arxa, dayaq olub yetim-yesirə,
Kimin bostanına daş atıb dünya?
Qoynunda yer verib neçə nəsilə,
Yedirdib, içirdib, yaşadıb dünya!

Çoxdur bu yazıqdan inciyən, küsən,
Haqqı var yandırsa,
dünyamı yaxsa...
Özü oturduğu budağı kəsən
İnsan günahkardı,
Dünyamı yoxsa?

İşinə qarışsan, qırğın eləyər,
Saat əqrəbi tək firlanar dünya...
Gecə qaranlığı yorğan eləyər,
Günəş boylananda nurlanar dünya...

Odur qovuşduran bizi sabaha!
Qəlbin bülbül kimi ötməyi də var...
O yazıq bizimçün neyləsin daha? –
Dünyaya gələnin getməyi də var...

Həmişə yanında dilimiz gödək,
Borcluyuq ona da, elimizə də...
Başqa bir yer varmı dünyadan gedək? –
Qoynunda yer verir ölümüzə də...

Kim dönə bilib ki, ömrün qışından?
Ölüm mələyinin əli yaxamda...
Odur insan kimi bizi yaşadan,
Odur qəbrimizə sahib çıxan da...

Bizi xilas edər dardan, çətindən,
Sərrafı tapılsa, bir incidir o.
Çıxmaz zərrə qədər öz orbitindən,
Mizan-tərəzidə birincidir o!

Bostanın öz yeri, bağın öz yeri.
Böcəyi yerində, quşu yerində...
Dərənin öz yeri, dağın öz yeri,
Payızı yerində, qışı yerində...



Dənizi yerində, çayı yerində,
Necə çirkin deyək gözələ, şair?
Günəşi yerində, ayı yerində,
Dünya əyridi ki, düzələ, şair?!

**09.08.2019**

## SINAQ MEYDANIDIR BU QOCA DÜNYA

Sınaq meydanıdır bu qoca dünya,
Həyatda hər dərdin bir əlacı var.
Bəzən var-dövlət də köməyə gəlmir,
İnsanın insana ehtiyacı var...

Adamın içindən qara zülməti
Bircə təbəssüm də əridə bilər...
Yalnız bir fədakar ömür yoldaşı
Hönkürən ürəyi kiridə bilər...

Qəlbində eşq varsa, çiyinlərində
Ən ağır yükü də daşımaq olar.
Bir könül sirdaşı dayağın olsa,
Əlsiz, ayaqsız da yaşamaq olar...

**23.04.2017**

## BƏYAZ SAÇLAR

İllər keçir, qoca dünya boşalır, dolur,
Əvvəl-axır ulu göylər bizi çağırır...
İllər keçir, ağ vərəqlər qapqara olur,
İllər keçir, bəs bu saçlar niyə ağarır?

Ömrümüzdə öz yeri var bəyaz güllərin,
Hər ağ çiçək təbiətin bəyaz sözüdü…
Dümağ saçlar üstümüzdən ötən illərin
Başımızda, üzümüzdə ayaq izidi…

Böyümüşük, dünya bizə dardı elə bil,
Qəlbimizi gizildədən həsrət dağıdı…
Bəyaz saçlar zirvədəki qardı elə bil,
Bəyaz saçlar qocalığın ağ bayrağıdı…

**27.05.2017**

## YAZIGIM GƏLİR

Hamını oyuna salan bir çıxılmaz oyundadı,
Özünə qənim kəsilən bəşərə yazığım gəlir...
Kaftarkoslar arasında öz canının hayındadı,
Qaçmağa məqam axtaran bu şirə yazığım gəlir...

Günəşin gözəl üzünü nə qədər gizləzsin duman?
Qoynuna çaylar axıtsan, gölməçədən olmaz ümman,
Zər qədrini zərgər bilər, çəkməçidən papaq umma,
Nadanların dodağında şeirə yazıgım gəlir!



Hər işdə qazanc axtaran gedib baqqal olmalıdı,
Sözün yerini bilməyən yüngülsaqqal olmalıdı,
İstedadı haqdan gələn üzü haqqa olmalıdı,
Kimdənsə sədəqə uman şairə yazığım gəlir...

**09.12.2018**

## MƏNİM SÜKUTUM

Həmişə yağmır ki, qar xışma-xışma? –
Yerində gözəldi hər söz, hər kəlmə!
Susub durduğumu görüb, qızışma,
Özgə yerişiylə üstümə gəlmə!

Məni ram edəmməz hər “huri-pəri”,
Görürəm nə oda alışdığını.
Üyüdüb tökürsən səhərdən bəri,
Unutma kiminlə danışdığını!

Dünyanı dolaşmaq xoşuma gəlir,
Hürmə hər karvana, qısıl yerinə!
Kimin kimliyini el yaxşı bilir,
Sırıma dəmiri qızıl yerinə!

Mənim eşq külüngüm qayalar çapar,
Sözün sərrafına saxta söz atma!
Könlünə bal düşüb, xoşluqla apar,
Arı yuvasına çubuq uzatma!



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115461

Qədrini bilirəm halal yerimin,
Qədirbilənlərdir başımın tacı!
Mənim od püskürən orkestrimin,
Naşı dirijora nə ehtiyacı?

Özünə, sözünə yiyə çıx, yiyə!
Qızışma, özünü bir az yığışdır!
Sanma sözüm yoxdu susuram deyə,
Mənim sükutum da elə çıxışdır...

Şeir çəmənzarı saralıb, solub,
İncikdir nəğməmin kövrək notları.
Ətirli çiçəklər görünməz olub,
Bürüyüb hər yanı alaq otları...

Aqil dinmədikcə, nadanlar çaşır,
Köpəyi qocalıb, əniyi gəlir!
İçimdə dalğalar kükrəyir, daşır,
Mənim sükutumdan qan iyi gəlir...

Qarışıq salıblar xeyiri, şəri,
İçimdə şimşəklər çaxır, İlahi!
Nə qədər yerini bilməyənləri
Yerində oturdum axı, İlahi?!

**20.10.2018**



## DAĞLAR, DƏRƏLƏR

Əbədi qonşudur onlar əzəldən
Dərəsiz dağ olmaz, dağsız da dərə...
Var olsun dünyanı gözəl düzəldən! –
Bizi ovsunlayır neçə mənzərə!

Gözəllik xətrinə hər yan dağılıb,
Biri dikələndə, o biri çöküb...
Dərə hesabına dağlar dağ olub,
Dağın əzabını dərələr çəkib...

Birinin bəxtinə ucalıq düşüb,
Birinin qisməti dərinlik olub.
Dağ göyə ucalıb, dərə büzüşüb,
Bulud hönkürəndə, dərələr dolub.

Ucadan hər tərəf gözəl görünür,
Dağların başında ildırım çaxır.
Dərədən zirvəyə duman sürünür,
Zirvədən dərəyə bulaqlar axır...

Uçmağa yer gəzir köçəri quşlar,
Şimşəklər buludu doğrayır, biçir...
Dağların başına yağan yağışlar,
Bütün dərələrin qoynundan keçir...

**20.12.2018**



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115761

## YAŞADIM

Mən sevdalar diyarında
Olub ulu şah yaşadım!
Bir kimsəyə əyilmədim,
Ömrüm boyu şax yaşadım!

Az dodaqdan söz çəkmədim,
Az ocaqdan köz çəkmədim,
Gözəllərdən göz çəkmədim,
Edib yüz günah yaşadım.

Yarı yalan, yarı doğru,
Hey can atdım yara doğru.
Ürəyimdə nisgil, ağrı,
Dodağımda ah yaşadım.

Danışanda sözüm güldü,
Nəfəsinlə közüm güldü,
Həmişə bir gözüm güldü, –
Gah ağladım, gah yaşadım...

Qonaq çağır yar, odana!
Alovlanım yar oduna!
Ömrüm boyu Yaradana
Aparıb pənah yaşadım...

**13.09.2018**

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115464



## GEDİRƏM

Bir günüm dənizsiz olmur,
Qəlbimdə nəşə gedirəm...
Gecikmirəm bircə an da,
Elə bil işə gedirəm...

Dalğaların qucağında,
Yanıram eşq ocağında,
Ömrümün qürub çağında
Üzü günəşə gedirəm...

Dad varmı sevgi dadında?
Qovruldum həsrət odunda,
Canki ayağım altında
Qırılmış şüşə gedirəm...

Nisgil sayrışır gözümdə,
Sanki deyil yer özündə,
Tapmadım bu yer üzündə
Bir mərhəm guşə, gedirəm...

Bir yan torpaq, bir yan göydü,
Hey baxdım, gözümü döydüm.
Bu ömür "nəmənə" şeydi? –
Arabir huşa gedirəm...

Vurğunam ota, çiçəyə,
Baxıram gülə, böcəyə.
Hərdən üzü gələcəyə,
Hərdən keçmişə gedirəm...

Doğmalarımı itirdim,
Kirpiyimlə od götürdüm,
Altmış doqquzu bitirdim,
Üzü yetmişə gedirəm...

**2018**

## OLA BİLMƏRƏM

Mənə yaraşmayan kəsə,
Yaraşıq ola bilmərəm…
Dəyərimi bilməyənə
Mən aşiq ola bilmərəm.

Ucayam, dağlar oğluyam,
Özüm də köksü dağlıyam,
Bəsirət gözü bağlıya
Nur – işıq ola bilmərəm.

El məni çətin unuda,
Budağım dəyir buluda, –
Qosqocaman bir palıdam,
Sarmaşıq ola bilmərəm…

**08.07.2017**



## YAŞAYIR

Yarpaqları tökülsə də,
Bu arsız budaq yaşayır.
Heyva həsrətdən saralıb,
Bağban köçüb, bağ yaşayır!

Unut, oğulsansa, unut!
Yaralı qəlbimi ovut!
Gözümüzdə qara bulud,
Saçımızda ağ yaşayır.

Həsrətdən şam tək əridim,
Üstümə duman yeridi,
Sevirsə, insan diridi,
Yanırsa, ocaq yaşayır...

Başımızda şimşək çaxıb,
Gözümüzdən sellər axıb,
Dağlardan əlimiz çıxıb,
Qəlbimizdə dağ yaşayır...

**09.12.2018**

## ADAM YOXDU

*Kaman ustası Habil Əliyevin xatirəsinə*

Uca dağlardan enmişəm,
Zirvələrdə odam yoxdu.
Qartal kimi qıy vurardım,
İndi səsim, sədam yoxdu…

Uçdu əlimdən su sonam,
Lazım gələndə susanam,
Bilirəm adi insanam,
Bircə damcı adam yoxdu…

Ömür qandı, zaman zəli,
Az qalıram olum dəli,
Dəyməyib anamın əli,
Yeməyimdə o tam yoxdu…

Özümə deyiləm hakim,
De, nə qədər xiffət çəkim?
Sığallasın başımı kim? –
Anam yoxdu, atam yoxdu…

Eşq selləri axıb gedib,
Doğmaları yığıb, gedib,
Yaşıdlarım çıxıb gedib,
Dərdləşməyə adam yoxdu…

**15.09.2016**



## DÜNYA SEVMİR HEÇ-HEÇƏNİ

*"Dünya ilə heç-heçəyəm" şeirinin müəllifi Sabir Yusifoğluya*

İllər bəyaz buludları
Dərdə kəfən eləyəcək...
Bəyaz qarı ağ duz kimi
Yaramıza ələyəcək...

Ağır olacaq bədəli,
"Yarıma dəysə yad əli",
Bu dünya səni ya dəli,
Ya da ki, gic eləyəcək...

Sitəmlidir həsrət dağı,
Sönəcək ömür çırağı,
Doğmaların ayrılığı
Ürəyə güc eləyəcək...

Hamı gəzir itiyini,
Kim açıb ki, bu düyünü?
Bu dünya öz dediyini
Ya tez, ya gec eləyəcək...

Ürək dərdə sinə gərib,
Payını özgələr dərib,
Viranə könlümdə qərib
Arzular gecələyəcək...

Başımda şimşəklər çaxır,
Damarımda sellər axır,
Doğulanlar əvvəl-axır
Dünyadan köç eləyəcək...

Duydum qəlbindən keçəni,
Qaytarmaq olmur köçəni,
Dünya sevmir heç-heçəni,
Səni də heç eləyəcək,
Məni də heç eləyəcək...

15.03.2019

## OLARMI

Buludlar toqquşmasa,
İşıq – şimşək olarmı?
Ləçəklər birləşməsə,
Çiçək çiçək olarmı?

Dinclik tapmayıb hələ,
Baxın qanadlı yelə,
Əsməsə eldən elə
Külək külək olarmı?

Sevirsənsə sən əgər,
Ağrılara sinə gər,
Sevə bilmirsə əgər,
Ürək ürək olarmı?

2017



## ZAMANDI BU

Yolu həqiqət yoludu,
Həm cavandı, həm uludu,
Gah yağışdı, gah doludu,
Gah çiskin, gah dumandı bu!
Zamandı bu, zamandı bu!

İçin-için hey ağlarıq,
Dərdi sirr kimi saxlarıq,
Biz körpəcə bulaqlarıq,
Okeandı, ümmandı bu!
Zamandı bu, zamandı bu!

Havayı getmir əkdiyi,
Bəxtə vurulub bərk düyün,
Babalarımın çəkdiyi
Yanğılı ah, amandı bu,
Zamandı bu, zamandı bu!

Ürəkdə eşq oyadanda,
Bizi edər röyadan da!
Səhradan da, qayadan da,
Ülfət, sevgi umandı bu!
Zamandı bu, zamandı bu!

Bu gün varıq, sabah yoxuq,
Fərq eləməz, azıq, çoxuq,
Hərəmiz bir qızıl oxuq,

Bizi atan kamandı bu,
Zamandı bu, zamandı bu!

Nəmər verib əlimizə,
Qıfil vurar dilimizə,
Hədər keçən ilimizə
Sanma ki, göz yumandı bu,
Zamandı bu, zamandı bu!

Belə verilibsə fərman,
Xəstəyə neyləsin dərman?
Bir kimsəyə verməz aman,
Yamandı bu, yamandı bu!
Zamandı bu, zamandı bu!

Deyil torpaq, su özündə,
Qalmayıbdır su üzündə,
Boğulanın su üzündə
Əl atdığı samandı bu,
Zamandı bu, zamandı bu!

Yox tənbehi, yox öyüdü,
Ürəkdə nisgil böyüdür,
Ömrü dən kimi üyüdür,
Bir köhnə dəyirmandı bu!
Zamandı bu, zamandı bu!

**25.01.2019**



## ÖMÜR GƏLƏCƏYƏ YOLDU

Təşnə olanın güzarı
Həmişə bulağa düşər…
Payızın, xəzanın yolu
Səhraya yox, bağa düşər…

Başınıza yağsa dolu,
Qınamayın sağı, solu,
Tənha qalanların yolu
Dərd əlindən dağa düşər.

Hər anın qədrini bilin,
Sözlərimə hələ gülün!
Vaxtından tez açan gülün
Ləçəyi sazağa düşər…

Ömür qısadır, tələsin!
Qırın taleyin tələsin!
Yaxını görməyən kəsin
Güzarı uzağa düşər…

Keçən keçdi, olan oldu,
Dərd eləmə, solan soldu…
Ömür gələcəyə yoldu,
Qayıdan, duzağa düşər…

Gördük taleyin zərbini,
Unudaq dəyən zərbəni!
Arxada yanan körpünün
İşığı qabağa düşər...

**29.10.2018**

## SİRLƏR İLƏ GÖZ-GÖZƏ

Bu dünyada nə görürük
Bir müamma, möcüzə!
Ömür boyu yaşayırıq
Sirlər ilə göz-gözə...

Çiçəklər harda bitərdi
Ana torpaq olmasa?
Nə bilərdik külək əsir
Ağac, yarpaq olmasa?

Bizə ürək verən özü
Arzu, dilək yaradır...
Bəlkə elə ağac özü
Əsib külək yaradır?!

Kim dərk edib kainatın
Günəşini, Ayını?
Kim bilir ki, şəfəq saçan
Ulduzların sayını?



Yağan yağış bulaq olur
Qayalardan süzülüb.
Uca dağlar karvan kimi
Sıralanıb, düzülüb...

Hava, işıq, su olmasa,
Solar çiçək bənizlər!
Başdan-başa möcüzədir
Okeanlar, dənizlər...

Yer kürəsi milyon ildi
Fırım, fırım fırlanır...
Gah bu üzü, gah o üzü
Şəfəqlərdən nurlanır...

Hər şey ölçü-biçilidi,
Var sərt mizan-tərəzi!
Vallah yoxdu, billah yoxdu
Bu dünyanın əvəzi!

Heyran qoyur bizi adi
Bir kəpənək qanadı!
Möcüzədən baş açmayib,
Hey özümü qınadım...

Bu dünyanın nə açarı,
Nə də ki, var kilidi..
Aciz bəndə olduğumu
Dərk eləyib, kiridim...

**17.06.2019**

## BU DÜNYANI NECƏ TUTSAN

Axıra qədər
elə də gedəcək
Bu dünyanı
necə tutsan…
Elə bil
yağışı tükənməyən
qara buludsan!
Ömrünü kədər səltənətinə
əsir eləmə,
gecə-gündüz
fikir çəkib ağlamaqla…
Heç zaman
gileylənmə bu həyatdan,
həmişə öz könül sazını
köklü saxla!
Qəlbimdəki
sevgi çiçəklərini
dərə bilsən,
görəcəksən ki,
dünya necə gözəldi…
Yaxanı qayğıların
əlindən çəkib,
sevginin əlinə verə bilsən,
görəcəksən ki,
dünya necə gözəldi…

**03.04.2018**



## YAVAŞ-YAVAŞ

Quruyan ağacın
ehtiyacı yoxdu daha
qarı, yağışı sevməyə,
yazı, ya qışı sevməyə…
Quruyan ağacın
heyi də olmur
budağına qonan
quşu sevməyə…
Yavaş-yavaş bizim də
içimizdəki ağrı, nisgil,
gözümüzdəki həsrət,
yaş quruyur,
yaddaşımızı itirməyimiz
bizi iztirablardan,
əzablardan
yavaş-yavaş qoruyur…
Yavaş-yavaş biz də
adam cildində
dovşan, böcək,
quş oluruq…
Yavaş-yavaş biz də
onlar kimi
yaşamaq uğrunda
mübarizəyə qoşuluruq…

**10.05.2017**

## İŞIQ SİMFONİYASI

Günəş –
həyatdı, sevgidi,
gözəllikdi, ehtişamdı!
O nə vaxt çıxırsa, səhərdi,
o nə vaxt batırsa, axşamdı...
Günəş bütün canlıların
saatıdı elə bil –
o doğanda,
hamı durur yuxudan,
O batanda,
yatmaq vaxtıdır demək...
Günəş gülümsəyəndə
gözlərini sevgi ilə açır
milyon-milyon şehli çiçək...
Sevgi ilə dolur milyon-milyon
sevdalı ürək!
Günəş çıxanda bütün dünya
gözəlləşir, süslənir...
Şəfəqləri dirijor çubuğudu
elə bil,
hara sarı uzanırsa,
orada işıq,
həyat simfoniyası səslənir...

**26.09.2018**



## ƏBƏDİYYƏT ARZUSU

Babalardan bizə yadigar qalıb
Beş yüz il bundan əvvəl
toxunan xalça,
Min il bundan əvvəl
tikilən qala!
Ölümün qaçılmaz olduğunu
dərk edəyən insan
istəyir ki, heç olmasa
yaratdıqları ilə
bu dünyada əbədi qala!
Adam baxanda heyrətə gəlir:
Doğrudanmı, bu,
insan əlləriylə ucaldılan
İman, sevgi məbədidi?
Qəribədi,
Allahın yaratdığı tez ölür,
bəndənin yaratdığı isə
əbədidi?!

**21.09.2018**

## TANIDIĞIMIZ, TANIMADIĞIMIZ ADAMLAR

Cavanları gözəlliyi ilə
dəli eləyən
işvəkar bir qız
olub qoca qarı gedir…
Saçında neçə qışın
qarı gedir…
Ürəyində illərin
qübarı gedir…
…İstəsək də, istəməsək də
Karvanımız üzü
qüruba sarı gedir…
Həsrətlə baxırıq
doğan günəşə,
bədrlənmiş aya…
Tanıdığımız adamları
bir-bir yola salırıq,
əvəzində tanımadığımız
adamlar gəlir dünyaya…
Elə bil hər gün bir az
əlimizdən alırlar dünyanı,
tanımadığımız adamlar
tanınmaz hala
salırlar dünyanı…

**24.07.2017**



## İNSAN XİSLƏTİ

Ramazanda şeytan
əl-ayaq altından çəkilər,
Ramazanda ürəklərə
xeyir-bərəkət,
iman toxumu əkilər...
Ramazanda günah yarpaqları
ömür ağacının budaqlarından
xəzəl olub tökülər…
Sonra çəkilən zəhmətlər
yenidən puç olar,
Yenidən ürəkdə baş qaldırar
ağrılar, acılar…
Ömür ağacının budaqlarında
yeni yeni günah yarpaqları göyərər,
günah çiçəkləri açılar…

**30.05.2017**

***

Quş dünyanın ağırlığını
qanadlarında daşıya bilməz.
Quşun qanadı olsa da,
həmişə göydə yaşaya bilməz,
Quşa uçmaq üçün göylər –
hava lazımdı!
Bala çıxarmaq üçün
yuva lazımdı…

**2017**

## BU GÜN, SABAH

Bəzən yayın cırhacırında
gələcək qışı yadımıza salıb,
üşümüşük!
Yanımızda olana göz yumub,
yanımızda olmayanı düşünmüşük...
İllər, əsrlər keçsə də,
insan dəyişməyib öz xislətini.
Sabahı düşünə-düşünə azaltmışıq
bu günkü həzzin ləzzətini...
Həmişə meyilli olmuşuq
Ləzzət libasına bürünən günaha.
Bu günün xoşbəxtliyini
qurban vermişik çox vaxt
iztirablar, ağrılar
gətirən sabaha!

**06.10.2018**

***

Sevdalı insanlar
dönyadan köçsələr də,
Dünya yenə boşalmayıb…
İnsan həmişə insandı,
Daş dövründə yaşayan
insanın belə
Ürəyi daş olmayıb…

**2017**



## KİM DEYİR Kİ...

Kim deyir ki,
tale qarğışı yoxdu?
Kim deyir ki,
sevgi əbədidi,
ölə bilməz?!
40-cı qapının girişi var,
ancaq çıxışı yoxdu, –
Heç "Sim-sim" də sənə
köməyə gələ bilməz…

**06.02.2018**

***

Şeirə-sənətə
könül verdim,
Duyğuların,
düşüncələrin odunda
ömrüm gilə-gilə,
misra-misra əridi…
Başa düşdüm ki,
Şeir –
dünyanın puçluğunu,
ömrün vəfasızlığını
dərk eləyən insanın
sığınacaq,
təskinlik yeridi…

**04.03.2018**

## GÖZƏL ŞEİR

Gözəl şeir –
təmiz duyğuların
təntənəsidir;
Gözəl şeir –
sevib-sevilmək
həvəsidir;
Gözəl şeir –
həyatın nəfəsidir;
Gözəl şeir –
haqqın, ədalətin
səsidir;
Gözəl şeir –
həmişə yaranmır,
Gözəl şeir –
ruhi zəlzələnin
bəhrəsidir...

**18.03.2018**

***

İnsanlar bağlıdı
əslinə, kökünə…
Qorxmaz ol, yaşama
çəkinə-çəkinə…
Hamımız tez, ya gec
düşürük,
Zamanın tərkindən
torpağın təkinə…

**08.02.2018**



## HASAR QƏFƏSLƏR

Gəzmək üçün,
qəşəng mənzərələri
görmək üçün
tez-tez gəlməlidi
bura xalq.
Sökün,
dağıdın
hasar qəfəsləri,
Gözəlliyi azadlığa
buraxaq...

**2017**

***

Ətirli gülün altında
ilan gözümü işarır?!
Haqqı üzülən görəndə
ümidin gözü yaşarır...
Yurdu çapıb talayanlar
kül üfürür gözümüzə,
Yalan külünün altında
həqiqət közü işarır...

**15.03.2019**

## “XALQ ELÇİSİ”

Xalq sənə səs veribsə,
Sən niyə səs vermirsən
onun səsinə?
Kürsülərdə mürgü döyürsən
Xalqın sözünü demək əvəzinə!
Xalq elçisisənsə,
niyə ortaq deyilsən
xalqın sevincinə, kədərinə?
Eldən ayrı düşənin
sevinci nə, kədəri nə?
Məmləkətin tarixində
zərrə qədər izin də yoxdu…
Xalqın arasına çıxmağa
üzün də yoxdu…
Xalqın əkdiyi ağacları qırdırıb,
yerində özün üçün mağaza,
restoran tikdirirsən.
Xalqa yaxınlaşmaqdansa,
Xalqdan qorunmaq üçün
villalarına hasar çəkdirisən!
İşin düşəndən-düşənə
görürsən xalqın üzünü.
Xalq elçisinin maaşı
xalqın maaşı qədər olmayınca,
o heç vaxt deməyəcək
xalqın sözünü …

**17.03.2018**



## QƏTLİYAM

Təmizlikdən,
saflıqdan dəm vuranlar
Elin malını talan eləyirlər, –
məhəl qoyan kimdi qanuna!
Təkcə insanlar şəhid olsaydı,
dərd yarı idi,
onların ürəyindəki
qələbəyə inamı da
qəltan eləyirlər qanına!

**14.10.2018**

## İŞĞAL

Kəndlərimizdə
nə qədər evlər boş qalıb...
Yerdə nə qədər
divara hörülməli
daş qalıb...
Əkilib-becərilməli tarlalar
intizarla yolumuzu gözləyir,
Biz isə şəhərdə
ədalət axtarırıq, ədalət!
Torpağımızın bir hissəsini
düşmən zəbt eləyib,
bir hissəsini ətalət...

**09.11.2018. Qusar.**

## QÜRBƏT QOXUSU

İndi çiçəklərin də
gözü yumulub,
İndi nəinki yarpaqsız
ağacların, kolların,
Çağlayan bulaqların,
çayların da yuxusu gəlir…
İndi heç nə ovundura bilmir
hönkürən ürəyimi,
yol çəkən gözlərimi,
İndi vətəndən də
qürbət qoxusu gəlir…

**25.12.2017**

***

Kəlmələr qığılcım saçan
daş-kəsək kimi qopur
sənət köhlənimin ayaqlarının
altından!
Nə əcəb alışıb yanmır
üstündə həsrət nəğmələri
yazdığım bu kağız
ürəyimin odundan?

**03.03.2019**



***

Gözə kül üfürənləri görəndə
dodaqlarım səyridi…
Toxtaqlıq verdim
boynubükük bənövşəyə:
Kiminin boynu,
kiminin əli əyridi…

**2018**

***

İnsan zəkası ilə
aydan,
ulduzlardan
bac almalıdı.
İnsan nəfsinin ağası olmağı
bacarmalıdı.
İnsan iman nurundan güc almalıdı,
İnsan saflığı, paklıgı ilə
Allah dərgahına ucalmalıdı...

**15.06.2018**

***

İşıqdan çox his verən çıraq,
Heç səndən gözüm su içmir…
Düz zəmini biçən əyri oraq,
Heç səndən gözüm su içmir…

**05.05.2017**

# İŞARAN HƏSRƏT KÖZLƏRİ

## ZƏRRƏLƏRDƏN YARANAN KAİNAT

Qürbətdən vətənə dönəndə
tanımadığım adamlar,
ilk dəfə gördüyüm üzlər belə
mənə doğma gəlir...
Bütün baxışlar,
gözlər belə
mənə doğma gəlir!
Hər gördüyüm üzdə,
hər eşitdiyim sözdə
bir zərrə işıq,
Hər aldığım havada
bir udum həyat,
Vətən –
zərrələrdən yaranan
müqəddəs diyar,
kainat...

**21.09.2018**



## SONSUZ YURD HƏSRƏTİ

Bir zaman Səngərin başında
çaxan dəli şimşəklər,
İndi mənim ürəyimdə çaxır!
Bir zaman dərələrdən
qalxan duman,
kəndimizdən qalxan tüstü
indi mənim başımdan qalxır...
Bir zaman gözlərim önündən axan
Ağa çayı, Bərgüşad, Həkəri
indi mənim gözlərimdən axır...
Bu sonsuz yurd həsrəti
məni dəli eləyəcək
əvvəl-axır...

**17.02.2019**

## CƏNNƏT NƏSİMİ

*Soyqırım qurbanlarının məzarı*
*önündə düşüncələr*

Adamlar axın-axın gəlirlər
Qubadakı soyqırım qurbanlarının
qardaşlıq məzarını ziyarətə...
Görəsən günahsız körpələr,
qadınlar, qocalar
necə dözüblər, Ilahi,
bu məşəqqətə,
bu müsibətə? –
Körpə fidanların

yaralarının zoqqultusuna
qayalar belə ufuldayırmış yəqin, –
fil belə dözməzdi bu ağrıya,
nəhəng fil!
Elə bil ki, torpağın altında
dustaq edilən illərin
ağrısını azaldır,
günahsiz qurbanların
sinəsinin üstünə qoyulan
hər qərənfil…
Şəhidlər öz ölümləri ilə
içimizdəki mürgünü qovdular,
düşmənə nifrət hissini diriltdilər…
Şəhidlər öz ölümləri ilə
qığcılcımı alova döndərdilər,
illərin biganəlik zülmətini əritdilər…
Müstəqillik açar oldu axır ki,
zamanın qıfılbəndinə,
tilsiminə…
Dalğalanan üçrəngli
bayrağımızın nuru
şəhidlərin uyuduğu
torpağın üstündə
döndü cənnət nəsiminə!

**03.04.2018**



## BAŞIN SAĞ OLSUN, VƏTƏN

Haqsızlığa göz yuma bilməyən,
Haqq yolunda şəhid olub
gözlərini yumdu…
O, sənin əsl balandı, Vətən,
Kim ki, sənin uğrunda
şəhidlik zirvəsi umdu…
Övladı şəhid olmağa
hazır olmayan xalqın
Özü şəhid olmağa
məhkumdu…
Başın sağ olsun,
şəhidlər anası Vətən!
Başını uca tut,
Ömrümüzün mənası Vətən!

**26.02.2019**

## LƏLƏTƏPƏ

Şəhid qanı ilə
yoğrulduğu üçün
bənzəyir qızıla,
lələ təpə…
Bir üzü qız,
bir üzü gəlin
xanımların göz yaşında
az qalır qərq ola
Lələtəpə…

Hər igid bir qarış
vətən torpağı üçün
uf demədən
kəfənini doladı boynuna.
Görəsən 92 şəhid məzarı
yerləşərdimi
bu kiçik təpənin qoynuna?!
...Tanrı özü yar olsun
bu haqq,
bu ədalət savaşına!
Üçrəngli bayrağımız çevrilib
şəhidlərimizin baş daşına...

29.03.2017

## XARIBÜLBÜL HƏSRƏTİ

Bir Xarıbülbül şəkli
Görüb səni düşündüm.
Ruhumu sazaq kəsdi,
Üşüdüm, bərk üşüdüm...

Ürəyimdən keçdi ki,
İkimiz də quş olaq.
Verib qanad-qanada
Durnalara qoşulaq...



Uçaq doğma Şuşaya,
Tənha yurdu görək biz.
Enib Cıdır düzünə,
Xarıbülbül dərək biz...

Dağları sevindirək,
Düzləri sevindirək.
Yolumuza dikilən
Gözləri sevindirək.

Acgöllüklə su içək
Biz İsa bulağından.
Qarqarı seyr eləyək
Çıxıb Üçmıx dağından...

Bu sevginin tarixi
Yadımdan çıxan deyil.
Kaş Xarıbülbülümə
Qovuşaydım gələn il...

Gərək bu eşq yoluna
Həyatımı həsr edim...
Məni yandırıb yaxır,
Xarıbülbül həsrəti...

2017

## MƏNİM ƏZİZ ŞƏHƏRİM

Hər eldən, hər obadan
Gələnə dedin balam.
Taleyimin şəhəri,
Mənim alınmaz qalam!

Gözəlləşən Sumqayıt,
Bizə şərəfsən, şansan.
Sən adi bir şəhər yox,
Böyük Azərbaycansan!

Qəhrəmanlar yurdusan,
Zəfər sənə yaraşır.
Sən Xəzərə bəzəksən,
Xəzər sənə yaraşır!

Həmişə Bakımızla
Adın çəkilir qoşa.
Mənim doğma şəhərim –
Sumqayıtım, min yaşa!

Hər gün gözəlləşirsən
Sahilində Xəzərin.
Şəhərlər arasında
Yoxdu sənin bənzərin!



Tələsirəm qoynuna,
Hara olsa səfərim.
Mənim əziz şəhərim,
Mənim doğma şəhərim!

**12.02.2019**

## KEÇMİŞ, GƏLƏCƏK

Həvəslə, səbrlə
Bu yolu keçmişəm.
Gələcək səsləyir,
Yol yoxdu
keçmişə!

**14.01.2019**

## ÖTƏN İLLƏRİ XATIRLAYANDA

Xatırlayanda ötən illəri
İçim nura boyanır.
Yer üzünə səpilən
ayaq izlərimdən
Xatirə çiçəkləri
boylanır...

**14.01.2019**

## XATİRƏLƏR QIŞI

Unuda bilmirəm
kəndimizin dağlarında gəzdiyim
qarlı günləri –
xatirələr axın-axın,
xatirələr qoşun-qoşun...
İçimi göyüm-göyüm göynədir,
sızım-sızım sızıldadır,
Qarı heç zaman əriməyən
xatirələr qışı...
Atalarımızın, analarımızın,
babalarımızın, nənələrimizin
məzarı üşüyür
o qarın altında...
Görəsən son günlərini yaşayan
ayaq izlərimiz
nə düşünür
o qarın altında?
O yerlərdə doğulan insanların
sırası yamanca seyrəlib...
Gözləri yollarda qalanların isə
hamısı qocalıb, kövrəlib...
Yaşamaq lazımdı
bu həsrətin axırına
daş atmaq üçün...
Yaşamaq lazımdı
mərdliyi, qeyrəti,
kişiliyi, ləyaqəti,
saflığı, sevgini, məhəbbəti,



bir də o doğma yurda
dönmək ümidini
bir az da artıq
yaşatmaq üçün...

**08.02.2018**

## QAÇQIN ŞƏHƏRCİKLƏRİ

Yurdumuzda
qaçqın şəhərcikləri salınandan
ümidlərim də didərgin düşüb...
Gizli-gizli qaranlıq mətləblərin üstünə
elə bl indi-indi gün düşüb...
Göydələnlər göy,
ağrılar ürək dəlir!
Leyli yurdundan ayrı düşən
Məcnun ürək dəli!
Didərginlər üçün
tikilən bu evlərə,
onların içində yaşayanların
didərgin taleyinə sarı
gözəgörünməz bir duman sürünür...
O binaların ən yüksək mərtəbəsindən
işğal olunmuş torpaqlarımızdan,
şəhərlərimizdən,
kəndlərimizdən başqa
hər yer, hər yer görünür...

**23.03.2019**

## İNDİ BİZ NEYLƏYƏK, FÜZULİ BABAM?

"Füzuli dərd əlindən dağa çıxdı,
Dedilər bəxtəvər yaylağa çöxdı…"

Daha dizimizdə təpər qalmayıb,
Qaymağımız orda, yağımız orda.
Burda boynubükük bir bənövşəyik,
Fironluq eləyir yağımaz orda…

Boş-boş danışanda filə dönmüşük,
Sərsəri küləyə, yelə dönmüşük,
Biz burda alışıb külə dönmüşük,
Küllüyə çevrilib bağımız orda…

Həsrət buludundan göylər qaralıb,
Tərlanlar yurdunu qarğa, sar alıb,
Xiffətdən gözümün kökü saralıb,
Əsirdi ən xoşbəxt çağımız orda…

Sayrışır gözümdə qəm fişəngləri,
Titrədir ruhumu əcəl zəngləri,
Sozalıb, tükənib ömrün rəngləri,
Qaramız burdadı, ağımız orda.

Elim didərgindi, dağılıb obam,
Dərdimi açmağa çətin dağ tapam,
İndi biz neyləyək, Füzuli babam? –
Dərdimiz burdadı, dağımız orda…

**31.08.2019**



## BİR ŞƏHİD ÖVLADININ HARAYI

Göz yaşımız, harayımız
Yatanları oyatmır!
Gözlərimiz yolda qalıb
Niyə atam qayıtmır?
Nə olar, qaytarıb mənə
Əziz adamı verin! –
Qanpulundan ata olmur,
Mənə atamı verin!

**01.11.2018**

***

İşıq seli gözə yağır,
Göz yaşları üzə yağır.
Torpaq susuzdan çat-çatdı,
Yağışsa dənizə yağır...

**2018**

***

Həyat mənim ömrümə
Hər gün təzə rəng qatır.
Dünya gözəlləşdikcə,
Yaşamaq eşqim artır!

**2018**

## QIŞIN QU NƏĞMƏSİ

*Muxtar Babayevə*

Yazın şahlıq taxtına
çıxdığı bir məqamda
qara bələnib yamaclar,
dağlar, dərələr…
Baxdıqca göz oxşayır
həsrət qoxulu
bəmbəyaz mənzərələr…
Adam inana bilmir gözünə –
Qış qanadlarını çırpıb,
bəmbəyaz lələklərini
səpib yer üzünə…
Havalar necə olacaq görəsən? –
Möcüzələr dünyasında
etibar da qalmayıb sabaha!
Arabir hücüm eləsə də
yazın ərazisinə,
Qış yer üzündə özünə
yer tapa bilmir daha!
Əvvəl-axır bu ilin qışı da
bəmbəyaz bir qu kimi
öz sonuncu nəğməsini
oxuya-oxuya,
köçəcək əbədi bir dünyaya,
gedəcək əbədi bir yuxuya…

**31.03.2018. Qusar**



## QIŞ LİBASLI YAZ NAĞILI

Bu qış həsrət qalsam da,
qar üzünə,
qismətimdə yaz qarı
görmək var imiş…
Qismətimdə
bəyaz örtüyün altından
bənövşə dərmək var imiş…
Ağ libasa bələnib yamaclar,
ağ örtüyə bürünüb dağlar…
Elə bil bəyaz paltar geyinib əyninə,
yer üzünə gəlin köçmək istəyir bahar!
…Hər görüşün öz tarixçəsi,
hər sevginin öz nağılı…
Məni bəxtəvərlər bəxtəvərinə
döndərib,
qış libaslı yaz nağılı…

**31.03.2018. Qusar**

## BU QIŞ DA BİR AYRI QIŞDI

Bu günkü qarın soyuğu
ürək göynədər,
iç əridər.
Çöldə qar yağırsa,
mən necə rahatlıq tapım
içəridə?

Bu qış ayrı bir qışdı, –
sahilin ağlığı çaşdırıb
bəyaz dalğaları …
Yenə də kükrəyib daşır,
dondura bilməyib
ayaz dalğaları…
Bu gözəlliyin önündən
necə biganə keçim?
"Qar soyuq olur"deyənlərin
sözünə necə inanım,
Qar yağanda
həsrət alovuyla
göynəyirsə içim?!...

**02.02.2017**

## KÖVRƏK PAYIZ

Ayrılıq qorxusu
yarpaq kimi
titrədir ürəyimi,
yaş göynədir gözlərimi...
Payız yarpaqları
meşənin həsrətdən saralan
gözlərimi?
Sözsüz vida nəğməsi
könül dağlayır...
Elə bil başını söykəyib sinəmə,
Payız gildir-gildir ağlayır!
O tökülən yarpaqlar
mənimkimi?



O tökülən yarpaqlar
səninkimi?
Payız da kovrəkdi
mənim kimi,
Payız da kovrəkdi
sənin kimi...

**18.10.2018**

## QUSARDA PAYIZ

Rəssam payız hər yanı bəzəyib,
meşələr, bağlar
elə bil gözəllik çələngidi...
Sarı dünyanın həm ən isti,
həm də ən kövrək rəngidi...
Budaqlarda nə qədər
tir-tir titrəyən,
əsim-əsim əsən yarpaq var!
Adi bir mehdən də,
üstünə qonan bir damcı şehdən də
üzülüb düşə bilər yarpaqlar!
Təbiət ana elə doluxsunub ki,
bircə söz söyləsən,
meşələr, bağlar
gildir-gildir ağlayacaq...
Bircə himə bənd olan budaqlar
sarı simə bənzəyir,
Mizrab küləklər toxunan kimi
həsrət nəğməsi çağlayacaq...

**09.11.2018**

## PAYIZA QONAQ GEDƏK

Elə bil yaz qayıdıb,
Yaşıllaşıb yamaclar.
Yamyaşıldı hələ də
Parklardakı ağaclar…

Həmişə bahar olar? –
Torpaq dincəlməlidi,
Yarpaqlarını töküb,
Budaq dincəlməlidi…

Deyirlər payız indi
Kənddə yurd-yuva salıb.
Şəhərdəsə şairin
Gözü yollarda qalıb…

Durub yol gözləməkdən
Səbrim daralıb mənim.
Budaqlar yox, gözümün
Kökü saralıb mənim…

Belə getsə, qışın da
Olacaq ömrü gödək…
Dur əyləşib maşına,
Payıza qonaq gedək!

**29.10.2017**



## MƏN PAYIZ AXTARIRAM

Qəlbim həsrətdi kəndimin
Soyuğuna, ayazına.
Nədənsə quşum qonmayır
Bu şəhər, park payızına...

Palıdlar, vələslər, vənlər
Gözlərim önündən getmir.
Mənsiz qalan meşələrə
Səsim çatmır, ünüm yetmir...

Hər yarpağın öz rəngi var,
Qırmızı, qızılı, sarı...
Sanki xəzəllər ah çəkib,
Boylanır şəhərə sarı...

...Burda yarpaqlar hamısı,
Bir boyda, bir biçimdədi...
Mən payızı axtarıram,
Payız mənim içimdədi...

**28.10.2018**

## YAĞIŞ ALTINDA

Hər sübh yolumu gözləyir
könül dostum doğma Xəzər!
Qorxum yoxdu bu yerlərin
yağışından, küləyindən!
Hər gün dənizdə çimirəm
gün çıxmamış, səhər-səhər,
Üzülməyibdir əllərim
hələ yayın ətəyindən!

Baş vururam dalğalara,
dodaqlarımda yar adı,
Sanmayın təkcə qismətim,
bir kağız, bir qələm imiş!
Şükür Ulu yaradana,
məni sevdalı yaradıb, –
Dənizə yağış yağanda
çimmək ayrı aləm imiş!

Məni insan yaratmısan,
nələrə qadirəm, Allah?!
Xoşbəxtliyi dərk edirəm,
iman nuru var gücümdə! –
Qəlbi sevdalı olmağın
həzzini dadıram, Allah!
Dənizdə dalğa kükrəyir,
fırtınalar var içimdə...

**19.09.2018**



## YAĞIŞDAN SONRA

Üzümdə qəm buludu var,
Yağış yağır, aram-aram...
Qəlbim həsrətdən göynəyir,
Ayrılıqla yoxdu aram...

Su süzülür topuğumdan
Palçığa batıb üst-başım...
Leysan ələndikcə sanki,
Sevinir torpağım, daşım!

Yağış kəsilib, şüşəyə
Toz-torpaqlı ləkə düşüb...
O, yumayıb, çirkləndirib,
Gör maşın nə kökə düşüb?

Yağışın nə günahı var
Qoymurlar suyu saf ola!
Gərək toz-torpaq yaradan
Küləkdə də insaf ola!

**19.09.2018**

***

Niyə belə yazılıb,
Bizim alın yazımız? –
Yalançı çərşənbəylə
Başlanır hər yazımız...

**20.02.2018**

## PAYIZDA YAY HAVASI

Payızın orta ayıdı,
sarı yarpaqlar quş oldu,
Günəş hələ soyumayıb,
Yaşamağa hava, su var.
Budaqlar öz işindədi,
yarpaqları yamyaşıldı, –
Hələ bəzi ağacların
Başında yay havası var…

2017

## NƏVƏMLƏ SÖHBƏT

–Baba, həyətdə yıxıldım…
–Sıxılma, yavrum, sıxılma!
Həyətdə yıxılmağın
eybi yoxdu,
Təki həyatda yıxılma…

08.02.2018

***

Görkəmi gözəl olana
Demə başımın tacıdı. –
Ürəyə oxşayan bibər
Zəqqutum kimi acıdı…

2017



## XƏSTƏLİK

Xəstəlik
yanan çırağın hisidi,
Canımıza-ruhumuza
hopur gilə-gilə…
Xəstəlik
ölüm mələyinin elçisidi
Tez-tez qılığımıza girib,
bizi tutmaq istəyir dilə…
Əl çəkmir yaxamızdan
Ümid çiçəklərimiz solanadək.
Bizi o dünyaya getməyə
razı salanadək…

05.05.2017

## TƏNHALIQ NƏĞMƏSİ

Gərilən əsəblərim
Elə bil ki, barıtdı.
Şükür sənə, İlahi,
Məni insan yaratdın!

Anlayıram gözəlcə,
Kim isti, kim soyuqdu...
Düşünüb daşınıram,
Sahildə kimsə yoxdu...

Mənə öyüd verənlər
Bilirəm ki, haqsızdı...
Könlüm nəğmə oxudu,
Dərə susdu, dağ susdu...

Eşq firtına qopardı,
Saçımdakı ağ susdu...
Bu yer, bu göy mənimdi,
Dəniz mənə məxsusdu...

**2018**

## TƏNHALIQ

–Bir zaman deyirdin ki,
elə bil mən Məcnunam,
sən Leylisən…
Həmişə yanındayamsa,
niyə tənhalıqdan gileylisən?
–Bu düzdü ki,
Sevgi ilə döyünməyən
ürək ürək deyil…
Ancaq yan-yana durmaq
hələ tənhalığın sonu
demək deyil…

**08.02.2018**



## İTİRİRİK, TAPIRIQ

Süvar olub zamana
Köhlən kimi çapırıq...
Sınaqlardır yol boyu,
İtiririk, tapırıq...

Yol çəkən gözlərimdən
Qəlbimə nisgil damar.
Özgəsinin malından
Xeyir gəlməz adama...

İmanı kamil olan,
Yolundan sapa bilməz.
Birisi itirməsə,
O biri tapa bilməz...

Sınayıb bəndəsini
Tanrı haqq-hesab çəkər...
Tapan sevinər, ancaq
İtirən əzab çəkər...

**13.09.2018**

## DAĞ YAMACINDA BULAQ

Min il torpaqda qalsa,
Xalis qızıl çürüməz.
Qar yağar dağ başına
İl uzunu əriməz.

Uca dağlar başından
Bəyaz qar əskik olmaz,
Onun yamaclarına
Sığınan çiçək solmaz.

Əriyib damla-damla
Təmiz qar yerə hopar.
Dağlara güvənənlər
Həmişə xeyir tapar.

Su, qayanın köksündən
Süzülməsə, durulmaz…
Qarlı dağ yamacından
Çıxan bulaq qurumaz…

**2018**



***

*M.Süleymanzadəyə*

Səsin gah zildən gəlir,
gah da ki, pəsdən…
Ruhunu ovxarlı saxla,
düşmə həvəsdən…
Mayası muğamla yoğrulan üçün
bəm də, zil də vətəndi.
Evsizlikdən şikayətlənmə,
kirayədə qaldığımız
mənzil də vətəndi…

## ÖMRÜN ƏVVƏLİ-SONU

İsti görəndə otlar
Torpaqdan baş qaldırır.
Körpə-körpə yarpaqlar
Budaqdan baş qaldırır...

Hava qızanda güllər
Qönçələyir, açılır.
Körpə-körpə fidanlar
Böyüyüb ağac olur.

Havadarlıq eləyir
Ota, çiçəyə bahar.
Harda istilik varsa,
Orda sevgi, həyat var!

Günün təbəssümündən
Ürəklənir çiçəklər.
Çəmənlərin üstündə
Uçuşur kəpənəklər.

Dağı, dərəni, düzü
Yuyur isti yağışlar.
Yuva qurmaq eşqinə
Düşür nəğməkar quşlar...

Yumulu gözlərini
Açır çiçəklər, güllər...
Baharın gəlişinə
Sevinir bütün ellər...

Yazda bütün ağaclar
Çəmənlərə qoşulur...
Budaqlarda yarpaqlar
Hamısı yaşıl olur.

Payızda isti külək
Soyuyur yavaş-yavaş...
Otlar, çiçəklər, güllər
Uyuyur yavaş-yavaş...

Günəş qızdıra bilmir
Əzəlki tək torpağı...
Bir-birindən seçilir
Ağacların yarpağı.



Fərqli rənglər, çalarlar
Budaqları bəzəyir.
Anamız təbiət də
Elə bizə bənzəyir.

Kim baş aça bilib ki,
Bu dünyanın sirrindən?
Uşaq da böyüdükcə
Fərqlənir bir-birindən...

Yaşlandıqca hamımız
Dözürük hər əzaba.
Biri varlıya dönür,
O birisi kasıba...

Dərk etdikcə bunları
İnsan yaman kövrəlir.
Bir-birinə bənzəmir
Ömrün sonu, əvvəli...

Yel əsir, ağacların
Birə düşür kürkünə!
Gec-tez hamı qayıdır,
Öz əslinə, kökünə...

**26.01.2019**

# DÜŞÜNCƏLƏR

## ALLAH HƏR ŞEYİ GÖRÜR

Məni görməməzliyə vuran paxıl,
Uğurlarım niyə səni yandırıb-yaxır?!
Başından niyə qara-qara dumanlar,
tüstülər qalxır?! –
Sən mən ola bilməzsən axı! –
Allah hər şeyi görür!
Vallah, hər şeyi görür!
İnsan yuxarı tullana bilərmi
boyundan?!
Ayrıla bilərmi
əslindən- soyundan?!
Sən udmusanmı dağların
mənim ciyərlərimə dolan
havasından?!
Sən içmisənmi
mən içdiyim
bulaqların suyundan?!
Sən sübhün alatoranında
Quşların nəğməsini dinləmisənmi?!
Sən mənim qədər
sevgi əzabıyla inləmisənmi?!



Sən mən çıxan dağlara
çıxmısanmı,
mən baxan yamaclara
baxmısanmı?!
Sən sıldırım çiçəyinə
könül bağlamısanmı?!
Onun gözündə şeh öpüb,
Xoşbəxtlikdən ağlamısanmı?!
Sənin də ürəyin
zirvələrə can atıbmı?!
Sənin də dizlərini
böyürtkən kolları qanadıbmı?!
Daş-kəsəkli yollar
yalın ayaqlarını qoyanda pis günə,
Sən yoncanın suyunu
sıxmısanmı
yaralarının üstünə?!
Zoğalın yarpağı qollarını,
üzünü dalayıbmı?!
Sübh günəşi üfüqdən
boylananda
İçində od qalayıbmı?!
Zəminin ortasında uzanıb
həsrət əzabıyla inləmisənmi?!
Külək əsəndə
sarı simə bənzəyən sünbüllərin
nəğməsini dinləmisənmi?!
Sən on yaşında
oraqla, kərənti ilə ot biçmisənmi?!
Çayın bu tayından o tayına

üzüb keçmisənmi?!
Sən sıldırıma dırmananda
Yıxılıb dizini çapmısanmı?!
Hələ uşaq vaxtından
yəhərsiz-yüyənsiz ata minib
onu çapmısanmı?!
Ot biçib, odun doğrayıb
taytutanla
ata yükləmisənmi?!
Qaranlıq düşəndə qorxudan
qulaqlarını şəkləmisənmi?!
Sən yuxuna haram qatıb hər səhər
Getmisənmi dənizin görüşünə?!
Sən tamaşa eləmisənmi
dalğaların qəhqəhəsinə,
ləpələrin gülüşünə?!
Üstünə yağış, qar yağa-yağa
ləpədöyəndə gəzmisənmi?!
Ürəyindəki sevginin xətrinə
əzablara, ağrılara dözmüsənmi?!
Görmüsənmi hər səhər
dənizdən boylanan günəşi?!
Üşüyən ürəkləri qızdıra bilibmi
sevdalı qəlbinin atəşi?!
Görmüsənmi hava tutulanda
buludların ağladığı günü?!
Görmüsənmi Xəzərin buzdan
qaymaq bağladığı günü?!
Bircə gecə oyaq qalıb
səhərəcən aya baxmısanmı?!



Onun ziyası altında
çağlayıb axan
çaya baxmısanmı?!
Sən yurd həsrətinin
ağrılarına dözmüsənmi?!
Sən tezdən Xəzərdə,
Axşam Egeydə üzmüsənmi?!
Pamukkalada ayaqyalın
gəzmisənmi?!
Yayın cırhacırında
Qrinlandiyanın
bəmbəyaz örtüyünü görüb,
sevincdən qanad açmısanmı?!
Okeanın bu tayından
o biri tayına uçmusanmı?!
Sakit okeanla Atlantik okeanı
birləşdirən yola
dəyibmi ayağın?!
Ağ dənizdə
ağ yelkən qaldırıbmı
sevgi qayığın?!
Ərəbistan səhrasında,
Hind okeanında,
Sakit okeanda
günəşin batdığını görmüsənmi?!
Tanrının gözəllik tonqalı
çatdığını görmüsənmi?!
Həsrətli şairin necə murada
çatdığını görmüsənmi?!
…Üzlərdəki ilahi

təbəssüm çiçəyini
həmişə əl yox,
baxış, göz dərib!
Çox şükür,
qəlbimi sevdalı
yaradanTanrım
mənə çox gözəllikləri
göstərib!
...Hələ Onun izniylə
gəzib dolanacağam
bu yer üzünü,
neçə ki, nəfəsim var...
Nə sən mən ola bilərsən,
nə mənim sən olmağa
həvəsim var...
Nə yaxşı ki,
yuxumu qaçıran sərmayəm,
tacım-taxtım olmayıb...
Nə yaxşı ki, kiminsə
paxıllığını çəkməyə
vaxtım olmayıb...
Məni görməməzliyə vuran paxıl,
Uğurlarım niyə səni yandırıb-yaxır?!
Başından niyə qara-qara dumanlar,
tüstülər qalxır?! –
Sən mən ola bilməzsən axı! –
Allah hər şeyi görür!
Vallah, hər şeyi görür!

**13.05.2017**



## MƏNİ İSTƏMƏYƏN XƏBİSLƏR

Məni istəməyən xəbislər,
Yazığım gəlir sizə yamanca...
Ən ətirli çiçəkləri
dəririb qoxlayıram,
Siz göz açıb yumunca...
Ay yazıqlar,
bu qədər ağrıya-əzaba
necə dözürsünüz?!
Dərənin dibində ola-ola
zirvədəkilərə ağız büzürsünüz!
Can atmayın qayaların köksündən
şaqqıldayıb axan
bulağı qurutmağa!
Xəbislikdən vaxtınız da qalmır
yazıb-yaratmağa!
Mən isə ilham köhlənimlə
sizi toza basıb keçirəm!
Uğurlarımla hər gün,
hər an, hər saniyə
sizə kəfən biçirəm!
Səsimi kəsməyə gücünüz çatmaz,
qışqıra-qışqıra öz səsinizi batırırsınız!
Var olun, məni istəməyən xəbislər,
Gücümü, yaşayıb-yaratmaq eşqimi
bir az da artırırsınız!

**21.02.2018**

## NİYƏ BİZ SEVMİRİK BİR-BİRİMİZİ

*Tələbə yoldaşımın qızı, alim dostum Qəzənfər Paşayevin qardaşı qızı və nəhayət, xalqımızın ləyaqətli qızı, millət vəkili Qənirə Paşayeva mənim çıxışımı dinləyəndən sonra haqqımda o qədər xoş sözlər söylədi ki! Onun "Ay Rafiq müəllim, görəsən niyə biz bir-birimizi sevə bilmirık?" sualı hələ də məni düşündürür...*

Niyə biz sevmirik bir-birimizi,
Özgə uğuruna gülə bilmirik?
Niyə dalğalanmır sevgi dənizi,
Nəyimiz şərikdi bölə bilmirik?

Dərd bizi Məcnun tək salıb dağlara,
Sevda yollarında kimə güvənək?
Qayıda bilmirik ötən çağlara,
Xiffət içimizi yeyir güvə tək...

Ot basıb keçmişə gedən cığırı,
Qürbətdə qoymuşuq gəncliyimizi.
Niyə selə dönüb özgə uguru
Götürüb aparır dincliyimizi?!

Tanrıdır bəxş edən sevinci bizə,
Qəlbə min rəng qatır bir göy qurşağı...
Niyə kölgə salır sevincimizə
Özgə təbəssümü, özgə işığı?!

Dostun uğurunu pərdələyən kəs
Atmazmı qəlbini qüssə közünə?
Özgə sevincini dərd eləyən kəs
Tamarzı qalmazmı sevinc üzünə?!



Səhra da gül-çiçək bitirə bilər,
Bulandırmaq olmaz qəlbi durunu.
Əgər belə getsə, itirə bilər
Görmək istəməyən göz öz nurunu...

Təmiz yaradıbdır qəlbi Yaradan,
Gəl bizə sırıma qəlp sevincini…
Sənə simsar olmaz qəlbi qaradan,
Qəlbi saflarla böl qəlb sevincini...

Hər gün dost qoşulsa dost sırasına,
Ani baxşı da el dastan edər...
Sevgi məlhəm olar dost yarasına,
Sevgi səhranı da gülüstan edər…

Adam tənha qalır sevilməyəndə,
Qəlbdə xılt olanda eşq atdan düşür.
Özgə sevincinə sevinməyəndə,
El-oba sözü də ırvatdan düşür…

Qoruyaq babalar yandıran közü,
Keçmişin nuru var sabahımızda!
Biz sevə bilsəydik bir-birimizi
Kim dura bilərdi qabağımızda?!

**02.07.2019**

## İLİN SON GECƏSİNDƏ DÜŞÜNCƏLƏR

Zamanın yolunu
heç bir hasarla,
çin səddi ilə
bağlamaq mümkün deyil!
Zamanı öz yolundan
saxlamaq mümkün deyil, –
Heyranam bu əbədi
hərəkətin gücünə!
Bir azdan köhnə il dönəcək
tarix sarayının bir kərpicinə!
Bir azdan köhnə il
bir şam kimi
əriyib, əriyib tükənəcək,
əriyib, əriyib sönəcək...
Bir azdan son saniyə
köhnə ilin sonunda
son nöqtəyə dönəcək ...
Ömrümüzdən
uçub gedən köhnə il
köçəri quşa bənzəyəcək...
Son saniyə
köhnə ilin gözündən qopan
son gilə yaşa bənzəyəcək...
Köhnə ilin
son çınqısından
təzə il od götürəcək...
Köhnəni əlimizdən alan zaman



ömrümüzə təzəni gətirəcək...
Bir azdan köhnə il gedəcək,
Bir azdan təzə il gələcək...
Gözəgörünməz tellərlə
bir-birinə bağlıdı
keçmiş, indi, gələcək!
Bir-birini qovur saatlar,
dəqiqələr, anlar!
Zamanın sürətini, sehrini
yalnız ariflər duyar,
yalnız ariflər anlar!
İnsan arzusu, insan sevgisi
zaman-zaman
dünyamızı bəzəyir...
Əlvida köhnə il,
Xoş gördük, təzə il!

23.12.2018

***

Başım həmişə ucadı,
elə bil üstünə
qar yağan dağdı.
Sevinirəm ki,
xalqımın qarşısında
Üzüm də
saçlarım kimi
ağdı...

## DİLİMİZİ "DİLÇİLƏR"DƏN QORUYAQ

*Dilimizin saflığını qorumaq hamımızın borcümuzdur. Dilçilər "dil yaradıb" dilçi olmurlar, dili tədqiq eləyib, onun qanunauyğunluqlarını öyrənib dilçi olurlar. Başqa sözlə desək, dili dil eləyən dilçi deyil, dilçini dilçi eləyən dildi...*

Ey dili çörək ağacına
döndərən dilbilməz!
Dilin başında dəlləklik eləməyə
vəkil edib kim səni?
Dil xalqın sərvətidi,
onun bir sözünü belə dəyişməyə
haqqı yoxdu kimsənin...
Oxuduğun "Quran" olsa,
bəlkə də xoşumuz gələrdi
səsindən, avazından...
Dilin dilçəyini
çıxarmaqmı istəyirsən
millətin boğazından?!
Dil tapaq,
dil verməyək
dilbilməzlərə!
Onları qoymayaq
dil-dil ötməyə!
Sonra söz də tapa bilməyəcəyik
yaratdıqları zir-zibilin
üstünü örtməyə...



Dilin sahibi
dilçilər deyil, xalqdı...
Xalq isə həmişə haqlıdı...
Dili dilbilməz
dilçilərdən qorumaq
Xalqın haqqıdı!
Belə getsə,
dilbilməz dilçilər
dilimizi qoyacaqlar pis günə...
Ayrı-ayrı adlar axtaracaqlar
yağışa,
qara,
dumana,
çiskinə...
Əmanətə xəyanət eləməzlər –
dil – babaların, nənələrin
bizə əmanətidi!
Gəlin dilimizi qoruyaq
dilbilməz dilçilərdən! –
Dil – xalqımızın sərvətidi!
Söz adamları
həmişə hazır olmalıdı
dilimizin saflığı uğrunda döyüşə!
Dili yaradan dilçi deyil ki,
onu da dilçi dəyişə!

**17.01.2018**

***

Naşı qələminizlə
ilahi sözün başına
açmayın oyun!
Ya dili öyrənin,
ya da dilinizi
dinc qoyun!

**18.12.2017**

## DURĞU İŞARƏLƏRİ

Durğu işarələri olmayan
cümlədəki sözü
adam min yerə yoza bilər…
Bircə artıq,
yerinə düşməyən söz
cümlənin mənasını dəyişə,
onun nizamını poza bilər…
Hər bir azara, dərdə
çarə lazımdı,
Bir də arifə
işarə lazımdı…

**18.08.2017**
**Los Angeles, Venis**



## NÖQTƏ

Nöqtə –
ürəyə düşən xal,
vicdan əzabıdı…
Nöqtə –
cümlələr arasında sərhədçi,
ögeylərin üzünə
bağlanan qapıdı…
Nöqtə qoydunsa bir işə,
şülüz bağlanır,
sular quruyur…
Nöqtə –
cümlələrin hicabıdı,
Onu naməhrəm baxışlardan –
sözlərdən qoruyur…

**18.08.2017**
**Los Angeles, Venis**

## ÜÇ NÖQTƏ

Üç nöqtə
dalımca gizlicə baxan
sevdalı bir qızın
nəmli gözləridi…
Üç nöqtə
deyilməyən sözlərin
ayaq izləridi…

**18.08.2017**
**Los Angeles, Venis**

## SÖZ ADAMI

Kövrəlir, bulud tək dolur,
Həssas olur söz adamı…
Həsrəti göz yaşı olub,
Damla-damla sözə damır…

**29.06.2017**

## SEVGİDƏN BAŞQA

Daddım bu dünyanın
şəkərini, duzunu…
Doğmalarımla bölüşdüm
Allahın göndərdiyi
halal ruzini…
Əritdim neçə ürəyin
buzunu…
Qurdun pəncəsində
tənha qoymadım quzunu,
Sevgidən başqa
heç kəsə,
heç nəyə
təslim olmadım
ömrüm uzunu…

**10.05.2017**



***

Mənə keçmişin qalığı kimi
baxan cavan,
Mən sənin keçmədiyin
yolları keçmişəm!
Mən səninlə
gələcəyə gedə bilərəm,
Sən mənimlə
dönə bilərsənmi keçmişə?!

**2018**

## MƏNİM KİMİ

Qocalığıma gülmə,
hələ kim bilir
sən də mənim kimi
qocala biləcəksənmi?
Sən də sevgidən mənim kimi
güc ala biləcəksənmi?
Sən də mənim kimi
zirvəyə ucala biləcəksənmi?
Sən də küləklərdən
bac ala biləcəksənmi?
Məni “qoca” sanıb
qaçmaq istəyirsən uzağa,
Sevdalı ürəyinlə
bacara biləcəksənmi?

**14.07.2017**

## MƏNİ İSTƏMƏYƏNLƏRİN SAYI

Məni ruhdan salmaq,
öz yolumdan döndərmək
cəhdi hədərdi,
Məni istəmiyənlərin sayı
istedadsızların sayı qədərdi…

18.12.2017

***

Hər oxuyan qu deyil,
Damarda qan su deyil.
Nə döyürsən döşünə,
Yazdıqların bu deyil?!

27.01.2017

***

Böyük sənətdən
Böyük-böyük danışmaq
əbəsdi, əbəs!
Həvəskarda
peşəkarlıq yoxdu,
Peşəkarda həvəs…

17.01.2018



## MƏN

Mən mənə dəyər verənlərin
ayağının altında
torpağa dönə bilərəm.
Mən çoxdan quruyan
ağacın budağında
yarpağa dönə bilərəm…
Mən deyilməyənləri də
duymaq,
bilmək gücündəyəm…
Mən mənə laqeyd olanları
Həyatımdan
silmək gücündəyəm…

06.05.2017

## GÖRƏSƏN

Heç vaxt
nala-mıxa vurmamışam,
həmişə olub
bir üzüm,
bir sifətim!
Çıxdığım dağların,
suyunu içdiyim bulaqların,
gəzdiyim yamacların,
kölgəsində dincəldiyim ağacların,
çimdiyim dənizlərin, göllərin,
dərdiyim, qoxladığım güllərin,

Sakit okeanda
üzdüyüm adaların,
tanış olduğum adamların
şəklini çəkib
özümlə gətirmişəm…
Görəsən o dağların,
o bulaqların,
o yamacların,
o ağacların,
o dənizlərin,
o göllərin,
qoxladığım o güllərin
o adaların,
o adamların
yadında qalıbmı
mənim surətim?!

**06.02.2018**

***

Ahıl sözünün ilk hecası
"Ah"dı...
Ahılın qəlbinə dəymək,
Günahdı...
Nə tez ötdü ah, illər?
Biz də olduq ahıllar...

**27.01.2019**



***

Həyatda hər adama
könül qızdırmaq,
ürək bağlamaq olmur.
Sevgi də göz yaşı kimi
bir şeydi,
Yalandan ağlamaq olmur...

**27.01.2019**

***

Yaşımı soruşursan,
Yetmişin içindəyəm.
Qəlbimdə haqq nuru var,
Yetmiş şir gücündəyəm...

## GİLEYLƏNMƏ

Gileylənmə həyatın
ağrısından, acısından,
Az sızla,
az deyin,
az köks ötür!
əslində problem elə
həyat deməkdir,
Problem bitəndə
həyat da bitir...

**26.06.2018**

***

Sevgiyə həssas ürəyim
hər odlu baxışla alışmır;
dil-dil ötən könül sazım
hər kirpik mizrabla danışmır.
Hiss eləyirəm ki, hər şeyim ola-ola
həyatımda nəsə, nəsə çatışmır...
Nə qədər pəncərə önündə dayanıb
ah çəkə-çəkə uzqlara baxım?
Gözəlliklə doludur solum, sağım...
Evim, maşınım, bağım...
Hər şeyim, hər şeyim olsa da
əlçatmazdı uşaqlığım,
ünyetməzdi cavanlığım...

**31.05.2019**

## GÜN İŞIĞININ ALTINDA

Gün işığının altında
Çiçəklər sanki közərir…
Elə ki, sərin meh əsir,
Ləçəklər sanki közərir…

**06.06.2017**



***

Dünyanı gözəlləşdirən
Şıltaq, sevdalı ürəkdi…
Dəniz döyünən qəlbimdi,
Günəş bir sarı çiçəkdi…

**07.07.2017**

## ƏLVİDA, QƏLƏM

Kim baş açıb indiyəcən
Bu dünyanın
gəlirindən,
çıxarından?
Kim saxlaya bilib axı
Zamanı öz axarından?
Yarandığın gündən
nə qədər qərinələr,
əsrlər ötdü…
Əlvida, qələm,
Sənin də dövranın bitdi…
Kompüterdə
yazı yazmaq
ayrı aləmdi!
İndi hər barmağım
bir qələmdi…

**12.05.2017**

## ŞÜKÜR ELƏ Kİ...

Gileylənmə bu qədər –
İnsan olmağın sevincini dad!
Unutma ki,
ən çətin məqamda belə
köməksiz,
naəlac deyilsən!
Şükür elə ki,
pələngin pəncəsindəki ceyran,
canavarın dişindəki quzu,
qartalın caynağındakı
turac deyilsən!

**30.01.2019**

## BU DÜNYANIN UZUN İŞLƏRİ

İnsan qocaldıqca beli bükülür –
elə bil yaşadığı günlər, aylar
eləyir ağırlıq ona!
Bu dünyanın işi çox uzundu,
Hər çiyin tab gətirməz,
onu dərk etməyin
ağırlığına...

**30.01.2019**



## ZAMANIN SIGALI

Deyirlər ki, möcüzəlidi
Zamanın sığalı...
Onunla ən dərin
yaralar belə sağalır...
Hər səhər günəş
sehrli bir xoruz kimi
qanadlarını çırpıb,
şəfəq lələklərini
üstümüzə tökür!
Hər axşam üzümüzə
qürub günəşinin
kölgəsi çökür...
Hər gecə ay işığı öləziyən
ümid közlərimizin yerində
ocaq çatır...
Zaman hər gün üzümüzə
sığal çəkir,
ancaq qırışlar azalmır ki,
azalmır,
daim artır, artır...

**31.01.2019**

***

İnsan kimi yaşamağa
hər adamın vaxtı çatmır,
Bizim ömrümüz
o qədər də uzun deyil...
Bu dünyada
ağrılardan, acılardan başqa
heç nə bizim deyil...
Yazıq insan dünyaya gələndən
qayğılar labirintində
çaşbaş qaldı, azdı...
Ona görə də
həyatın gözəlliyini,
dünyanın faniliyini
dərk edən insan
Yüz il də, min il də
yaşasa,
deyəcək azdı...

***

Qəlbimə də xal düşür elə bil
yarpaqlar budaqlardan
bir-bir ayrılınca, düşüncə...
"Görəsən bizim axırımız
necə olacaq?" –
Məni xəyallara qərq edir,
mənə rahatlıq vermir
bu fikir, düşüncə!...

**27.01.2019**



## VƏZİFƏ

Təəccüblənirsən ki,
niyə bu vaxtacan
böyük bir vəzifə sahibi
olmamışam
bu qədər ağlım,
istedadım ola-ola? –
Vəzifə mənim
nəyimə lazımdı, a bala?
Yazıq ömür-gün yoldaşım
40 ildən çoxdu ki,
mənim şıltaqlığıma,
dəymədüşərliyimə,
təmənnasızlığıma
dözür, tab edir...
Nə yaxşı ki,
kiminsə tabeliyində
yaşamaq, işləmək,
nəfsin qulu olmaq
istəməmişəm bu vaxta qədər,
Nə yaxşı ki,
Allahdan aşağı hər şey,
hər şey
mənə tabedir...

**12.01.2019**

## KÜLƏK VƏ YUVA

Uçurub dağıdır deyə
Qınamayın qasırğanı,
tufanı!
Nə qədər külək əssə belə,
dağıda bilmir
kiçik quş dimdiyiylə
qurulan yuvanı.
Hər işin özülündə
sevgi, məhəbbət
olsun gərək!
Yoxsa onu
göylərə sovuracaq
Qəfil əsən
sərsəri bir külək...

27.01.2019

***

Ağaclar yazda belə
qərib sayır özünü.
Ağaclar tam aça bilməyib hələ
yarpaq gözünü...
Don vuran çiçəklərin babalını
Ayağına yaz qışın!
Ötən qış yaz havası
az olmamışdı,
Elə bil indi də
borcunu qaytarır
yaz qışın...

20.04.2019



## QARSIZ QIŞ

Çillələr də itirib çilləliyini,
Ümidimiz də qalmayıb
qar yağa...
Elə bil qışın da əli gəlmir
qara günlərimizə
ağ rəng qatmağa...

***

Bu il də qış
qış olmadı,
Həsrət qaldıq
qar üzünə...
Yağmağa
təmiz yer tapmır
Elə bil ki,
qar özünə...

24.01.2019

***

Çıxarmırsan cıqqırını,
Haqsızlığa göz yumursan…
Günah sənin özündədi,
Haqq vermirsən,
haqq umursan…

## ULDUZA HÜRƏN KÖPƏK

*"Ağılsız köpəklər ulduza hürər"...*
Səməd Vurğun

Bu köpək yalsız qalmağın
Səbəbini bizdə görər...
Bir az o karvana hürər,
Bir az bu karvana hürər...

Gözündən nifrət boylanar,
Hər gün qaşları çatılar.
Muradına çata bilməz,
Qəlbi hər gün çat-çat olur...

Özgəni xoşbəxt görəndə,
Aləmi bir yerə qatar...
Siçan boyda ürəyində
Div boyda küdurət yatar...

Perikib qəlb yuvasından
Ondan nurlu sözlər küsüb...
Sevgi bulağı önünü
Hikkə əjdahası kəsib...

Zülməti deşən şəfəqlər
Biz olub batar gözünə...
Ulduza hürən köpəyin
Hürməyi qalar özünə!

**04.07.2019**



***

Həyatımız olsa da,
Bəzən, mutsuz, dözülməz...
Baş götürüb harasa
Qaçmaqla iş çözülməz...

Mənim sevgi bağımdan
Könlünün quşu uçub,
Ürəyində təptəzə
Arzular puçur-puçur...

Dodağında təbəssüm,
Əllərində xına var...
Hələ duza gedirsən,
Öndə sallaqxana var...

Daha mən çəkməyəcəm
İtin-qurdun dərdini...
Təzə yurdda bilərlər,
Köhnə yurdun qədrini...

**07.08. 2019**

***

Sağlamlığını qoru,
Fayda yox cana vardan!
Nəfsin qulu olanın
Nə fərqi canavardan?!

**15.06.2018**

## XİFFƏT XƏZİNƏSİ

Qəm kəsib könül qapımı,
Çaylaq daşı tək üzü var.
Ömür də ümman kimidi,
Sahili var, dənizi var...

Dərd içimdə ocaq çatdı,
Şöləsi hər yana çatdı,
Sevdalı qəlbim çat-çatdı,
Hər ağrının bir izi var...

Yol gedəndə dizim əsir,
Dodağımda sözüm əsir,
Qəlbim – xiffət xəzinəsi, –
Həmişə ağlar gözü var...

Son yol ayrılıq yoludu,
Mən səni necə unudum?
Başımda kədər buludu,
Qəlbimdə həsrət közü var...

Yağış yağıb getməlidi,
Sellər axıb getməlidi,
Hamı çıxıb getməlidi,
Bir gün gec, bir gün tezi var...

**07.08.2019**



***

Şübhə həqiqətə açar,
Şübhə salıb qəlbimə xal!
İnsan niyə vəfasızdı? –
Üzür məni fikir, xəyal...

Sanma ki, bəxtin güləcək,
Uydurma
yapma gələcək!
Haqq-hesab günü gələcək –
Zəhər dönüb olarmı bal?

Əkilməyənlər biçilməz,
Sevgi parayla ölçülməz,
Heç vaxt, nazilməz, kiçilməz,
Günəş dönüb olmaz hilal!

Deyirəm sözümü kəsə,
Daş ola bilərmi kəsək?
Haqqımı tapdayan kəsə
Olacaqmı haqqım halal?

**17.04.2019**

***

Ocaq közünü tərifləyir,
Şair sözünü tərifləyir.
Özgəni görmür gözümüz,
Hamı özünü tərifləyir...

**21.02.2019**

## GƏLİN BİR ŞƏKİL ÇƏKDİRƏK

Əsəndə xəzan yelləri,
Nə yarpaq, nə gül qalacaq.
Bağda nə sevgi nəğməsi,
Nə şeyda bülbül qalacaq.

Dərd gülləri saçaq-saçaq,
Qanadımız varmı uçaq? –
Soyuyacaq ən gur ocaq,
Köz sönəcək, kül qalacaq...

Həsrətlə doludur bəbək, –
Söz közərir ürkək-ürkək...
Gəlin bir şəkil çəkdirək,
Qalsa bu şəkil qalacaq...

**10.07.2019**

***

Yer üzündə qanan üçün
hər işdə var hikmət, məna,
Öz işini bitirəndə
insan bu dünyadan köçür...
Elə bil gözə görünməz
qoşa relsdı ata-ana –
Bizim ömür qatarımız
onların üstündən keçir...

**2019**



## SAQQAL

Nənəm tez-tez söyləyərdi:
Ay saqqalın ağarsın!
Məcrasına düşüb gedir,
Ömür də bir axar su!

Onun qarğışımı tutub,
Saqqalıma dən düşüb!
...Saqqallılar çoxalandan
Saqqal hörmətdən düşüb...

**06.06.2018**

***

Şərikik doğmaların
sevincinə qəminə,
Hamı bilir ki, insan
bu dünyada qonaqdı.
İnciyib küsənləri
barışdırmaq naminə,
Əyrini düzəldərlər,
düzü əymək günahdı!

**13.03.2018**

***

Sevdalı ürəyimdən
Həyat eşqi tükənməz.
Dənizlə baş-başayam,
Necə deyim təkəm mən?!

***

Mən bir qətrə göz yaşı tək
Gözdən ayrıla bilərəm.
Bircə anda külə dönüb,
Közdən ayrıla bilərəm.
Ömür ağacı üstündə
Titrəyən yarpaq kimiyəm,
Hər gün, hər an, hər dəqiqə
Sizdən ayrıla bilərəm...

**17.04.2019**

***

Çıraq var ki, işığı hamıya bəs eləyir,
Çıraq var ki, yansa da, həmişə his eləyir...
Nəyin yaxşı, nəyin pis olduğunu əzəldən
Desən də, deməsən də, həssas qəlb hiss eləyir...

**20.06.2019**

## DAĞI DƏLİ OLANIN

*Namiq Dəlidağlıya*

Gecə-gündüz hıçqırıb için-için ağlayır,
Dəlidağın köksündə neçə bulaq çağlayır…
Mənim də başım üstə fırtınalar oynayır,
Mənim də gözlərimdə gur çeşmələr qaynayır…
Ayrı bir dağa çıxıb, ayrı lalə dərdim mən,
Dəlidağ dəli olub indi mənim dərdimdən…
Ürəyimin başında ağrı kündə-kündədi,
Dağı dəli olanın gör özü nə gündədi?

**18.05.2017**



## ÖMRÜN PAYIZI GƏLƏNDƏ

Ömrün payızı gələndə
Həsrət küləkləri əsər...
Tənhalıqdan əzab çəkən
Ürək harasa tələsər...

Dolar buludların gözü,
Şaqqanaq çəkər şimşəklər.
Yarpaqların dincliyini
Pozar əzrayıl küləklər...

**04.02.2019**

***

Tutur gözlərimi çən, qocalıram,
Ələnir saçıma dən, qocalıram.
Zaman öz atını çapır dördnala,
Bakı cavanlaşır, mən qocalıram...

Kömürə çevrilir köz, qocalırıq,
Seçməyir uzağı göz, qocalırıq.
Zaman öz atını çapır dördnala,
Bakı cavanlaşır, biz qocalırıq...

**03.03.2019**

# İSTANBULLU SƏTİRLƏR

## YER

Allahın yaratdığı
Dünyanın sehrinə bax:
Yer sanki bir yumruqdu,
Hər qitəsi bir barmaq…

Günəş gülümsəyəndə,
Dağlar, daşlar nurlanır.
Yer havada top kimi
Fırım-fırım fırlanır…

Dəyər verək biz yerin
Ocağına, közünə…
Əgər naxələf olsaq,
Yer yer tapmaz özünə…

Dünyamıza bəzəkdi
İnci, mirvari, almaz…
Yumruq kimi bir olsaq,
Yer göydə tənha qalmaz…

**25.06.2017**
**İstanbul**



## İSTANBUL

Həm Avropayla Asiyanın,
həm Qara dənizlə Mərmərənin,
həm mədəniyyətlərin, dinlərin
həm də keçmişlə bu günün,
qovuşduğu yerdi İstanbul…
hara baxsan tarixi abidədi,
camedi, məbəddi,
pirdi İstanbul…
Başdan ayağa möcüzədi,
sirdi İstanbul…

**25.06.2017.**
**İstanbul**

## İKİ QİTƏ ÜZ-ÜZƏ

Bosfora bax, Bosfora,
Bənzəri var fosfora –
O sahilə nur saçır,
Bu sahilə nur saçır…
Bu sahil könül açır,
O sahil könül açır…

Nə gözəl yerdi bura,
Baxırsan hara – dəniz…
Bir-birinə qovuşub,
Mərmərə, Qara dəniz…

Gecələr gülümsəyib,
Şəfəq salır ay suya…
O sahildə Avropa,
Bu sahildə Asiya…

Gözəlliyə baxıram
Gəmiylə üzə-üzə.
Dayanıb gülümsəyir
İki qitə üz-üzə…

Dünyanın mərkəzidi
Elə bil ki, bu nöqtə.
Birləşib iki dəniz,
Birləşib iki qitə…

Sayəsində Bosforun
Yaranıb bu möcüzə.
Qara dəniz xoşbəxtdi,
Qovuşub Mərmərəyə,
Qovuşub Ağ dənizə…

Gəmimiz üzüb gedir
Suları yara-yara…
Elə bil qitələrin
Görüş yeridi bura…

**25.06.2017**

**İstanbul**



## İSTANBULDA GƏZİRƏM

Bu şəhər oldu mənə
İsti ana qucağı…
Çox böyükdür, elə bil
Yoxdur ucu-bucağı…

İstanbulda gəzirəm
Gözümdə sonsuz maraq.
O, sehrli kitab tək
Açılır varaq-varaq…

Bu şəhərdə hər küçə,
Hər dalan gülür üzə.
Qədim evlər, məbədlər
Möcüzədir, möcüzə…

Hər daşın, hər kərpicin
Burda öz tarixi var.
Hər bina bir əsrdən,
Qərinədən yadigar…

Bu şəhərdə gəzəndə
Adam düşür heyrətə.
Elə bil ki, çıxırsan
Keçmişə səyahətə…

Qədim evlər, binalar,
Məbədlər sıra-sıra…
Elə bil əsrlərin
Görüş yeridir bura…

Sanıram ki, tarixə
Düşən gələcəyəm mən.
İstanbul, görüşünə
Tez-tez gələcəyəm mən…

**26.06.2017**
**İstanbul**

## İSTANBUL, MƏNİM ŞƏHƏRİM

İstanbul, mənim şəhərim,
Necə doğmasan, əzizsən…
Dənizlərin dövrəsində
Sanki özün də dənizsən…

Yaşamısan bu günəcən
Tufanlara sinə gərib.
Səni ilk dəfə görsəm də,
Qoynunda deyiləm qərib…

Qəlbimdən qürur boylanır,
Uca dağa oxşayıram…
Sanıram ki, milyon ildi
Bu şəhərdə yaşayıram…



Burda təkcə ağaclar yox,
Dibində kölgə danışır…
Xoşbəxtəm, mənim dilimdə
Böyük bir ölkə danışır…

**27.06.2017**
**İstanbul**

## NAĞILLAR DÜNYASI

Yerin altında
Nəhəng bir hovuz,
Suyu tərtəmiz,
Səpsərin, bumbuz…

Süzülür bura
Yağışın suyu.
Tükənən deyil,
İç, ömrün boyu…

Yer altda nə çox
Mərmər sütun var.
Göyə dayaqdır
Sanki sütunlar…

Yerəbatandır
Buranın adı.
Damaqdan getməz
Suyunun dadı…

Gözüm önündə
Əcəb mənzərə! –
Sanki bir saray
Batıbdır yerə…

Sütunlar çəkir
Havadan nəmi.
Suyu bol olan
Elin nə qəmi?

Tamam fərqlidir
Sütunun biri:
Ondan süzülən
Damlalar iri…

Burda gizlənir
Bir hikmət, məna.
Ağlayan sütun
Deyirlər ona…

Gündüz ağlayır,
Gecə ağlayır.
Kimsə bilmir ki,
Necə ağlayır…



Süzülüb gəlir
Su gilə-gilə,
Damıb aşağı,
Çevrilir gölə…

Yerin altında
Var su sarayı.
Sevir, qoruyur
El bu sarayı…

Bura bənzəyir
Nəhəng sərnicə,
Hər vaxt saxlayır
Suyu sərincə…

İstanbuluma
Kim qonaq oldu, –
Bilir ki, onun
Üstü nağıldı,
Altı nağıldı…

**27.06.2017**

**İstanbul**

# AMERİKA DƏFTƏRİNDƏN

## YAŞIL, YA BƏYAZ ADA?

Təyyarədən baxıram,
Hava soyuq, ayazdı…
Adı yaşıl olsa da,
Bu ada bəmbəyazdı…

Bura Qrenlandiyadı,
"Qrin" yaşıl, "lənd" ada…
Qarlı dağlar, dərələr
Nələri salmır yada?

Şaxta coşqun suların
Dilinə kilid vurub.
Qış dənizdə elə bil
Qardan tayalar qurub.

Günəş əridə bilmir
Bu yerdə buzu, qarı.
Yuxularında görür
Yaşıl ada baharı.



Günəş şəfəq saçsa da,
Ada sazaqdan əsir…
Soyuqluğu artırır
Təyyarənin kölgəsi…

Yaz yaşıl libasına
Bürünüb, burdan köçüb.
Qış buranı özünə
Əbədi məskən seçib…

Günəşin gücü çatmır
Gətirməyə baharı…
Bəlkə insan nəfəsi
Əridə burda qarı…

**30.07.2017**
**İstanbul - Los Anceles təyyarəsi..**

## DÜNYA

Hamını yaşamağa,
zövq almağa səsləyən
ilahi nurdu, işıqdı dünya…
Qocanın gözündə qoca,
cavanın gözündə cavan,
uşağın gözündə uşaqdı dünya…

**01.08.2017**
**Los Anceles**

## MƏNİM ÜÇÜN

Mənim üçün insan rolda yox,
həyatda daha mənalı, daha gözəl,
daha qüdrətlidir.
Mənim üçün
Hollivudun səs-küylü,
yerə ulduzlar döşənmiş,
işıqları bərq vuran
küçələrindən çox
üstünə Hollivud sözü
yazılmış dağ
daha mənalı
və əzəmətlidir…

**31.07.2017**

**Hollivud. Los Anceles**

## VƏTƏNDƏN UZAQLAŞDIQCA

İstəməzdim ki,
qürbətin ləzzətini dadam,
Hər addımbaşı dərk eləyirəm ki,
burda ögeyəm, yadam…
Sən demə dünyanın mərkəzi
insanın doğulduğu yer imiş, –
Vətəndən uzaqlaşdıqca,
Vətənə daha çox
bağlanırmış adam…

**02.08.2017. Los Anceles**



## HƏR ANIN ÖZ HÖKMÜ VAR

Zamana qətiyyən
bel bağlamaq olmur…
Anı, dəqiqəni, saatı,
günü, ayı, ili
tutub saxlamaq olmur…
Kim zəmanət verə bilər ki,
bu gün od püskürən ocaq
sabah sönməyəcək?
Unutmayaq ki,
bu saniyə,
bu dəqiqə,
bu il,
bu gün
bir də geri dönməyəcək…
Bu günə arxa çevirib,
Sabah xülyasına uymayın…
Günləri adiləşməyə,
ayları adiləşməyə qoymayın…
Bu günün gözəlliyindən doymayın…
Hər qaranlıq gecənin
bir işıqlı səhəri var…
hər anın öz hökmü,
hər anın öz dəyəri var…

**04.08.2017**

**Los Anceles**

## SAKİT OKEAN SAHİLİNDƏKİ QAYALIQDA DÜŞÜNCƏLƏR

Adının sakit olmağına baxmayın
sakitcə-sakitcə işini görür
Sakit okean…
Elə bil özündən kiçiklərə
yandıq verir Sakit okean…
Əlində imkanı olsa, dağı-daşı
qoynunda qərq eləyərdi…
Əlində imkanı olsa,
Yer üzünü suya bələyərdi…
Dağın yarğanlarını uçursa da,
Cövhərini, mayasını
apara bilməyib.
Torpağını, qumunu
yuyub aparsa da,
daşını, qayasını
apara bilməyib…
Külək əsrlərdən bəridi
sahilə hücüm çəkən su alayına
bələdçilik eləyir…
Ancaq nəhəng-nəhəng qayalar
nəhəng-nəhəng dalğaları
çilik-çilik eləyir…
Sakit okeanın
adının sakitliyinə baxmayın,
Qarşısını kəsən uca-uca dağlara



hücüm çəkib əsrlərcə,
çalışıb onların dibini yumağa…
Ancaq Ulu yaradanın
iradəsi qarşısında
o boyda nəhəng okean
sakitləşib,
dönüb yumağa…

**05.08.2017**
**Malibu**

## HƏYAT SEHRLİ GÜZGÜDÜR

–Bu nə mənasız həyatdı,
Yaşamaq hədərmiş, hədər…
–Həyat bir güzgü kimidir,
Ona baxan özünü görər…

Möcüzəli, sirli dünya
Sehrli dona bürünür.
O, mənasıza mənasız,
Gözələ gözəl görünür…

**06.08.2016**
**Los Anceles**

## ƏLÇATMAZ SEVGİ

Ürəyini təslim etmə
dərdə, ələmə;
əlçatmaz sevgidən danışıb,
bu qədər ah-uf eləmə!
Unutma ki,
həyatda hər meyvənin
öz çiçəyi, gülü var;
hər sönən ocağın
bomboz külü var.
Əlçatmaz sevgi
yoxdu yer üzündə,
əlçatmaz sevgili var…
Əgər sevgi dağı yerindən
oynatmaq gücündədirsə,
o, necə saralıb-sola bilər?
Əgər sevgi adamın
ürəyinin içindədisə,
o, necə əlçatmaz ola bilər?!

**08.08.2017**
**Los Anceles**



## ZƏİFLƏRİ YOX, ZƏRİFLƏRİ XOŞLAYIRAM

Qorxum olmayıb heç zaman
qardan, çovğundan,
Mən həmişə sevdalı bir ürəkdə
qışlayıram…
Sona qədər mübarizə aparıb,
uduzanları belə alqışlayıram. –
Güclü olmağını bəyənsəm də,
kobudluğun ürəyimi yaralayır, –
mən zəifləri xoşlamıram,
zərifləri xoşlayıram…

**08.08.2017**
**Los Anceles**

## MƏN BELƏYƏM

Qəlbimə toxunan söz deyiləndə
aləmi bir yerə qatıram;
tufan kimi tozanaq qoparıram,
dəniz kimi kükrəyib daşıram…
Mənə qarşı bir addım atana sarı
mən iki addım atıram,
məndən bir addım uzaqlaşandan isə
on addım uzaqlaşıram...

**08.08.2017**
**Los Anceles**

## ZAMANIN QATARI

İçimizdən,
ömrümüzdən,
başımızın üstündən
ötüb keçir zaman
ox kimi süzə-süzə…
Yeni nəsli
gələcək qatarına mindirib,
arxalarınca əl eləməkdən başqa
bir şey qalmır bizə…
Köksümüzü ötürə-ötürə
xəyallara dalırıq…
O qatarın ardınca
baxa-baxa qalırıq…

**09.08.2017**
**Los Anceles**

## İNSANLIQ

Başımıza gələn
bütün oyunlarda
fələyin əli var…
Ağrının ağrı,
gülüşün gülüş,
əzabın əzab dili var…
Gözəlliyi duymayan,
ondan zövq almağı



bacarmayan üçün
yaşamaq ağır bir yükdü…
İnsan zəkasının
hüdudları ilə müqayisədə
Yer kürəsi çox kiçik,
İnsanlıq isə
dünyanın özü qədər böyükdü…

**09.08.2017**
**Los Anceles**

***

Sənin kimi nadürüstlə,
etibarsızla
bir şəhərdə yaşamaq,
bir yerdə işləmək
heç də xoş deyil…
Ancaq mənim qafam
kiməsə, nəyəsə görə
özünə qəsd edəcək
səviyyədə
boş deyil…

**09.08.2017**
**Los Anceles**

***

Bilirəm ki,
bu həvəs,
bu istək
bir neçə günlükdü –
qoynuna girəndə
düşsən də haldan-hala,
boynuma qol dolayanda
düşsəm də haldan-hala...
Sakit okean,
Sənin mənə məhəbbətin
sevgi deyil,
köpükdü...
Elə mən də öz Xəzərimi,
öz bulaqlarımızı,
öz çaylarımızı düşünürəm
sənin yanında ola-ola ...

**11.08.2017**
**Los Anceles**

***

Şairi yaltaq millətin
Heç vaxt azalmaz zilləti...

**11.08.2017**
**Los Anceles**



## BU DÜNYA MƏNİM EVİMDİ

Qoyma söz bərədən ötə,
Söz ovdu, şair ovçudu...
İlahi verən qələmin
Səngəri şair ovcudu...

Elə ki, həsrətli kimi
Ovcuma qələm sığınır,
Mənim sevdalı könülümə
Elə bil aləm sığınır...

Sevgi həyat cövhəridi,
Sevgi süstlüyə qənimdi!
Ürəyimdə eşq nuru var,
Sanıram dünya mənimdi...

Şükür, bu günə min şükür,
Necə gözəl imiş həyat!
Qələmin evi əlimdi,
Mənim evimsə kainat...

**11.08.2017**
**Los Anceles**

***

Qaynayıb, qaynayıb su tək duruldum,
Saldın ürəyimə həsrət közünü…
Dəniz gözlərini görüb vuruldum,
Nə vaxt görəcəyəm bəs ay üzünü?

Sevda gülzarından düşdüm didərgin,
Ümidli kəlmənlə qəlbim qızındı…
Yenə də təqvimdən azaldı bir gün,
Yenə sənsizliyin ömrü uzandı…

**11.08.2017**
**Los Anceles**

## DAHA YAXŞI BİLİRƏM

Dünyanı gözəlləşdirən
şairin sevən qəlbidir;
Gözlərim həmişə kimisə,
nəyisə axtarır, –
Gözəllikdən ötrü ölürəm…
Məni cəmiyyətdən çox
təbiət özünə cəlb edir,
çünki təbiətin dilini
cəmiyyətin dilindən
daha yaxşı bilirəm…

**14.08.2017**
**Los Anceles**



## ÜRƏYİM BULAQ İSTƏYİR

Elə bil nəsə çatışmır
bu boyda gözəllik içində…
Sakit okean da deyilmiş
məni sakitləşdirmək gücündə…
Alnımdan tər süzülə-süzülə
üzü dağlara sarı qalxıram,
ürəyimdə ağrı, nisgil
sıldırımlı yamaclara baxıram…
Dağlarımıza bənzər
dağ axtarıram,
qayaların döşündən çağlayan
bulaq axtarıram…
Gözəlliyə əsir olan gözlərim
dünyadan nəsə qeyri-adi bir
pay istəyir…
Bu boyda okean
mənə bəs eləmir,
ürəyim bulaq,
çay istəyir…

**14.08.2017**
**Malibu**

## HASAR VƏ KÖRPÜ

Gözəllik alova döndərib
sevdalı ürəyimin qorunu.
Burda dağlar, dərələr,
göllər, çaylar,
meşələr, ağaclar,
çiçəklər, böcəklər
hasarla yox,
sevgi ilə qorunur...
Burda heç kəsə,
heç nəyə
biganə qalmırlar.
Burda gözəlliyi
bülbül kimi
hasar qəfəsə salmırlar...
Hamı sadədi,
bir-birinə mehribandı,
üzlərdə təbəssüm
çiçək-çiçəkdi...
Hasar çəkib insanları
bir-birindən ayırmaq yox,
körpü salıb ayrı düşənləri
qovuşdurmaq gərəkdi...

**14.08.2017**
**Los Angeles, Malibu**



## MALİBU DAĞLARINDA

Qəlbimdə ağrı, nisgil
Malibu dağlarında gəzirəm.
Elə bil əlim çatmayan,
ünüm yetməyən yurdumun
yay mənzərələrini
görməyə tələsirəm...
Kəndimizi yada salır
kölgəsinə sürü sığan ağaclar.
Kəndimizi yada salır
Vələmirli yamaclar...
Ancaq nə bu ağaclar,
nə qurşağa çıxan vələmir,
mənim könül yarama
məlhəm eləmir...

**14.08.2017**
**Los Anceles, Malibu**

## ZALIM DÜNYA, GÖZƏL DÜNYA

Gileylənmə, səbrlidir
Hər gileyə dözər dünya.
Onunla girişmə cəngə,
Boğazını üzər dünya!

Həyat bağışlamır səhvi,
Kimi zəngin, kimi səfil…
Olma qafil, səni qəfil
Xıncım-xıncım əzər dünya!

Aşiq deyil gözə, qaşa,
Baxmır boy-buxuna, yaşa,
Dilini tap, xoşbəxt yaşa! –
Həyatını bəzər dünya!

Bir güzgüdür, gözəl-göyçək,
Bax ona, öz rəsmini çək!
Yazda olar yarpaq, çiçək,
Qışda olar xəzəl dünya!

Yumaqdı, çözülən deyil,
Qırılan, üzülən deyil,
O düzdü, düzələn deyil,
Ha desən də düzəl, dünya!

Saçlarıma ələndi qar,
Buz altda dustaqdı bahar,
Kasıb üçün zalım, qəddar,
Varlı üçün gözəl dünya!

…Bu həyatdan bezdiyini,
Mən demədim, özün dedin..
Günah bu dünyada deyil,
Hər adamın özündədi…

**17.08.2017**
**Los Anceles, Venis**



***

Qəlbindən baş qaldırıb,
Mənim olmaq istəyi…
Hönkürmə, qulağına
Söykəyərək dəstəyi…

Dəli sevda artırıb,
Gözlərinin nurunu.
İçindəki məhəbbət
Sındırıb qururunu…

Hərdən pıçıldayırsan:
–Qalmayıb başqa yolum.
Yolunu sal könlümdən
Biryolluq sənin olum…

–Sazaqdan qorxmursanmı,
Ay gözləri bənövşə?
İnanmıram ki, bir də
Yolum könlündən düşə…

Sevsəm, bəndlər, hasarlar
Çətin önümü kəsə!
Ancaq sevgi yolları
Olmur bu qədər kəsə!

Əlac qəlbimə
Bir vaxt saldığın çata?
Təbəssümün köksümdə
Çətin ki, ocaq çata!

İşartı gələcəkmi
Kömür etdiyin közə?!
Necə nur olacaqsan
Kor elədiyin gözə?!

**17.08.2017**
**Los Anceles, Venis**

## MALİBU DAĞLARINDAN SAKİT OKEANA BAXARKƏN

Okeanın böyüklüyünü
görmək üçün dağdan,
Dağın böyüklüyünü
görmək üçün isə
Okeandan baxmaq lazımdı…
O böyda okeanın
qarşısını saxlaya bilmək üçün
bu boyda dağ lazımdı…
Bizə isə
Yaradanın böyüklüyünü
dərk eləyə-eləyə
insan kimi
yaşamaq lazımdı…

**20.08.2017**
**Malibu**



## MƏLƏKLƏR ŞƏHƏRİ

Bura mələklər şəhəridi,
Havası məlhəmdi…
Suyu elə bil
Abü-Zəmzəmdi…
Allah bu şəhərin taleyini
Bilə-bilə belə yazdı:
Burda ağaclar xəzan,
torpaq qar üzünə həsrətdi,
Burda həmişə yazdı…
Dağlar kəsib qarşısını, –
Bura qışı buraxmır…
Okean kəsib qarşısını,
Bura yayı buraxmır…
Burda adam
istidən bişmir,
Burda adam
soyuqdan üşümür,
Burda adam
tənhalıqdan darıxmır…

**19.08.2017**
**Los Anceles**

## RƏNGLİ DALĞALAR

Bu gün qəribə bir gündü, –
Sakit okeanın qoynunda da,
sahilində də dalğa var!
Elə bil ağ dalğalara
meydan oxuyur,
sahildəki rəngli dalğalar…
Sakit okeanın sahilində
dünya ölkələrinin bayraqları
əzəmətlə yellənir…
Bayraqlar arasında dalğalanan
üçrəngli bayrağımı görəndə
gözlərimdə sevinc yaşları sellənir…
İçimə xoşbəxtlik duyğuları çökür,
Şükür, bu günə min şükür!
Uçmağa bircə qanadım yoxdu,
elə bil alıcı bir quşam…
Qürbətdə bir parça vətənə dönüb
Azərbaycan bayrağı,
qaçıb ona sığınmışam…
Mənə də qismət imiş
Santa Monikaya gəlmək
ölkələrin, xalqların
bu həmrəylik günündə…
Elə bil Sakit okean
ağ bayraq qaldırıb
"rəngli dalğalar"ın önündə…

**20.08.2017**
**Santa Monica**



## GÖZÜNÜZ AYDIN

Kim nəyi,
kimi arzulayırsa,
əvvəl-axır ona tuş olur!
El demişkən:
"Yalanın ömrü qırx günlükdü", –
əvvəl-axır hər şey faş olur…
Gözünüz aydın, ay camaat!
Pullu kişilər hesabına
müğənni olanların dəstəsinə,
pullu xanımlar hesabına
şair olmaq istəyənlər də
qoşulur…

**22.08.2017**
**Los Anceles, Venis**

## QÜRUB VƏ SÜBH ŞƏFƏQLƏRİ

Günəş dünyanın
bu üzünə qürub,
o biri üzünə
sübh şəfəqləri səpir…
Dünyanın o üzündə də,
bu üzündə də
ağaclar, çiçəklər
günəşin şəfəqlərini
gözünə təpir…

**22. 08. 2017**
**Los Anceles, Venis**

## SEVDALI ÖMÜR YAŞADIM

Gözün görürsə, xoşbəxtsən,
Bu dünya bir tamaşadı…
Qəlbimdə güllər açsa da,
Karvanım üzü qışadı…

Nifrət etdim yalanlara!
Həyat verdim solanlara,
Yayda təşnə olanlara,
Zirvələrdən qar daşıdım…

Qəlbimi üzsə də kədər,
Ömrümü sürmədim hədər,
Yatmadım səhərə qədər,
Kirpiyimlə qor daşıdım.

Nadan yanında susanam,
Sevgidən çətin usanam!
Mən qosqoca bir insanam, –
Bu dünya mənim yaşıdım…

İş tapşır iş yarıdana,
Qəlbim çətin yarı dana,
Şükür olsun Yaradana,
Sevdalı ömür yaşadım!

**23.08.2017**
**Los Anceles, Venis**



***

Dünyanın ən gözəl işi
günahları tərk eləməkdi…
Dünyanın ən gözəl işi
insan olmağın xoşbəxtliyini
dərk eləməkdi…

**23.08.2017**
**Los Anceles, Venis**

## EHTİYAC

Mütləq özünə yemək tapacaq,
o kimsə ki, acdı…
Tərəqqinin mayası,
baş memarı
ehtiyacdı…
Qızınmaq, bişirmək ehtiyacı
Evimizə gətirmədimi ocağı, odu?
İşıq, enerji almagın da
səbəbkarı da odu…
Paltar geyinmək
əvvəlcə yaranıb
soyuqdan qorunmaq,
sonra abır-həya ehtiyacından.
İnsan əkib-biçməyi,
üyüdüb bişirməyi ,
yoğurub yapmağı öyrənməsə,
ölməzdimi acından?
Ehtiyac – enerji mənbəyidi,

## SAKİT OKEANDA DÜŞÜNCƏLƏR

Sakit okeanda üzə-üzə
uçan tənha ördəyə baxdım…
Sakit okeanın ortasında
tənha qalmaqdan
üşəndim, qorxdum…
Sakit okeanın böyüklüyü
adamın düşüncəsini
sakit buraxmır…
Nə yaxşı ki,
okeanda gəmilər üzür,
onlara baxanda
heç olmasa,
adam təskinlik tapır,
darıxmır…

**26.08.2017**
**Avalon, Katalina**

***

Qürbət məni yaman sıxır,
Yox havanın, suyun dadı…
Vətənimin özəlliyi
Havasında, suyundadı…

**29.08.2017**
**Los Anceles**



## BALLONA ÇAYININ SAKİT OKEANA QOVUŞDUĞU YERDƏ DÜŞÜNCƏLƏR

Yayın bu cırhacırında
həsrət sazağında üşüyürəm.
Ballona çayının sahilindəki
qayalıqda əyləşib,
Ağa çayını,
Bərgüşadı,
Həkərini düşünürəm…
Ballona çayının
Sakit okeana
qovuşduğu yerə
baxa-baxa,
içimə həsrət yağışları
yağa-yağa,
qulaq verirəm
şimşək şaqqıltısına –
qəlbimin harayına:
Bəs mən nə vaxt
qovuşacam
Həkəriyə,
Bərgüşada,
Ağa çayına?!

**27.08.2017**
**Los Angeles, Marina Del Rey**

***

Hər şeydan, hamıdan
yuxarıda Allah,
Allahdan aşağıda
kainat, göy, səyyarələr…
Göydən aşağıda
içi insan dolu təyyarələr…
Təyyarədən aşağı buludlar,
Buludlardan aşağı yer, dəniz…
Bir azdan vətənə enəcəyik,
İlahi, necə xoşbəxtik biz!

**30.08.2017**
**İstanbul**

***

Gözlərim dikilibdir
Üzü vətənə sarı.
Ondan doğma kimin var,
Şair, Vətənə sarıl!

**01.09.2017**

***

Qürbətdə çox darıxmışam,
çox şükür, indi vətəndəyəm…
Gərək indən belə
"Sənsiz bir günüm olmasın,
Vətən!" - deyəm…

**01.09.2017**



***

Təyyarənin qanadı,
Günə dəyib qanadı...

## BU BOYDA DÜNYADA ÖZÜNƏ YER TAPMAYAN ADADAM

Darıxırsan bu yer üzündə
Təyyarəyə minib
göy üzündə süzürsən,
Gəmiyə minib dənizlərdə,
okeanlarda üzürsən...
Yerdə darıxırsan,
Göydə darıxırsan,
Okeanda, dənizdə
darıxırsan, –
nəyin çatmır ki,
özünü bu qədər üzürsən?!
Özgələri isidən ocağından,
közündən narazıcan,
özündən narazısan,
sözündən narazısan...
Sərsəri küləklər kimi
əsirsən,
Dünyanın bu başından
o başına tələsirsən...
Ürəyin dağdan-dağa,
dərədən dərəyə səsləyir səni.

Heç özün də bilmirsən
qarşıda nələr gözləyir səni!
Elə bil dünyanın üstünə
hirsini, acığını tökməyə
bəhanə gəzirsən,
Bu da Amerika,
Hollivud, Sakit okean –
Daha nə gəzirsən?!

**02-07.08.2018**
**Los Anceles, Venis**

## DÜNYA ELƏ HƏMİN DÜNYADI

İstəyir quru üzü olsun,
istəyir su üzü...
Dünya elə həmin dünyadı,
İstəyir o üzü olsun,
İstəyir bu üzü...
Bu balaca dünyanı
nə qədər gücümüz yetir
zaman-zaman yaralamışıq.
Onu ölkə-ölkə,
diyar-diyar,
vilayət-vilayət,
şəhər-şəhər,
kənd kənd,
məhlə-məhlə paralamışıq.



Unutmuşuq ki,
bizim yaratdıqlarımızdan
daha mükəmməldi,
dəyişməzdi
həyatın qanunu...
Unutmuşuq ki,
dünya bizim deyil,
biz dünyanınıq!

**08.08.2018**
**Los Anceles, Venis**

## QÜRBƏT

Mən qürbətdə
vətənin bir parçasıyam,
Vətəndən əsən yellərə qoşulub,
quş kimi qanad açasıyam –
Okeanların,
dənizlərin üstündən
Vətənə uçasıyam!
Qəlbimdə Vətən eşqi
olduğu üçün
Ucaların ucasıyam...

**08.08.2018**
**Los Anceles, Venis.**

## TƏKRAR

Eyni yerdə hər il gəzə bilərsən,
Eyni güldən hər il üzə bilərsən,
Eyni dənizdə, çayda
hər il üzə bilərsən...
Ancaq əslində nə sən
ötən ilki adamsan,
nə o yer həmin yerdi,
nə o gül həmin güldü,
nə də o dəniz, çay eynidir...
Ömrün ömrümüzdən
qopan illəri, ayları, həftələri
adamı göyüm-göyüm göynədir...
Ancaq necə deyə bilərik ki,
bu hisslər təzə deyil, köhnədir?!
Özümə əminəm,
fikrim qətidir:
ömürdə hər şey, hər şey
müvəqqətidir:
sevgilər də,
əzablar da,
həyat da...
Eyni işi dönə-dönə
təkrarlasaq da,
əslində təkrar heç nə
yoxdu həyatda...

**09.08.2018**
**Los Anceles, Venis.**



## XATİRƏ AĞACININ KÖLGƏSİ

Xatirələr –
ömrün yaddaşa hopan
izləridi,
Xatirələr –
arxamızca baxan
mehriban ana gözləridi,
Xatirələr –
sönən ocağın arabir
kül alta işaran közləridi...
Doğmalarını, əzizlərini
itirən insan
bəzən azır
həsrət dumanında,
əzab çəkir
xiffət tənhalığında.
Xatirələr –
yalnız öz gözümüzə görünən
sehrli bir ağacdı elə bil,
kölgəsinə sığınırıq
bu günün iztirab günəşi
bizi yandırıb yaxanda...

**09.08.2018**
**Los Anceles, Venis**

***

Mənə "həmişə istirahətdə"
deyənlər,
Sözləriniz bir azca
qəlbimə toxunur!
Mən uça-uça,
gəzə-gəzə,
üzə-üzə,
sevgi iztirablarına dözə-dözə
güclə rahatlayıram ruhumu!
Bütün dünyanı
gəzib dolaşandan sonra
doğulduğum kəndə dönmək
ən böyük arzumdu...
Həmişə istirahət
axı mənim nəyimə lazımdı?!
Duyuram ki,
hələ məni sevənlərə və
mənim sevdiyim insanlara
gərəyəm!
İstirahət yaraşmır axı, əzizlərim,
sevgi dolu bir ürəyə?!

**10.08.2018**
**Los Anceles**



***

Sakit okeanın
"sakitliyi"ni görəndə
Adam öz sakitliyini
tərk eləyir.
Sakit okeanın
nəhəngliyini görəndə
İnsan öz kiçikliyini,
Allahın böyüklüyünü
dərk eləyir...

**10.08.2018**
**Los Anceles**

***

Ayrılıq əzablarına
bu qədər sinə gərmək,
yurd xiffətinə könül vermək
özü də bir hünərmiş!
Vətəndə qədri bilinməyənlər
Qürbətdə vətənin
bir parçasına dönərmiş!

**11.08.2018**
**Los Anceles**

***

Qarışqa üçün bir qaşıq su ilə
bir vedrə su arasında
fərq olmadığı kimi,
adi insan da okeanla dənizin
fərqini görmür...

Nə Xəzər Sakit okeanın,
Nə Sakit okean Xəzərin
yerini vermir! –
Belə olmasa,
okeanı yaradan dənizi,
Dənizi yaradan gölü,
Gölü yaradan
bulağı yaradardımı?

**10.08.2018**
**Los Anceles**

## YURDA BƏNZƏR YURD GƏZİRİK

Məsafə belə yaxınkən,
Yurd niyə uzağa düşüb?
Dədə-baba ocağına
Gedən yol sazağa düşüb...

Tab etmirik qəm yükünə,
Bir-bir torpağa çökürük...
Dərd hamımızın dərdidi,
Ağrını tək-tək çəkirik!

İçimizdəki nisgili
Parçalayan qurd gəzirik.
Düşmüşük diyarbədiyar,
Yurda bənzər yurd gəzirik...



Yaramızdakı zoqqultu,
Göynərti, heç ara vermir...
Doguldugumuz torpağın
Yerini heç hara vermir...

**11.08.2018**
**Los Anceles, Venis**

## SALAM, MARK TVEN

Salam, Mark Tven!
Sənin sözün mənim ölkəmdədi,
mənim özüm sənin ölkəndəyəm!
Gərək indən belə
sənin ölkənə də
ölkəm deyəm!
Ona görə ki,
bütün yaradıcı insanlar
bir-birlərinə oxşayırlar!
Ona görə ki,
mənim övladlarım da
sənin ölkəndə yaşayırlar!
Hərdən şirin xəyallara dalıb,
yumuram gözümü...
Sənin özün mənim ölkəmə
gedə bilməzsən,
mənim sözüm
sənin ölkənə gələ bilsə,
xoşbəxt sanardım özümü!

**15.08.2018**
**Los Anceles, Venis**

## SƏN HARDAN ÇIXDIN QARŞIMA

Kim uyudu, kim oyandı?
Sazımdakı sim oyandı.
Sən hardan çıxdın qarşıma,
Mürgülü bəxtim oyandı...

Qəlbimdə həvəs oyatdın,
Sanki sehrli damlasan,
Sən bir sevgi dənizisən,
Qoynunda məni damla san!

Buludların kirpiyində
Elə bil yaşsan bir gilə.
Əvvəl-axır o bir damla
Həyat verəcək bir gülə!

**15.08.2018**
**Los Anceles, Venis**

## BULUDDAN AYRILAN YAĞIŞ

Duygusuzun başına kül!
Ya gəl, ya yolumdan çəkil!
Mənə göndərdiyin şəkil
Dönübdür sevgi büstünə!



Donunu əsdirir külək,
Neyləyək, ağlayaq, gülək?
Göylərdən enən bir mələk
Durub şairin qəsdinə!

Min bir gözəl olsa da cəm,
Qəlbimi üşüdür əcəm.
Ya istinə isinəcəm,
Ya kor olacam tüstünə!

Yaradana alqış, alqış! –
Bu nə işvə, bu nə baxış?
Buluddan ayrılan yağış,
En gəl sinəmin üstünə!

**15.08.2018**
**Los Anceles, Venis**

## ÇADIRDAN BOYLANAN NİSGİLLİ GÖZLƏR

Bu gün gözümdən qaçmadı
Qəribə bir mənzərə...
Baxdım çadırdan boylanan
nisgilli gözlərə...
O baxışların önündə elə bil
boşa çıxan arzular,
ümidlər yanırdı...
Küçənin ortasindakı
zibilxanaya bənzər

səfil çadırının üstündə
güvəndiyi ölkənin
bayrağı dalgalanırdı...

16.08.2018
Los Anceles

## ÖZGƏ ADIYLA DOSTLUĞUMA DAXİL OLAN "DOST"LARA

Hamı hamının gözünə
kül üfürmək istəyir;
bu internet cəngəlliyində
dolaşıq düşüb dünyanın
işi deyəsən...
Kişi libası geyinib
döyüşə gedən o qədər
qızlarımız olub ki! –
Ancaq başına qadın ləçəyi
örtən kişiyə
necə kişi deyəsən?!
Bu internet dünyasında
hərənin bir cürə təmənnası var;
naşı balıqlar tez ilişir qarmağa...
Kim neyləyə bilər axı
dəryalar qoynunda
əsrlərcə duruş gətirən
"qocaman dağ"a?
Ancaq öz aramızdı,
bu "fb" çox qəribə yerdi,



"qadın"ları kişi,
"kişi"ləri qadın adı altında
gizləmək olar...
Elə buna görə də
kimliyini bilmədiyin
"dost"dan
nə desən
gözləmək olar...

16.08.2018
Los Anceles, Venis

***

Əsrlər boyu
qaranlıqda qalan
əcdadlarımızı
düşünməyə vadar elədi
işıq ehtiyacı, işıq dərdi...
Babalarımız kimi
biz də düşünürük,
xəyala dalırıq...
Yel dəyirmanı,
Su dəyirmanı yerini
Elektrik dəyirmanlarına verdi,
Fəqət enerjini yenə də
yeldən, sudan alırıq...

16.08.2018
Los Anceles

***

Macalımız da yoxdu
Ağrımızı udmağa...
Tanrı möhlət verəydi
Arzumuza çatmağa.

Ulu yurd olub talan,
Nə qədər olar yalan!
Haqqım yox, bizsiz qalan
Torpağı unutmağa!

Gözəl meyvələr çoxdu,
Demə gözümüz toxdu,
Taqətimiz də yoxdu
Hər nemətdən dadmağa.

Yol çəkən gözlər doldu,
Ümid gülləri soldu,
Hara baxırsan yoldu,
Yer yoxdu üz tutmağa...

**19.08.2018**
**Los Anceles, Venis**

## QISA QAPANMA

İşimizə laqeyd yanaşmasaq,
Zəhmətimiz də puç olmazdı...
Naqillər möhkəm bağlanmasa,
Qısa qapanma qaçılmazdı.



İçindəki məhəbbətin
saflığından asılıdı
Könül xoşluğu...
Sevgi də cərəyan kimi
bir şeydi,
sevmir boşluğu...

**20.08.2018**
**Los Anceles**

***

Adam bu kişiyə baxanda,
bu kişini dinləyəndə
gülməyi tutur,
barmağını dişləyir...
Bədbəxtin papağı
qoyun dərisindəndi,
başı da qoyun başı kimi
işləyir...

**20.08.2018**
**Los Anceles, Venis**

***

Ömrüm boyu
Xəyanət eləməmişəm
nə özümə, nə özgəyə! –
Riya, iftira məndən uzaqdı...
Hamının qarşısında
alnım açıq,
hamının yanında

üzüm ağdı...
Məni tanıyan
yaxşı bilir ki, indiyəcən
“kiş” deməmişəm
kimsənin toyuğuna!
Mətanətlə sinə gərmişəm
bu dünyanın istisinə,
soyuğuna!
Hamıya, hamıya
kömək əli uzatmışam! –
Heç nə ummamışam əvəzində!
Ürəyim həmişə
olub sevmək,
sevilmək həvəsində...
Məni tanıyanlar yaxşı bilir ki,
sakit adam olsam da,
haqsızlıq görəndə
aləmi bir-birinə qatanam!
Elə bir iş görməmişəm ki,
Kimisə görəndə
xəcalət çəkəm,
utanam!
Mən gül olub
dost bağında açılan,
Tikan olub
düşmən gözünə batanam!

**20.08.2018**
**Los Anceles, Venis**



**TUTUQUŞULAR**

Burda tutuquşuları
saxlamırlar qəfəsdə.
Onlar parklarda,
xiyabanlarda
uçuşurlar dəstə-dəstə...
Burda tutuquşular
kimsəni yamsılamır,
öz səsləri, öz nəğmələri
başqa quşların səsinə qarışır! –
Qəfəsdə olmayanda
hamı öz dilində danışır...

**24.08.2018**
**Los Anceles, Venis**

***

Sizi sevənlərin qədrini bilin,
sizi sevməyənlərdən
bir şey umunca...
Alim kimi qazandıqları nüfuzu
“şair” kimi xərcləyənlərə
yazığım gəlir yamanca!
Elmdən şeirə qayıtmaq
cavanlıqda qədrini bilməyib
boşadığın xanımın yanına
qocalanda qayıtmaq kimi
bir şeydi...
Şeir isə xəyanəti bağışlamağı

bacarmayan bir mələk,
sinəsi dağlanan yanıqlı neydi...
Şeir mələyi gözəllərin
ən şıltağı,
ən həssası,
ən safıdı...
Bir də ki,
elmdən şeirə qayıtmaq istəyi
bu sahədə uğur qazana
bilməməyin etirafıdı...

**22.08.2018**
**Los Anceles**

## HEYVANXANADA

Heyvanxanada məni
fikir götürüb...
Şir şirliyini, pələng
pələngliyini itirib...
O nə pələngdi, şirdi ki,
mürgüləyir meşənin,
cəngəlliyin həsrəti ilə
sarala-sarala!
Pəncəsi, dişi çatmır
Qonşu qəfəsdəki
ceyrana, marala...

**26.08.2018**
**Los Anceles, Venis**



## YAXŞILIQ VƏ PİSLİK

İnsanı içindən qurd kimi
yeyir xəbislik!
Yaxşı adam həmişə
yaxşılıq eləyir,
Pis adam pislik! –
Məncə, elə bu yaxşıdı
ikiüzlünün ikibaşlı sözündən,
yalanından!
Kimin nəyi var onu xərcləyir! –
Kasıbın olanından!

**27.08.2018**
**Los Anceles**

## ÜZÜMƏ BAĞLI YOLLAR

Yol var, küçə var adam
Ayağına həsrətdi.
Mən ömrümü sənətə,
Məhəbbətə həsr etdim...

Gəzdim diyarbədiyar,
Döndüm əsl səyyaha.
Bəyaz elə bəyazdı,
Çarə varmı siyaha?

Xiffət, nisgi qəlbimdə
Dönüb qara kölgəyə! –
Doğma yurdumdan başqa
Yolum var hər ölkəyə...

Yuxumu ərşə çəkib,
Sinəsi dağlı yollar...
Mənə rahatlıq vermir
Üzümə bağlı yollar...

**30.08.2018**
**Venis, Los Anceles**

## BOMBOŞ KÜÇƏLƏR

Yaraşıqlı villalar
Hərəsi bir əsərdi.
Burda yaşayanların
Nə qayğısı, nə dərdi?

Ancaq küçələr boşdu,
Axşam olsun, ya səhər!
Adam da işə, gücə
Bağlı olar, bu qədər?!

Baş açmıram doğrusu,
Bu nə ölçü-biçimdi.
Elə bil evlər təkcə
Gecələmək üçündü!



İşıqlar, zəif, solğun
Sanki şam işığıdı.
Elə bil mağaradı,
Tavanlar aşağıdı...

Yol gedirəm piyada,
Mənə nə gərək maşın?
Çıxıb gəzim ki, tənha
Küçələr darıxmasın!

**30.08.2018**
**Venis, Los Anceles**

## BABA VƏ NƏVƏ

Fatehə

Adını Fateh qoydum ki,
dünyalar fəth eləyəsən!
Xırda-xuruş qayğılarla
sənin nə işin?!
Birlikdə çox güclüyük,
qadirik! –
Sən mənim gələcəyimsən,
Mən sənin keçmişin!

**31.08.2018**
**Los Anceles, Venis**

***

İstini paylaş,
Közünü əsla!
Sözünü paylaş,
Özünü əsla!

**30.08.2018**
**Venis, Los Anceles**

***

Ötən günlərə
Çevirmə arxa! -
Bir də gələcək
Su gələn arxa!

***

Neçə ki ordasan,
Məni də orda san!

***

Oxumaq istəyirəm
mən zildə,
Hənirə həsrət olan
mənzildə!

***

Gedəndə
yad elə,
Vətəni
yad elə…



# BODRUMDA DÜŞÜNCƏLƏR

***

Səhra da çəmənzara
çevrilə bilər,
İnsan quru çölləri
suvarsa…
O yerlərdə
həyat da var,
harda su varsa …
Bu dünyada heç nə
deyil boşlu-boşuna!
İnsanlar havayı yerə
sığınmırlar
çay kənarına,
göl sahilinə
bulaq başına…

**21.07.2019**
**Bodrum, Torba.**

## İZTİRAB ZƏLZƏLƏLƏRİ

Deyirlər ki,
Bodrumda
tez-tez deprem –
zəlzələ olur…
Bəzən dağlar çökür,
bəzən dərələr dolur…
Bu gözəl mənzərlərin yaranmasına
zəlzələlərin səbəb olmasına
inanar kim indi?
Sevdalı ürəklərdə də tez-tez həyəcan,
iztirab zəlzələləri baş qaldırır –
Gözəl ürəklər də
gözəl yerlər kimidi…

**21.07.2019**
**Bodrum, Torba.**

## XƏYANƏT QAYIQLARI

Sən demə müqəddəs
sədaqət dənizində
sualtı xəyanət qayıqları
üzürmüş...
İndi fırtınalar qoynunda
tənha qalmısan,
Daha güvəndiyin adadan da
ayaqların üzülmüş…
Bir damcı



ümid nişanəsi belə
üzündə qalmayıb...
Daha güvəndiyin
adaya qayıtmağa
üzün də qalmayıb...
Onu bataqlıqdan
dartıb çıxaranın
qədrini bilməyən əlin
əvvəl-axır dünyadan
üzülməyi var imiş...
Gizlicə-gizlicə üzən
xəyanət qayıqlarının
həqiqətin sərt qayalarına
çırpılıb,
xıncım-xıncım
əzilməyi var imiş...

**21.07.2019**
**Bodrum, Torba.**

## ÜZÜ DƏNİZƏ SARI

Biz təknəylə üzürük
Üzü dənizə sarı...
Yol boyu sıralanmış
Qamışlar yaşıl, sarı...

Sağım, solum gözəllik,
Sular qərq olub zərə.
Ovsunlayıb hamını
Könül açan mənzərə...

Dağa yaraşıq verir
Sıralanmış ağaclar.
Adama gəl-gəl deyir
Sıldırımlı yamaclar...

Dərinliklə ucalıq
Verən zaman baş-başa,
Möcüzələr yaranır,
Ürək çevrilir quşa!

Elə bil ki, sevinir
Cilvələnir bax, dəniz!
Dağlarla qol-boyundu
Bu məkanda Ağdəniz...

**22.07.2019**
**Ortaca, Dalyan, Türkiyə.**

## SILDIRIMDA QƏBİRLƏR

Tarixə çevrilərmiş
Adicə sıldırım da!
Min ildi qəbir-evlər
Qalıb bu sıldırımda...

Heyrət dolu gözlərim
Hörgülərə dikilib.
Ay aman, burda necə
Qəbir-evlər tikilib?



Sərt daşların köksünü
Paralayıb, oyublar.
Guya ölü baxacaq,
Pəncərə də qoyublar.

Qəribə sərdabələr
Aynabəndə oxşayır.
İnsanlar ölüb gedib,
Qəbirlərsə yaşayır...

**22.07.2019**
**Dalyan, Türkiyə.**

***

Elə bil bizim kimi
düşünməyənlərdən,
bizim kimi yaşamayanlardan
qisas almaq istəmişik.
Gül-çiçəyi dibçəyə,
quşu, canlını
Qəfəsə salmaq istəmişik...
Özgə kimi düşünmək,
özgə kimi yaşamaq asanmı?
Niyə insan hər şeyi özü kimi
tərbiyə eləmək cəhdindən
usanmır?
Vəhşi təbiət deyirik!
Təbiətmi vəhşidi,
onun bakirəliyini,
ahəngini pozanmı?

**22.07.2019**
**Bodrum, Türkiyə.**

## QUM ZANBAQLARI

Necə gözəldi
Qum zanbaqları.
Soldura bilmir
Qum, zanbaqları...

Bu güllər qaynar
Quma öyrəşib.
Salamlayırlar
İsti günəşi!

Belə sevgiylə
Baxmazdım mən də -
Onlar bitsəydi,
Bəlkə çəməndə?!

Qum zanbaqları
Gözdən düşərdi...
Güllər içində
Adiləşərdi.

Şüa qılıncdan
Sanma qorxandı,
Ağ ləçəkləri
Bəyaz qalxandı...

Həyat rəmzidi,
Zərif çiçəkdi...
Qumlu səhraya
Bu gül bəzəkdi...



Yer altdan gələn
Sədadı onlar...
Qum dənizində
Bəmbəyaz, zərif
Adadı onlar...

**22.07.2019**
**Ortaca, Dalyan, Türkiyə.**

***

Mən dağlar oğluyam,
Dağlara baxıb
çox köks ötürmüşəm...
Dağlardan əlim çıxıb,
ona görə dənizlərə
pənah gətirmişəm...

**23.07.2019**
**Bodrum, Torba.**

***

Bu it özgəyə yox,
özümüzə hürür,
Bu it hürə-hürə
yuxular görür...
Bu it
nə həyət-bacanı qoruya,
nə də sahibinə
quyruq bulaya bilir...
Bu it oğrudan çox
doğruya mırıldayır,
çaqqal kimi ulaya bilir...

Bu it o karvanın,
bu karvanın dalınca
baxa-baxa qalıb...
Bu itin işi Allaha qalıb...

**23.07.2019**
**Bodrum, Torba.**

## ŞƏKİL ÇƏKDİRƏNDƏ

İnsan gözəl bir mənzərə
görən kimi,
ürəyində şəkil çəkdirmək
istəyi oyanır...
Ya əzəmətli dağın,
ya dalğalı dənizin
önündə dayanır...
O, bənzəmək istəyir,
çiçəkli yamaca,
dənizdən boylanan günəşə...
İnsan gözəlliyə arxalansa da,
Özü də bilmədən
Ona arxa çevirir həmişə!

**25.07.2019**
**Bodrum, Torba.**



## ADİ HƏQİQƏT

Sözü anlayanda,
sözü duyanda
elə bil qəlb nurlanır.
Ən böyük kəşf
ikicə sözlə ifadə olunub:
"Yer fırlanır"!
Böyük həqiqəti
sadə bir libasda görəndə
ürək rahatlıq tapar,
göz gülər.
Biz isə ən adi həqiqəti belə
o qədər dolaşdırırıq ki,
nə özümüz bir şey
başa düşürük,
nə də özgələr...

**29.07.2019.**
**Bodrum, Torba.**

***

Mənimki mənə dəyir
İnsan ələyənəcən...
Qaranlıq könülləri
Nura bələyənəcən...

Öndə xəbis duzağı,
Gözün görmür uzağı,
Xəyanətin sazağı
Keçib iliyinəcən...

Həsrət yüklü qatarsan,
Yad səmtə üz tutarsan,
Mustafa de, qurtarsın
Mus-mus eləyənəcən...

**30.07.2019**
**Bodrum, Torba.**

## ZAMANIN ƏLƏYİ

İnsana düşüncəsi
Daim eləyib kömək, –
Taxılı zir-zibildən
Arıdıb xəlbir, ələk...
Hamı üzü ağ çıxmır
Həyatın sınağından, –
Adamları seçməyə
Zaman xəlbiri gərək...

Ən zərif, gözəl çiçək
Bəzən qalır kölgədə,
Boynu əyri bənövşəm,
Nə keçir ürəyindən?
Şadaradan, xəlbirdən
Keçə bildik bəlkə də,
Keçə biləcəyikmi
Zamanın ələyindən?

**31.07.2019**
**Bodrum, Torba.**



## SƏN MƏNİ ÖZÜNÇÜN SEV, SEVƏ BİLSƏN

Üşüyən könlümdə sonuncu köz tək
Nə vaxtsa, işarıb, söndün, əzizim.
Sən mənim ömrümün qürub çağında
Sevgi günəşinə döndün, əzizim...

Yaxşı bilirəm ki, qəlbin buz deyil,
İllər könlümüzü daşa döndərib.
Sevgidən danışan yaşımız deyil,
Küllə oynayırıq odu söndürüb...

Azalıb qəlbimin odu, atəşi,
İçimdə yurd salıb həzin bir kədər.
Adamı isitmir qürub günəşi,
Bəs sən harda idin bu vaxta qədər?

Sevdalı başımda şimşəklər çaxır,
Küsərəm sözümü "səfsəfə" bilsən...
Mən səni səninçün sevmədim axı,
Sən məni özünçün sev sevə bilsən...

**29.07.2019**
**Bodrum, Torba.**

# SEVGİ QƏFİL GƏLƏN SELƏ BƏNZƏYİR

## GÖYDƏ TANRI KƏSIB NİKAHIMIZI

Eşqinə şahid tut sən ayı, günü,
Bənzəri yox imiş bu məhəbbətin…
Qəlbinə nur saçan böyük sevgini
Dilə gətirməyə yoxdu taqətin…

Güc al məhəbbətin qadir səsindən,
Onsuz da bilirəm ürəyin safdı.
Qorxub böyük eşqin vahiməsindən,
Susmağın özü də bir etirafdı…

Sevgi sağaldarmış ruhu əlili,
Ağlıma gəlməyən başıma gəldi…
Gizli bir sevginin aşkar dəlili
Bilirsən heç necə xoşuma gəldi?

Ürək işindəymiş gözdən xəbərsiz,
Tanrı eşidirmiş gileyimizi…
Əzizim, sən demə bizdən xəbərsiz
O özü yazıbmış taleyimizi!



Heyranam sevginin qadir gücünə!
Qoy eşq nurlandırsın sabahımızı…
Yerdə nə deyirlər, alma vecinə,
Göydə Tanrı kəsib nikahımızı…

**18.03.2017**

## YARALI DURNA TƏK

Batıb şair könlüm dərdə, ələmə,
Sanma ki, o, qəflət yuxusundadır.
Sən əl uzatsan da mənim əlimə,
Bir əlin keçmişin yaxasındadır…

Ağrı var qəlbinin hər parasında,
Süzülür könlünə yaş gilə-gilə…
Qalsan da sən iki od arasında,
Sevdalı ürəyin üşüyür hələ…

Dadmısan hicranın acı barından,
Neçə yol yanımdan ötüb keçmisən…
Daşa dəyən eşqin ağrılarından
Xilas olmaq üçün məni seçmisən?!

Sevdalar kəsilib qənim qəlbimə,
Dirənib boynuma həsrət ülgücün…
Pənah gətirmisən mənim qəlbimə
Hicran sazağından qorunmaq üçün…

Durna tək tərk etdin öz qatarını,
Qəlbim tir-tir əsir həyəcanımdan.
Öpüb sağaldacam qanadlarını,
Uçub gedəcəksən mənim yanımdan…

Eşqin göylərində şimşəklər çaxır,
Mürgülü keçmişi oyadacaqsan…
Ancaq hara uçsan, sən əvvəl-axır
Yenidən yanıma qayıdacaqsan…

**25.05.2017**

## SEVGİ QATARINA GECİKSƏN ƏGƏR

Yazırsan ki, məndən sevgi istəmə,
Ürəyim köksümdə fəğan qoparır…
Həsrətin sel kimi axır üstümə,
Ötən sevdaları yuyub aparır…

Geymisən əyninə qısqanclıq donu,
Nələr düşünürsən baxıb güzgüyə?
Məbədlər boş qalmır, bilirsən bunu
Öz tale payını vermə özgəyə….

Çətin ki, kiməsə əyiləm, ay qız,
Niyə həvəslisən könül qırmağa?
Mən yuva dağıdan deyiləm, ay qız,
Vaxtım var heç təzə yuva qurmağa?!



Sevginin önünü kəsmək çətindi,
Yığılıb, yığılıb, gölə dönəcək.
Nə vaxtsa uçurub bərəni, bəndi
Bir qorxunc, amansız selə dönəcək…

Göz açıb yumunca ömür qurtarır,
Günlərin ah-vayla ötüşüb sənin.
Min il gözlədiyin qismət qatarı,
Axır ki, yanına yetişib sənin…

Zamanın hökmünü bilmirsən məgər?
Onsuz da bu dünya deyil özündə.
Sevgi qatarına geciksən əgər,
Tənha qalacaqsan bu yer üzündə…

**31.05.2017**

***

Bacarsan sev məni, oxşa, əzizlə,
Saçlarına düşən təzə dən kimi…
Elə hopmusan ki, mənim ruhuma
Sevə beləcəyəm təzədən kimi?!

**11.06.2017**

## SEVGİ SELİ VƏ BƏNDƏ HASARI

Bəndə nə karədi Tanrı yanında? –
Bizi qovuşduran qədərdir, qədər.
Söylə, qəlbindəki təmiz sevgini
Niyə gizləmisən bu vaxta qədər?!

Niyə dağ çapmağa qadir bir eşqin
Üzə çıxmağını dərd eləmisən?
Niyə içindəki nuru, işığı
Sən öz sükutunla pərdələmisən?

Ancaq duymusan ki, bu yer üzündə
Təkcə ürəyinin mənəm simsarı…
Tanrı yaratdığı sevgi selinin
Önündə neyləyər bəndə hasarı?!

**01.01.2018**

***

Dənizsən, tənhayam sahilində mən,
Dənizəm, tənhasan sahilimdə sən!
Səni axtarmışam ömrüm uzunu,
Dənizim də sənsən,
sahilim də sən!

**2018**



## ƏGƏR SƏN İSTƏSƏN…

Elə istəyir ki, səni ürəyim,
Hazıram həsrətə qan uddurmağa.
Gücü yetəcəkmi mənim sevgimin
Ötən sevgiləri unutdurmağa?

Yandırmaq olarmı yananı bir də?
Qəlbin göynəməzmi sevgi közündə?
Ola biləcəmmi sevgi şimşəyi
Sənin bulud kimi dolan gözündə?

Titrək öpüşlərim ürəyindəki
Ağrını, acını götürəcəkmi?
Üstünə ələnən sevgi yağışı
Qəlbində təzə gül bitirəcəkmi?

Bilirsən: qəlbimdə sığınacaq var
Həsrət sazağında üşüyən gülə…
Əgər mən istəsəm xəzan ömrümə
Bahar gətirərsən nəfəsin ilə?

Əgər mən istəsəm, atıb hər şeyi
Su pərim olarsan coşqun dənizdə?
Əgər sən istəsən, nələr etməzdim?
Əgər sən istəsən…
Təki sən istə!!!

**14.12.2017**

## NİYƏ BELƏ GEC GƏLMİSƏN DÜNYAYA?

–Qəm buludu yuva salıb üzündə,
Qovrulursan sən intizar közündə,
Arzuların qala bilər gözündə, –
Niyə belə gec gəlmisən dünyaya?!

–Oynayırsan kül altdakı közlə sən,
Sözlərini söyləyirsən gözlə sən,
Nə olardı məni bir az gözləsən? –
Niyə belə tez gəlmisən dünyaya?

–Qismətinə düşən paya dönmüşəm,
Sevgin ilə daşan çaya dönmüşəm,
Sən günəşsən, mənsə aya dönmüşəm, –
Niyə belə gec gəlmisən dünyaya?!

–Qərq etsə də, bizi sevda dənizi,
Bu taledi, günahımız yox bizim,
Tutaq ki, mən gecikmişəm, əzizim,
Bəs sən niyə tez gəlmisən dünyaya?

–Neyləyəcəm indən belə bağ salıb?
İntizarın gözlərimə ağ salıb,
Aramıza illər dərə, dağ salıb, -
Niyə belə gec gəlmisən dünyaya?!



–Elə bil ki, köksümdəki ürəksən,
Heç bilirsən mənə necə gərəksən?!
Bir az məni gözləyəydin gərək sən,
Niyə belə tez gəlmisən dünyaya?

–Ayağının altındakı yol çöküb,
Ömür boyu mənim gözüm yol çəkib,
Bu qismətə tale özü qol çəkib, –
Niyə belə gec gəlmisən dünyaya?!

–Həsrətinlə yoğrulmazdı bu dünya,
Gözümüzə dağ olmazdı bu dünya,
Ləngisəydin, dağılmazdı bu dünya,
Niyə belə tez gəlmisən dünyaya?

–Göynəsək də, bu sağalmaz yaradan,
Şükür, bizi görüşdürüb Yaradan!
Harda idin, ömür ötüb yarıdan, –
Niyə belə gec gəlmisən dünyaya?!

–Ömür köçüm minib əcəl atına,
Əlac varmı ürəyimin çatına?
Ayrılığı al gözünün altına, –
Niyə belə tez gəlmisən dünyaya?!

–Gözlərindən ürəyimi oxusan,
Görəcəksən köksümdəki dağı sən.
Bu vaxtacan harda idin axı sən? –
Niyə belə gec gəlmisən dünyaya?!

–Dilə düşüb dastan oldu eşqimiz,
Könül verdik bir ilahi eşqə biz.
Yana-yana deməyəydik keşkə biz
Niyə belə gec gəlmisən dünyaya?!
Niyə belə tez gəlmisən dünyaya?!

2004-2018

## QIŞ YAĞIŞI

Dözəmmirsən ayrılığa, bilirəm
Gözlərinin giləsinə qəm çöküb…
Diqqətlə bax, adi deyil bu yağış,
Həsrətimin buludundan nəm çəkib…

Bircə dəfə baxışımız tuş gəlsə,
Bəbəyində eşq şimşəyi çaxacaq.
Nə zamansa selə dönüb bu yağış,
Düz sinənin arasından axacaq…

Səhərəcən yağan sevgi yağışı
Sümüyünə, iliyinə hopacaq.
Qulaq assan ürəyimin səsinə,
Ürəyində fırtınalar qopacaq…



Qızınmağa isti soba gəzirsən,
Sən ac quşsan, sevgi dənmi, bilmirəm?!
Uçunursan, tir-tir əsir bədənin,
Yağışdanmı, sevgidənmi, bilmirəm?!

Eşq taleyin bəxşişidi, bilirsən
Ürək olmur hər nazənin sənəmdə…
Soba nədi, qızınarsan baş qoyub,
Eşq odundan saca dönən sinəmdə…

Yağış yağır, islanmışıq yamanca,
Heç bilmirəm qaçaq hara, əzizim?
Görən bizi nə gözləyir qarşıda
Qış yağışı dönsə qara, əzizim?!

01.01.2018

## BU YAZ SABAHINDA

Sirli bir aləmdi insan fitrəti,
Bir təmiz məhəbbət dərdə əlacdı.
Bu yaz sabahında qəlbim titrədi,
Axır ki, sən mənə könlünü açdın…

Həsrətin əlinə keçibdir yaxan,
Köksündə nə qədər ağrı, acı var!
Sənin ürəyinin gizlicə çaxan
Sevgi şimşəyinə ehtiyacı var…

Sanma xəbərsizəm umacağından,
Baxışın qəlbimə olubdur açar.
Bircə köz götürsəm eşq ocağından
Sevdalı gözlərin qığılcım saçar…

Mizraba həsrətdi qəlbinin simi,
Məlhəmsən köksümə çəkilən dağa…
Elə utancaqsan, bənövşə kimi
Kol dibi gəzirsən daldalanmağa…

Qoymaram kimsəni dəyə xətrinə,
Sönməsin sevilmək, sevmək həvəsin!
Ciyərim həsrətdi çiçək ətrinə,
İsti yaz yelidi sənin nəfəsin…

Gül qoxusu gəlir aylı qoynundan,
Sənə bir kimsəni yaxın qoymaram.
Bənövşəyə bənzər zərif boynundan
Gecə səhərəcən öpsəm, doymaram…

Xəyal dünyasında salmışıq binə,
Sevənə neyləyər qoruq-qadağa?!
Sənin məhəbbətlə dolu qəlbinə
Sevdalı ürəyim olsun sadağa!

**06.03.2018**



## İLK BAHAR YAĞMURU, SEVGİ GÜNƏŞİ

Sənə əmanətdir könlümün barı,
İlk bahar yağmuru ürək oxşayır.
Yağışda yuyunan lüt ağacların
Tumurcuq gözündə nisgil yaşayır…

Meşə öz başının hayında qalıb,
Duman bürüyübdür dərəni, düzü…
Bəs sevgi günəşi hayanda qalıb?
Niyə təbiətin tutqundur üzü?!

Təzə çiçəkləyib bağda ağaclar,
Buludlar göz yaşı tökür elə bil.
Hava çiskinlidir, dağlar, yamaclar
Sevgi iztirabı çəkir elə bil…

Çiçəyi çırtlayan budağa göz dik,
O da səni sevsin,
sev ki günəşi!
Hava qan ağlayır, bizsə xoşbəxtik
Yanır köksümüzdə
sevgi günəşi…

**04.04.2018**

## SEVGİ GÖYLƏRİMİN AYI SƏN OLDUN

Qəlbim titrək yarpaq, sən bir sazaqsan,
Könül məbədimdə dönmüsən bütə...
Sən elə uzaqsan, elə uzaqsan,
Əllərim çətin ki, əlinə yetə!

Məlhəm et qəlbimə saldığın çata,
Baxıb həsrət çəkir ay yanağına!
Təşnə dodaqlarım çətin ki çata
Sənin ay üzünə, ay yanağına!

Bilmirəm heç hardan qarşıma çıxdın? –
Belə sevməmişdim hələ heç kimi!
Sevgi göylərimdə ay kimi doğdun,
Özümə qaytardın həyat eşqimi...

Qalıb uzaqlarda sübh şəfəqləri,
Könül tənhalığı mənə zülm edib.
Sənin ay üzünü görəndən bəri
Əriyib qəlbimin qara zülməti...

Duyumsuz kəslərlə mənim nə işim? –
Ömrün bu çağında payım sən oldun.
Qüruba enəndə sevgi günəşim,
Zülməti əridən ayım sən oldun!...

**19.06.2018**



## BU DÜNYA GÖZÜNDƏN DÜŞƏCƏK SƏNİN

Mən bir eşq dağıyam, şimşək olsan da,
Çətin ki, baş əyəm, əyiləm sənə!
Mənə hava kimi gərək olsan da,
Yalvaran, yaxaran deyiləm sənə!

Qəmli baxışınla yolları öpsən,
Görərsən sərgərdan qalan sevgimi.
Ürəyim çat-çatdı, göz yaşı səpsən,
Bəlkə dirçəldərsən solan sevgimi!

Mənim məhəbbətim təmiz olsa da,
Zövqünə tən gələn biçimdə deyil...
Mənim məhəbbətim dəniz olsa da,
Səni ram eləmək gücündə deyil...

Apara bildinmi gətirdiyini? –
Qəlbin eşq odunda bişəcək sənin.
Dərk etsən nələri itirdiyini,
Bu dünya gözündən düşəcək sənin...

**08.10.2018**

## HƏSRƏT SAZAĞINDA ÜŞÜYƏN ÇİÇƏK

Olsan da göylərdə bir dəli şimşək,
Ruhu kar səsini çətin eşidə.
Həsrət sazağında üşüyən çiçək,
Səni qızdırammır yay günəşi də…

Elə bil dünyanı sən unutmusan,
İllərin şaxtası hopub canına.
Sıldırım üstündə qərar tutmusan,
Kimin hünəri var gəlsin yanına?

Sənə çata bilmir hər əsən külək,
Sevgi dənizində ada olmusan.
Həsrət sazağında üşüyən çiçək,
Mənim ürəyimi oda salmısan…

**10.07.2017**

## KÖKSÜMDƏ BİTƏN ÇİÇƏK

Sən mənim baharımın ən ətirli gülüsən,
Sevda zəmimin təzə dən tutan sünbülüsən…
Basam səni bağrıma qucağımda itəsən,
Bir zərif çiçək olub sinəm üstdə bitəsən…

**16.04.2017**



## HƏRDƏMXƏYALLARI SEVƏ BİLMƏDİM

Yol hamar olanda qaçar at asan,
Qızımdan kiçiksən, məni ata san,
Yazırsan: "Adını qəlbimdən atdım" –
Sahib olmuşdun ki, məni atasan?

Sevgi əzabını şükür ki, daddın,
Dəli bir sevdayla atlanır döşün…
Asandı söyləmək "qoparıb atdım" –
Ürəksiz yaşamaq olarmı, düşün?

Hamının yanında uzundur dilim,
Heç vaxt qarışqanı dəvə bilmədim.
Hər dəm xəyallara dalsam da, gülüm,
Hərdəmxəyalları sevə bilmədim…

**12.07.2017**

***

Sözlərinə vurulub uydun bir sərəsəriyə,
Ancaq elə bilmə ki, ruhum səndən uzaqdı…
Şair könül verərmi hər huriyə, pəriyə? –
Kimə könül verirsə, yanında üzü ağdı…

**27.01.2017**

## SƏN ELƏ UCASAN

"Gülüşü üzümdən qoparan adam,
Mənim gözlərimə kədər yaraşır..."

Bir qızın sözlərindən

Gülüşü üzündən qoparan adam
Həsrət qalacaqdır həmdəm üzünə...
Sənin sevincini aparan adam
Mütləq qərq olacaq qəm dənizinə...

Gec-tez tanıyırıq xalisi, qəlpi,
Əyilmə kimsəyə, özünü topla!
Kövrək bir ürəyi, həssas bir qəlbi
Fəth etmək mümkünmü tüfənglə, topla?

Yandırır sinəmi həsrət közləri,
Vuruldum mən bircə anın içində...
Elə gözəldi ki, sənin gözlərin
Kədər də xoşbəxtdi onun içində...

Əlçatmaz zirvəyə necə uçasan?
Həsrətdən olubdur ürəklər cadar...
Sən elə ucasan, elə ucasan
Yanına sevdalı küləklər çatar...

Sevməsə, qəlbimə qaranlıq çökər,
Onun əyləşdiyi daşa dönərəm.
O gözlər yoluma dikilsə əgər,
Sevgidən alıcı quşa dönərəm...

**14.07.2017**



## SÖZ ADİ OLSAYDI

Neçə ayrılığa ürəyim dözdü,
Həsrəti söz edib kağıza düzdüm.
Hərdən tənə ilə deyirsən mənə,
Bu sevgi deyil ki, quruca sözdü...

Bir ocaq çatmışıq həsrət közündən,
Bir tük də yayınmaz elin gözündən.
Söz adi olsaydı, qorxardıqmı biz
Elin tənəsindən, elin sözündən?

**30.06.2017**

***

Qəlbim nurla dolur baxsan da gendən,
Heyranam hüsnünün yaraşığına...
Mənim həyatıma gəldiyin gündən
Ürəyim bələnib ay işığına...

Qəlbindən keçəni bilirəm axı! –
Sənin tək gözələ hədiyyə süsən...
Bəlkə də ömrümün ixtiyar çağı
Sən mənə Tanrının hədiyyəsisən...

**19.06.2017**

## SEVGİ YAĞIŞI ALTINDA

"Qəlbinizin ən ağır yükü sevgi olsun,
sevgi yağışı altında çətirsiz qalasınız!"

Bir sms-dən

–Qızların ürəyində qıymayın sevgi solsun!
Elə düşünməyin ki, alınmaz qalasınız!
Qəlbinizin ən ağır yükü qoy sevgi olsun,
Sevgi yağışı altda çətirsiz qalasınız!

–Ağ saçlarım bənzəyir ağ sevgi çiçəyimə,
Yaraşığa mindirir soyuq, bəyaz qar qışı.
Lap kərə yağı kimi yayıldı ürəyimə, –
Oy, necə şirin imiş bu gözəlin qarğışı!

Könlüm hər an olaydı kaş ki, sevmək gücündə…
Qəlbim yarpaq tək əsir, dərdimə varmı əlac?
Yağsın sevgi yağışı qalım sel-su içində,
Təşnə olanlar üçün çətirə nə ehtiyac?!

**06.02.2018**

***

Zərif gülün üstünə payız yelləri əsib,
Bilmirəm niyə səni sevdim çox həyatımdan?
Sən ömrümə gələndən ilham pərisi küsüb,
Ya ilham pərisi ol, ya da çıx həyatımdan!

**2017**



## ETİRAF

Məhəbbətsiz qərib sayar bu yer özünü,
Dağ bürünüb inildəyər dumana, çənə…
Bəlkə gəzib gəlməsəydin bu yer üzünü,
Heç gözünün ucuyla da baxmazdın mənə?!

Arı güldən çəkməyirmi ən şirin balı? –
Şair təşnə olsa belə, gözü tox imiş.
Hiss etdin ki, bu dünyada ondan sevdalı,
Səni duyan, dəyərini bilən yox imiş…

Ona görə saçımdakı dəni də sevdin,
Ona görə bahar bildin payızımı da…
Sözlərimə könül verib, məni də sevdin,
Sənin sevgi dənizində payızım – ada…

Qəlbin əsdi, könül verdin ulduza, aya,
İllər boyu axtardığın çıxdı qarşına…
Sən sevginin gözləriylə baxıb dünyaya,
Saf eşqinlə hasar çəkdin ömrün qışına…

Tənha qalan ürək bir gün haray qopardı,
Qəm şehindən pas bağlayan qəlbi saf etdin…
Dəli sevda qürurunu yuyub apardı,
Məni necə sevdiyini etiraf etdin…

**20.05.2017**

## DÜZÜNÜ DE

Düzünü de, necə gördün məni yuxunda?
Gözəlliyin qarşısında ağladımmı heç?
Düzünü de, necə öpdüm sənin sinəndən?
Bir süt zərif bənövşəni qoxladımmı heç?

Düzünü de necə olduq gecə qol-boyun?
Düzünü de, necə gəzdi əlim köksündə?
Ömrün payız dönəmində qismətim oldun,
İcazə ver, gizli gəlib ölüm köksündə…

Düzünü du, üşütdümü odlu sinəmi
Bəyaz sinən, bəyaz köksün quzey qarı tək?
Düzünü de, dodaqlarım dodaqlarının
Şirəsini necə çəkdi bir ac arı tək?

Düzünü de, bəxtəvərə dönə bildinmi?
Sevinc yaşı çağladımı sənin gözündə?
Düzünü de, nə oyunlar açdın başıma? –
Dinc durana oxşamırsan heç sən özün də…

**21.05.2017**

***

Nə qədər durub gendən baxım sənin xalına?
Bilmirsən neyləyəsən üzgünəm bu halına…
Sən mənim sualıma cavab vermə, eybi yox,
Bir cavabın yoxdumu könlünün sualına?

**12.05.2017**



## SƏN BİR SEVGİ ÇİÇƏYİSƏN

Yaşamısan gözündə yaş, içində ağrı,
Sevgin yoxsa, eşq məbədi yapa bilməzsən.
Min il idi yol gəlirdin sən mənə doğru,
Min il gəzsən, bir də məni tapa bilməzsən…

Kövrək şair ürəyini ləçəyə sarı!
Çox şükür ki, məni tapıb, murada yetdin…
Sən bir sevgi çiçəyisən, ləçəyi sarı,
Heç bilmirəm necə oldu köksümdə bitdin?

Heç bilmirəm nə söyləyim daha sənə mən?
İstəmirəm öz yolundan saxlayım səni…
Taleyinə şükür elə, sığın sinəmə!
Taleyimə şükür edib qoxlayım səni…

Eşqim sınıq bir ürəkdə aşiyan qurur,
Bilmirdim ki, o yuvada heç kim yaşayır…
Gözün aydın, gözlərimdə sevgi bərq vurur,
Gözüm aydın, ürəyində eşqim yaşayır…

**19.05.2017**

***

Unutmaq, unudulmaq söylə, kimə xoş gələr?
Yaza arxa çevirsən, əvəzində qış gələr…
Günahı özgələrdə axtarma, özündə gör,
Yuvanı boş qoyanda ora özgə quş gələr…

**04.02.2017**

## DƏNİZ, DƏNİZ SEVDALI ŞAİR VƏ DƏNİZ GÖZLÜ QISQANC QIZ

"Sən ey dəniz sevdalı, mən gözələm dənizdən"…
Bir sms-dən

Baxanda ağlım çaşır, o ilahi gözlərə,
Əbəsdi bu qısqanclıq, əbəsdi bu gileylər.
Dəniz gözlüm, qısqanma məni mavi Xəzərə,
Sənin tək sevgilisi olan dənizi neylər?

Sən ömrümə gələndən dəniz o dəniz deyil,
Sevgidən qəlbim əsir yaşımın bu çağında.
Qoxunu, hənirini dəniz duyub elə bil,
Qərq eləmək istəyir məni öz qucağında.

Qəlbimdən keçənləri kim deyir duymur dəniz? –
Ən sadiq bir dostunu itirməkdən qorxur o.
Bircə istəyimi də cavabsız qoymur dəniz,
Mənə xoş olsun deyə min oyundan çıxır o…

Nə vaxt həsrətli qollar sarılacaq boynuma?
Sən uzaqdan-uzağa ömrümə nur saçırsan.
Dəniz hər axşam - səhər alır məni qoynuna,
Sən dərdimdən ölsən də, məndən uzaq qaçırsan...

Qoyma ki, həsrətimdən bircə çiçək də solsun,
Sevgi marafonunda cinayətdi fasilə!
Əgər istəmirsənsə sevgi şərikin olsun,
Al məni öz qoynuna, dənizdən xilas elə!

**03.08.2018**



## ALTILIQLAR

Sevgi sərhəd tanımır ki, əziz insan!
Ciyərimdə hiss edirəm nəfəsini.
Nə zamansa qismət olsa görüş bizə,
Çıxacağıq ayrılığın əvəzini…
Daha gizli saxlamaq da mümkün deyil,
Mənim olmaq, sənin olmaq həvəsini!

Eşqin dönüb həyatımın mənasına,
Sözlərinə, gözlərinə oldum əsir…
Okeanın o tayından işıq gəlir,
Yenə səni düşünürəm, qəlbim əsir…
İndi necə sevdiyimi el biləcək,
Dözəmmirəm, darlıq edir qəlbimə sirr…

**30.12.2017**

## SAHİBSIZ ADA

Mənim ürəyim – sahibsiz ada,
Niyə sən bunu salmırsan yada?!
Tez gəlib ona sahib ol, ya da
Qorxuram qismət ola o yada!
Özgə qəlbində sevgi oyada!
Sonuc deyildir boran, qar hələ,
Ürəyimizdə sevgi var hələ…

**27.01.2017**

***

Sevə bilməz kimsəni,
Kimin ki, qəlbi əsmir,
Sevgi çəmənzarından
Hər an gül dərmək olmur.
Sevgiyə güllə batmır,
Sevgini qılınc kəsmir, –
Sevgi ilahi nurdu,
Onu öldürmək olmur!

19.06.2018

## DÖRDLÜKLƏR

***

Nə çoxdu həsrətlilər, eşqin acı olanlar! –
Üşüyənlər, sevgimin oduna qızınacaq.
Tənhalığa məhkumdu dili acı olanlar!
Görək kim itirəcək, görək kim qazanacaq?!

12.10.2018

***

Baxışın altında su tək duruldum,
Saldın ürəyimə həsrət közünü…
Dəniz gözlərini görüb vuruldum,
Nə vaxt görəcəyəm bəs ay üzünü?

28.06.2017



***

Həsrətin çəkibdir dağ çiçəklərə,
Təsəllimi verir dağ çiçəklərə?
Əllərin sevgiylə tutsa əlimdən,
Lüzum qalmayacaq ağ çiçəklərə…

2017

## SEVGİ DÜNYAMIN LALƏSİ

İntizar bəbəklərim hər zaman səni gözlər,
Yolunu gözləməkdən laləyə dönüb gözlər…

Yenə başım üstündə çaxır hicran şimşəyi,
İşardır içimdəki közü həsrət küləyi…

Yeri-göyü titrədər ürəyimin naləsi,
Mənim sevgi dünyamın hanı qızıl laləsi?

16.04.2017

## DƏNIZ GÖZLÜM

Niyə vurulduğumu anlayıram indi mən,
Gözlərin dəniz kimi mavi imiş sən demə…

Sevgi əzablarından yer tapmırsan özünə,
Çox baxmısan Xəzərə, dəniz köçüb gözünə…

Ürəkdə təmiz sevgi elə-belə yaranmır…
Dəniz rəngli gözlərin içində mən varammı?

Gözəlbaz olsam belə meyl etmədim hər gülə,
Sən məni dəniz kimi gözlərində qərq elə…

**07.07.2017**

## SƏN SEVGİ BAĞIMDA TƏZƏ FİDANSAN

Elə düşünmə ki, uşaqsan indi,
Mənim gözlərimdə işıqsan indi..

Nəfəsə dönmüsən, cana dönmüsən,
Damarımda axan qana dönmüsən.

Tanrı qəzəblənər bu eşqi dansan,
Sən sevgi bağımda təzə fidansan…

Sevgi ocağımda közə dönmüsən,
Dilimdə ən şirin sözə dönmüsən.

Tale birləşdirib yollarımızı,
Kim bağlaya bilər qollarımızı?

**10.03.2017**



## BƏLKƏ İLHAM PƏRİMSƏN

Sən elə ilk baxışdan məni yaxın bilmisən,
Bəlkə də bunun üçün taleyimə gəlmisən!

Sağ ol, ürək qızdırıb rəsmini göndərmisən,
Sevdalı ürəyimi gülzara döndərmisən…

Hər şəklin canlı əsər,
Baxanda ürək əsər!

Sənin nur saçan üzün bənzəyir bir günəşə,
Köynəyinin altından boylanır cüt bənövşə…

Mənim sevdalı qəlbim görüşünə tələsər,
Səni oxşamaq üçün köksümdə tir-tir əsər…

Ancaq təşnə şairi şəkil çətin doyura,
Daha hicran yelləri bizi çətin ayıra!

Mənə yaman doğmasan bilməsəm də heç kimsən,
Qırıq sevgi sazımda yoxsa bir təzə simsən?!

Sevgi çəmənzarımda təzə çiçəklər açıb,
Bir qaynar nəfəs üçün təşnə ürəyim acıb…

Məni yaza səsləyir saçlarının qoxusu,
Sən gələndən, qaçıbdır gözlərimin yuxusu…

İlham pərisisənmi, göylərdənmi enmisən?
Sevgi kəhkəşanımda ulduzamı dönmüsən?

Bəlkə qərib durnasan, qatarından azmısan?
Mənim sevgi bağıma gələn təzə yazmısan?

Tir-tir əsdi sevincdən sanki bəndmiş qəlb himə…
Pənahmı gətirmisən mənim sevən qəlbimə?

Yollarıma dikilib hər an oyaq gözlərin,
Azan sevgi gəmimə olub mayak gözlərin…

Axır ki, ürəyimi gülüstana döndərdin,
Axır ki, mənim üçün ürəyini göndərdin!

Ləçək dodaqlarından necə doysun ac arı?
Kaş ki, məndə olaydı ürəyinin açarı…

Çaxdın sevgi dünyamda qəfil bir şimşək kimi,
Yaz gətirdin ömrümə bir zərif çiçək kimi.

Gözəlliyindir səbəb mənim həyəcanıma,
İstəsən sac sinəmdə əriyib hop canıma.

Gəlişinlə ömrümdə yaza döndərdin qışı,
Zər qədrin zərgər bilər, səni duymaz hər naşı…

Köksündəki o işıq gözlərimə dolaydı,
Özün dediyin kimi kaş halalım olaydın…

**2017**



***

Qürbət alıb əldən mənim Əfsanəmi yoxsa?
Bu sevgi deyil, bir yeni əfsanəmi yoxsa?

Ətri məni bihuş eləyən nanəni sevdim,
Gerçək olanı sevmədim, əfsanəni sevdim!

Eşqin günəşi min bulud olsa, yenə itməz,
Allah yaradan sevginin əfsanəsi bitməz…

**19.05.2017**

***

Eşq bağında yetişən meyvələri - barı sevim!
Ayrı iş gəlmir əlimdən, nə olar, barı sevim!

Onun ağ əllərini əllərimə qismət elə,
Göydəki ağ buludu, zirvədəki qarı sevim!

Nə olar, konlümü köklə təzədən sən qəzələ,
Oxuyum, ləzzət alım, tək o gözəl yarı sevim...

Mən konül qırmağa qadir deyiləm, ey Yaradan,
Könlümə eşq nuru sal, sevdalı lilparı sevim!

**01.07.2018**

***

Sevgilim, mən nə qədər səndən əgər olsam uzaq,
Qəlbinə eşq odu düşsə, itəcək qüssə-sazaq.

Eşqimin güllərini soldura bilməz şaxta,
Gecə qəlbim kimi köz-köz alışan göylərə bax!

Zülməti qoymayacaq bir daha gəlsin yaxına,
Dəli sevda həmişə qəlbimizə nur saçacaq.

Bilirəm, qorxudur hərdən səni həsrət sazağı,
Saçımın rənginə baxma, ürəyim qaynar ocaq...

Külün altında qalan söz közə dönmüş elə bil,
Bilmirəm sevdalı könlüm nə zaman dil açacaq?

Sevgidən qönçə tutub, bir himə bənddir baxışın,
Yusifoğlu səni sevsə, ürəyin gül açacaq...

**29.10.2018**



***

Qısqanclıq atəşi yandırır, yamandır,
İçini göynədən şübhədir, gümandır...

Təmizsən, duymursan qurulan duzağı,
Üşüdür qəlbini ayrılıq sazağı,
Gözlərin görməyir beş addım uzağı,
Eşqinin yolları dumandır, dumandır.

Xəyanət köksünə saplanan bıçaqdır,
Dünyada sevinc az, dərd qucaq-qucaqdır,
Sevdalı ürəyin bir qaynar ocaqdır,
Qəlbinin telləri inləyən kamandır...

Qoxladın reyhanı, nərgizi, süsəni,
Bu sevda yolunda tanımır kim səni?
Geriyə boylanıb qınama kimsəni,
Yaxanı kədərə tanıtma, amandır...

Sən yerə salmadın qəlbinin əmrini,
Şeirə, sənətə sərf etdin ömrünü,
Sevgiylə yoğurub Yaradan xəmrimi,
Ürəyin daşdan da məhəbbət umandır....

Şax baxa bilirsən hamının üzünə,
Çoxları qızınıb qəlbinin közünə,
Ay şair, hər şeyi dərd etmə özünə,
Hər dərdin məlhəmi zamandır, zamandır...

**01.11.2018**

## SEVGİM HƏQİQƏT OLDU

Gözlərimi görəndə
ürəyindən nə keçdi?
Milyonların içindən
sən niyə məni seçdin?

Mən bir sevgi dənizi,
sən bir dəli dağ çayı,
Geri dönmək istəyin
havayıdır, havayı…

Göynərtidən zövq alıb,
eşqin oduna yandın,
Saçın bəyaz qarını
bahar çiçəyi sandın!

Qəlbindəki bir təmiz
məhəbbətdən güc aldın,
Öz ilahi eşqinlə
zirvələrə ucaldın…

Hər gecə aya baxıb
halımı soruşursan,
Sən elə ucasan ki,
zirvəyə yaraşırsan!



Bizi bu günə salan
sevgi, məhəbbət oldu…
Əfsanənin köksündə
sevgim həqiqət oldu…

**20.05.2017**

## SEVGİ ÇİÇƏYİ

Məhəbbət qurban
tələb eləyir,
Dəlicəsinə
sev ki, çiçəyi,
Solmasın onun
bircə ləçəyi,
Qismətin olsun
sevgi çiçəyi!

Dərib qəlbimdə
bəslərəm onu,
Gülşəndə qalmaz
sevgi çiçəyi.
Gül-çiçək ömrü
az olur, ancaq
Heç zaman solmaz
sevgi çiçəyi…

**27.01.2017**

## SEVGİ ARXIMIZ

–Arxın suyu kəsilsə,
İçi çör-çöplə dolar…
Suya həsrət şitillər,
Güllər saralıb solar…

–Arxı təmizləməsən,
Bostana su axarmı?
Körpə-körpə fidanlar
Boy atarmı, qalxarmı?

–Yalnız saf məhəbbətdi
Pənahımız, arxamız!
Çalışaq, lillənməsin
Bizim sevgi arxımız…

– Göz yaşımdan su içir
Mənim sevgi ağacım.
Bulağı olan kəsin
Arxa nə ehtiyacı?

**2017**



## UNUTMAQ OLMUR

Ay kimi şəfəq saçan
Üzü unutmaq olmur.
Qulağıma dediyin
Sözü unutmaq olmur…

Nə yaxşı ki, sən varsan
Sanırdım buzsan, qarsan,
Dodaqlarmı qarsan
Közü unutmaq olmur…

Ürəyim olub şan-şan,
Yox dərdimi soruşan,
İçində eşq sayrışan
Gözü unutmaq olmur.

Ürəyimi üzür qəm,
Bəbəklərim daim nəm,
Bu nə işdi, bilmirəm
Sizi unutmaq olmur…

**21.03.2017**

***

Dəniz, sevgilini aldım,
Ayrı yar tap sən özünə…
Biz birlikdə baş vurmuşuq
Dünən sevgi dənizinə…

## SEVGİ MƏNİ
## TƏK BURAXMAZ

"Saçındakı ağ tel qədər
Şair, razısan özündən.
Nə olsun ki, yaşım azdı,
Ölək, bu səbəb üzündən?

"El nə deyər" məsəlinə,
De, nə qədər dözəcəyik?
Bir vurursa ürəyimiz,
Biz ayrımı gəzəcəyik?

Qoca şair, əvvəl-axır
Mənsizliyə alışarsan.
Gedərəm gəldiyim kimi,
Qədərinlə barışarsan..."
Ə.S.

Eşqindən divanə olan
O qoca şair kim idi?
Giley-güzar eşq bağını
Bürüyən çayır kimidi...

Müqəddəs eşq çəmənzarı
Hər yoldan ötən yeridi?!
Unutma ki, giley-güzar
Sevginin bitən yeridi...



"Nə olar, məni sev", – deyə
Küncə qısmadım kimsəni.
Özün məni sevib-seçdin,
Məcbur elədi kim səni?

"Aşiqlik istedadım var",
Hamıdan ucayam, – buyam!
Varını verən utanmaz, –
Cavanam, qocayam?– buyam...

Nə vaxtsa özü tapacaq,
Ölüm, –
məni hədələmə...
Taleyimdən getməyinlə
Gülüm, məni, hədələmə!

Heç vaxt sevdalı arını
Yanından çiçək buraxmaz...
Vəfasızlar çıxıb gedər,
Sevgi məni tək buraxmaz!...

**20.05.2017**

***

Yenəmi üstümüzə
Hicran qanad gəribdi?
Sevgilisi olmayan
Vətəndə də qəribdi...

## MƏN SƏNİ ÇİÇƏK SANIRDIM

Mən səni gül ləçəyinə
Bürünən çiçək sanırdım…
Sözlərinə vurulmuşdum,
Təmiz eşqinlə yanırdım.

Bunu yaxşı bilirmişsən
Qəlbim sevgiyə hərisdi.
Ancaq üşüyən könlümü
İsidə bilməz hər isti…

Yaxşı ki, tez duyuq düşdüm,
Çölündən qaraymış için!
Qəlbi saf, ancaq divanə
Şairə çatmadı gücün…

Özgəni yoldan çıxaran
Sirdaş olar dərd-ələmə…
Qara çadranın altında
Günahları pərdələmə…

Hicaba bürünən şeytan,
Məni axtarma, arama!
Çəkmə qəlbimi sınağa,
Girmə Allahla arama!

**28.05.2017**



## SARI ÇİÇƏK VƏ ARI

Kol dibindən boylanır
Mənə sarı çiçəyim.
Həsrətdənmi saralıb
Mənim sarı çiçəyim?

Bilmirəm nə demişəm
Dəyib onun xətrinə.
Ciyərim tamarzıdı
Ləçəyinin ətrinə…

Ürəyi gedir onun
Bir ac arıdan ötrü…
Gəl-gəl deyir, çağırır
Rəngi, şirəsi, ətri…

Ürəyini göynədir
Həsrətin sızıltısı…
Nə gözəl nəğmə imiş
Arının vızıltısı?!

Sarı çiçək baş açmır
Qəlbinin işlərindən…
Bəlkə qorxur, çəkinir
Arının neştərindən?

Arı öpüşlərinə
Öyrəşsə, bala-bala
Sarı çiçək şirəsi
Dönəcək sarı bala…

Sən də mənsiz qalanda
Göz yaşları tökürsən…
Arı öpüşlərimin
Həsrətini çəkirsən…

**01.06.2017**

***

Solan sevgi gülünü
Gözündən yaş tök, suvar!
Baş qoyub ağlamağa
Sevin ki, yar köksü var!

**18.05.2017**

***

Ötən sevgi əzabıyla
Hələ də göynəyir için.
Mənim təmənnasız eşqim
Məlhəmdimi sənin üçün?



## MƏNİM SEVGİ GÜNƏŞİM

Mənim sevgi günəşim,
Həsrət sənə güc gəldi.
Mənim sevgi dünyama
Niyə belə gec gəldin?

Mənim sevgi günəşim,
Dol həsrətin qəsdinə!
Şəfəqli tellərini
Səp sinəmin üstünə!

Ürəyimin səsinə
Ürəyin qulaq assın.
Alovlu yanaqların
Dodaqlarımı qarssın!

Özün hiss elədinmi
Kim isti, kim soyuqdu?
Duydunmu məndən başqa
Sevdalı ürəyinə
Layiq bir kimsə yoxdu?!

**02.12.2017**

***

Yazırsan ki, əvvəl-axır
Məni peşman edəcəksən…
Ürəyimə alov salıb,
Həyatımdan gedəcəksən.

Bu söz-söhbətin günahı
Nə məndədi, nə də səndə…
Sən heç mənim həyatıma
Gəlmişdin ki, gedəsən də?

**06.06.2017**

***

Günəşə don geydirsən,
Yanar, əynində qalmaz.
Mənim sevgi günəşim,
Üzünü göstər bir az…

Qoy baxım, ürəyimdə
Arzular çiçək açsın.
Biz dayanaq üz-üzə
Hicran buludu qaçsın…

**10.06.2017**



## ŞƏBİ-YELDA

İlin ən uzun gecəsi,
Başımda yar sevdası…
Əgər bir az şaxta olsa,
Donacaqdır yolda su…
Həsrətimi azaltmağa
Hər gecə bəs eləməz,
Kaş ilk gecəmiz olaydı
İlin şəbi-yeldası…

**21.12.2017**

## NƏ YAXŞI Kİ…

Nə olsun ki, külək əsir,
Havada qar qoxusu var,
Sevgi günəşi olanın
Soyuqdan nə qorxusu var?

Nə yaxşı ki, mən özüm də
Sənin sevgi günəşinəm!
Gizli sevgi qatarında
Bir əbədi sərnişinəm…

## İLHAM PƏRİSİNİN GİLEYİ

Mən ilham pərisiyəm,
Şərikəm hər işinə!
Yazdığınla öyünüb,
Şair, döymə döşünə!

Neçə qəlbi kövrəyi
Yolundan azdıranam.
Sən şeir yazansansa,
Mən şeir yazdıranam…

Sənə Məcnun deyirlər,
Mənə Leyli deyirlər…
Yazdığından əskikmi
Yazdırdığım şeirlər?!

**06.02.2018**

***

Gözüm qara xaldadı,
Dilim qızıl baldadı.
Çiçək ləçəklərindən
o qədər öpmüşən ki,
dodaqların bal dadır…
Mən çatsam da vüsala,
Həsrət hələ yoldadı.
Sən getmisən özündən,
Gör şair nə haldadı?!

**08.02.2018**



## SARI ÇİÇƏK, ARI VƏ SEVGİ RÜZGARI

Ay sarı çiçək, sarı çiçək!
Bir dön bizə sarı, çiçək!
Təzə ildə təzələn,
Sevdiyinə sarıl, çiçək!
Qoynunda gecələsin
Səni sevən arı, çiçək!
Qoy nəfəsin əritsin
Saçımdakı qarı, çiçək...

***

Niyə səsin kəsildi,
Üstünü qar aldımı?
Şairin həsrətindən
Ləçəyin saraldımı?!

Əsir sevgi rüzgarı,
Ömür yarı, gün yarı…
Sevgin əridəcəkmi
Saçıma yağan qarı?!

**31.12.2017**

***

Sən günəşsən, mən dəniz,
Çevirmə ha, məndən üz!...

**19.06.2017**

***

Necə onu fəth eləyim? –
Ürəyin alınmaz qala.
Şirin bir sevgi nağılı
Qoyma ki, yarımçıq qala,
Qıyma ki, yarımçıq qala…

**2017**

## QOCALAN SEVGİ

Aynayla durub üz-üzə
Mən özümü yığışdırdım.
Gizli sevgi gülşənimə,
Qar ələndi,
yağış durdu…

Sanırdım sevgi məlhəmdi,
Dərdin yox ayrı əlacı….
Sevgimin əyildi qəddi,
Sevgimin ağardı saçı…

İki addım atan kimi,
Sən mənzil başına çatdın.
Qoca şair deyə-deyə
Körpə sevgimi qocaltdın…

**11.03.2018**



## QARAYA BÜRÜNƏN QADIN

Közə bənzər qamətini
Gizləyib
kömür içində,
Neçə-neçə arzuları
Dəfn edir,
gömür içində!

Nə Məcnunam, nə Kərəməm,
Nə Şeyx Sənan gücündəyəm.
O, qara paltar içində,
Mən qara xof içindəyəm…

**22.02.2018**

***

Yurdumun düzlərində
Lalə beş yüz, lalə min…
Sevgi çəmənzarımda
Əvəzi yox laləmin!

**10.06.2017**

***

Danışma ayrılıq haqda,
Görüşdük ki, ayrılaq da?!

**2017**

## QÜRBƏT BULUDU

Bir az da məndədi günah
Qürbətə saldınsa meyil.
Sevgim səni bu vətəndə
Saxlamaq gücündə deyil!

Ürəyim əsir, havada
Sanki var qürbət qoxusu…
Qəlbimdə minaya dönüb,
Səni itirmək qorxusu…

İçimdə zülmət yurd salar,
Güvə düşər umuduma…
Sevgi günəşim bələnsə,
Əgər qürbət buluduna…

26.03.2018

***

Bu dünyada taparsan
kefin istəyən kədər!
Könül verib sevərsən
kefin istəyən qədər!...

30.06.2018

***

Kimin oğlu-qızı yoxdu,
Həyatının duzu yoxdu...



## BƏNÖVŞƏ ÖMRÜ

Hava tutqundu bir az,
Tənhasan, üşüyürsən.
Boynunu yana əyib
Söylə, nə düşünürsən?

Mənim küskün bənövşəm,
Zəhmətim oldu hədər…
Sevgimiz də qısaymış
Bənövşə ömrü qədər…

03.04.2018

## "SİZ"DƏN "BİZ"Ə

Yollarını gözləirəm,
Gəlib keçsənə!
Uçurub "Siz" hasarını,
Gülüm, keç "Sən"ə!

İstəməyən bəbəkləri
Dələn biz olaq!
"Sən"lə "Mən"i birləşdirək,
Dönüb "Biz" olaq!

03.04.2018

## NƏ QALIB Kİ...

Ağrılar qəlbimi didib,
Yurdsuz qalan ömür bitib,
Hasarlar içində itib,
Bu vətəndən nə qalıb ki?!

Dilim dönmür deyim tez gəl,
Qəlbimdəki gülü üz gəl!
Şirin əzablardan özgə
Məndə “sən”dən nə qalıb ki?!

Qəfil fırtına qopardın,
Dəryalar kimi qabardın,
Mənim “mən”imi apardın,
Məndə “mən”dən nə qalıb ki?!

**06.06.2018**

***

Eşqin zülmət gecəsini
Nurlandıran ayımsanmı?
Ömrün ixtiyar çağında
Mənim sevgi payımsanmı?

***

Arzum da, diləyim də sən,
Arzumda, diləyimdəsən!



## NƏ DEYİRLƏR, DESİNLƏR

Arzu çox, ömür qısa,
Sevən qəlb çətin susa!
Könül ver güllü yaza,
Nə deyirlər, desinlər!

Bədxahların gücü nə?
Sığın eşqin gücünə!
Heç nə alma vecinə,
Nə deyirlər, desinlər!

Həsrət acı zəqqumdu,
Haqsız səndən haqq umdu,
Sev, bu halal haqqındı,
Nə deyirlər, desinlər!

Nə sözə, nə yaşa bax!
Çox gözəldi yaşamaq,
Qorxaqlığı daşa çax,
Nə deyirlər, desinlər!

Saçın olsa da bəyaz,
Ürəyində gülür yaz,
Öz qəlbinə qulaq as,
Nə deyirlər, desinlər!

Səni salıb yar oda,
Eşqin dəniz, yar ada!
Üzüb qovuş murada!
Nə deyirlər, desinlər!

07.03.2018

## ÇƏKİRƏM

Getsəm də üzü yetmişə,
Yüz il dərdini çəkirəm!
Öz elim əlimdən çıxıb,
Yüz el dərdini çəkirəm!

Gileyli gözlər süzülüb,
Tellərə qırov düzülüb,
Qoşmadan əlim üzülüb,
Qəzəl dərdini çəkirəm.

Qollar həsrətdi belinə,
Vaxtsız dən düşüb telinə,
Sevgi dünyama ələnən
Xəzəl dərdini çəkirəm...

Küsürəm hamıdan bəzən!
Bir gün mənim üçün bəzən!
Gözləri gözümü gəzən
Gözəl dərdini çəkirəm...

13.10.2018



## XALLI GÖZƏL

Qəm bələkli təbəssümün
Həssas ürəyi qanadır.
Sonsuz zülmətin qoynundan
Qəlbin işığa can atır...

Bu, illərin yanğısıdı,
Həsrət odu çətin sönə!
Saçın sığala həsrətdi,
Başın kişi sinəsinə...

Gecələr aya baxırsan,
Yuxu da getmir gözünə...
Bu etibarsız dünyada
Simsar gəzirsən özünə...

Sənin hönkürən ürəyin
Nə vaxtsa kiridi bəlkə?
İllərin ağrı-nisgili
Bu eşqlə əridə bəlkə?

Baxışlarımız öpüşdü,
Gözüm sataşdı xalına...
Bir cüt göz gərək ağlasın
Şair qəlbinin halına!

Məni gizlicə izləyən
Həsrətli gözlər dolacaq...
Bəlkə bu eşqin sonunda
O xallar nöqtə olacaq?!

**13.10.2018**

## ÖZÜNÜ QORU

Sən bir çiçəksən,
Mən bir ac arı.
Hər qəlbə düşmür
Könül açarı…

Bəbəklərində
Sevgi nuru var.
Kövrək qəlbini
Mən tək kim duyar?!

Qıymaram düşsün
Adına ləkə…
Ay tək üzünə
Buldlar çökə...

Alova dönsün
Qəlbinin qoru!
Gözümün nuru,
Özünü qoru!

**22.05.2018**



## SEVGİ MƏLHƏMDİ

Hələ çox küsüb
Barışasıyıq…
Eşq göylərində
Sayrışasıyıq…

Bir döyünürsə
Sevən ürəklər,
Neyləyər bizə
Quduz küləklər?!

Qəlbimdə daşan
Həvəs sevgidi.
Aldığım hava,
Nəfəs sevgidi…

Mən necə açım
Paslı kilidi?
Ağlayan qəlbi
Necə kiridim?!

Əzab çəkənin
Gözləri nəmdi…
Bütün dərdlərə
Sevgi məlhəmdi…

**2018**

***

Ən gözəl çiçək də
quraqlıq olanda
saralır, solur…
Ən ülvi sevgi də
laqeydlik cəngəlliyində
azır.
Arx ilə daim
su axmayanda
içi xəzəllə,
zir-zibillə dolur.
Cığırla getməyəndə
içini ot, çayır basır…

**27.01.2017**

***

Qadın –qəlbimizdə işıq,
başımızda tacdı.
Qadın həmişə
sevgiyə möhtacdı…
Təmiz sevgi
bütün dərdlərə dərman,
çarəsiz ağrılara əlacdı…

**06.02.2017**

***

Sevginin önündə qürur,

Sıldırımlı dağ tək durur...

**30.06.2018**



***

"Rüsvay gərək həmişə aşiq" -
deyib Füzuli babam,
İndi rüsvaylığı sən də al
gözünün altına…
Qabaqlar hisslərimin fövqündə
durmağı bacarırdım,
İndi onlar məni alıb
dizinin altına…

**25.03.2017**

## DƏNİZ SAHİLİNDƏ GÜNƏŞİ SEYR EDƏN QIZ

Dayanıb dənizin sahilində
Seyr edirsən doğan günəşi…
Üşüyür əllərin,
kirpiklərində şehə dönür
qəlbinin atəşi…
Dilini dinc tutsan da nə qədər,
düşüncən üsyan eləyir,
lal dura bilmir…
Ürəyindəki dərin boşluğu
o boyda dəniz də,
o boyda günəş də
doldura bilmir…

**29.03.2017**

## QƏLBİNİ SEVGİ İLƏ DOLDURA BİLSƏN

Kimsə xətrinə dəyib deyə,
nifrətlə yoğrulub
çölün də, için də…
Elə hey danışırsan
bu dünyanın qarasına, –
Giley-güzar
yuva qurub içində …
Ancaq mənim üçün
yaşamaq çox gözəldi,
köksümə meydan oxuyur
arzum, istəyim…
Sevdiklərimlə mənim
görüş yerimə
dönən bu dünyaya
mən necə pis deyim?!
Sənə təbəssüm payı
göndərəcək
kimin üzünə gülsən,
gözəllikdən zövq
almağı bacarsan,
ürəyin çevriləcək gülzara…
Qəlbini sevgi ilə,
məhəbbətlə doldura bilsən,
orda yer qalmayacaq
nifrətə, giley güzara…

**23.04.2017**



## GERİYƏ YOL VARMI?

Sən mənim qəlbimi sındırdın,
Mən sənə
şeir yazdığım qələmi…
Xəyanət xərçənginə
heç nə, heç nə
kömək eləmir…
Ağıllı adam
tutduğu əməlin
cəzasını sakitcə çəkir,
kiminsə önündə
diz çöküb yalvarmır!
Özünü havayıdan
didib-tökmə,
geriyə yol varmı?!

**03.05.2017**

***

Qoyma qalxım mən zilə,
Tələsmə son mənzilə…

***

–Bu da təzə siyahı…
–Bəyazı, ya siyahı?

## QARATİKAN, DAŞ, MƏN VƏ SƏN

Sənin üçün tökdüyüm
göz yaşları ilə
qaratikanı sulasam,
qızılgülə dönər,
ömrü boyu nə saralar,
nə solardı…
Sənə elədiyim yaxşılığı
daşa eləsəydim,
ağaca dönüb bitər,
üstümə kölgə salardı…
Qızıl sevgi közlərimi
kömürə döndərdin,
su ələdin oda sən!
O qaratikan,
o daş,
bu mən,
o da sən…

**06.05.2017**

***

Qiymət vermə gözəyarı,
Sevən qəlbdi göz əyarı…

***

Mənə könlünü ver, gül,
Nidaya dönsün vergül!



***

Saçlarım bəmbəyazdı indi, –
Qara da çevrilib
ağ olarmış?!...
Sən demə
zəlzələ qopanda
dağ çöküb dərə,
dərə ucalıb dağ olarmış…
Sən demə
üzünü görmədiyin
adamdan ötrü də
darıxmaq olarmış…

**18.05.2017**

## ÇALIŞ Kİ…

Çalış ki, çiçəkli yamacım,
Ulduzlu göyüm olasan!
Sən mənim əlimdən
hər şeyi almağa çalışma,
Çalış ki, hər şeyim olasan…
İnsanı ram eləmək olar, –
Ancaq vurulan qəfil
zərbə ilə yox!
İnsanı sevgi ilə yanında
saxlamaq olar,
Nəzarətlə,
hədə-hərbə ilə yox!

**21.06.2017**

## DƏLİ BİR SEVDA

Gözlərin darıxmayıbmı
bir dəli sevdalı
şair baxışı üçün?
Çat-çat ürəyin
təşnə deyilmi
sevgi yağışı üçün?
Ürəyin düşməyibmi
sevib-sevilmək həvəsinə?
Ciyərlərin həsrət deyilmi
kişi nəfəsinə?
Çiçək dodaqların
bir ac arıya,
həsrətli ürəyin
bir şirin ağrıya
möhtac deyilmi?
Havalanmısan,
yerdə yer də
tapa bilmirsən özünə,
gecələr yuxu da
getmir gözünə, –
dəli bir sevda
bütün dərdlərinə
əlac deyilmi?

**21.05.2017**



## SİNƏÜSTÜ KİTABLAR

Bir qızın sözlərindən

Sizi sevdiyim üçün
bəzən özümü
xoşbəxt sandım,
bəzən taleyimdən
küsdüm də…
Kitablarınız bəxtəvərdi
neçə-neçə qızın
sinəsinin üstündə…
Neçə illərdi ki,
mən də onlarla yatıb,
mən də onlarla dururam…
Neçə illərdi ki,
pərvanə kimi
özümü oda,
közə vururam.
Neçə illərdi ki,
eşq qoxuyur
yerim, göyüm…
Göynəyirəm için-için,
göynəyirəm
göyüm-göyüm…
Neçə illərdi ki,
həsrət odu
mənə zülm edir, –
Şeirlərinizin işığı
əritsə də içimdəki zülməti…

Bəzən köksümdə
bu sevgi alovu
öləziyə,
sönə istədim…
Ancaq yenə oxudum ,
yenə doymadım,
yenə istədim…
Stolüstü kitablarım çoxdu,
Sizin kitablarınız isə
sinəüstüdü…

**28.05.2017**

***

Çox şükür,
Mənim gülşənimdə
ətirli çiçəklər boldu…
Çox şükür,
sevgi çəmənzarımda
çayırlar boy ata bilmir…
Mənim şeirlərim
mənə sarı gələn yoldu, –
ora düşən, bir də
geri qayıda bilmir…

**2017**

***

Gör bizi haralara çəkib apardı
Qəlbimizin sonsuz harayı?!
Uçuq bir daxmada ucaltdıq
Möhtəşəm bir sevgi sarayı!

**31.05.2017**



## YƏQİN BİLİRSƏN Kİ

Yəqin bilirsən ki,
Mən ən gizli hissləri belə
çəkinmədən
böləcə biləcəyin
bir adamam…
Yəqin bilirsən ki,
mən köksünə baş qoyub
ağlaya biləcəyin
bir adamam…
Könül verəndə də
könül ver
birlikdə ağlayıb,
birlikdə gülə biləcəyin
bir adama…
Sevgisi yolunda
ölə biləcəyin bir adama…

**02.12.2017**

***

Ona sarı can atır,
onu arzulayır
kimin kimə,
kimin nəyə ehtiyacı var.
"Kaş cavan olaydım", – deyə
düşünən qocanın
Əfsanəyə ehtiyacı var…

**11.03.2018**

## MƏN BİR SEVGİ AĞACIYAM

Şükürlər olsun ki,
riya, yalan məndən uzaqdı…
Sevdalı ürəyimin
hamının yanında
alnı açıq, üzü ağdı…
Mənə balaca bir köz verənə,
qaynar ocaq vermişəm…
Ürəyimdə həmişə
həsrət sazağında üşüyənlərə
sığınacaq vermişəm…
Hava tutqun olsa da,
sevdalı qəlbim həmişə
nur içindədi…
Sonsuz sevgim
məni sevənləri
isitmək gücündədi…
Mən bir sevgi seliyəm,
kükrəyəndə hər adam
önümdə dura bilməyib…
Mən bir sevgi ağacıyam –
çox quşlar qonub budağıma,
ancaq hər quş orda
yuva qura bilməyib…

**07.12.2017**



## UTANCAQ MƏHƏBBƏT

Üstümüzə həsrət dumanı
elə çöküb ki,
mən yanında olanda belə
uzaqlara baxırsan…
Utancaqlığın aramızda
elə bir çəpər çəkib ki,
onu aşıb keçməyə qorxursan…
Səni bu hala salan
utancaq məhəbbətindi…
Səndən bir kəlmə söz çəkmək
ocaqdan köz çəkmək kimi çətindi…

**07.03.2018**

## QAR KÖYNƏYİN ALTINDA ÜŞÜYƏN BƏNÖVŞƏ

Birdən mənim də
günəşim doğar deyə
göz dikmişəm qızaran
sevgi üfüqlərinə…
Qar köynəyin altında üşüyən
bir cüt utancaq bənövşə
müntəzir deyilmi
intizar gözlərimin
sevgi şəfəqlərinə?!

**11.03.2018**

## BÜTÜN HƏSRƏTLƏRƏ SON QOYULSA

Sevgi şeirlərimi
kövrələ-kövrələ oxuyub,
Göynəyə-göynəyə
içini yeyirsən!
“Allah bütün həsrətlərə
son qoysun!” - deyirsən!
Mən ola bilmədim
həyatının kişisi,
Sən ola bilmədin
həyatımın qadını!
Bütün həsrətlərə
son qoyulsa,
Sevgilər itirməzdimi
duzunu, dadını?!

**11.03.2018**

***

Sevməli o qədər qəşəng,
gözəl qız var ki,
Ürək isə hər adamı
yaxına buraxmır.
Yazmalı, ürək boşaltmalı
o qədər ağ kağız var ki,
Qələm isə tərsin biridi,
həmişə sözə baxmır…

**14.03.2018**



## SEVDALI BƏBƏKLƏR

Unutdum içimdəki
ağrıları, göynərtini,
elə ki, mənə sevgi ilə baxan
gözlərini gördüm.
Mən sənin yaşla siləlnən
sevdalı bəbəklərində
alışan ürəyimin
közlərini gördüm…

**18.03.2018**

## BƏYAZ NAĞIL

Üstümüzə sevginin
ilk qarı yağdı…
Üzün də
könlün kimi
daim dümağdı…
Heç vaxt, heç vaxt
görünməz
Ağ qara.
Sən bəyazlıq verirsən
Ağ qara!
Bir ağ çiçək bərq vurur
yaxanda!
Ağ libasdan seçilmir
Ağ əndam.

Bəyaz qarın üstündə
Dümağ iz.
Dönsün bəyaz nağıla
sevgimiz…

**19.03.2018**

## EŞQ ŞİMŞƏYİ

Eşq şimşəyi ürək tarlasını
gözə görünməz odlu kotanla
əkir, xışlayır…
Eşq şimşəyindən sonra
sevgi leysanı başlayır…
Xoşbəxtlikdən
bəxtəvərə dönmüşük,
gözlərimizdən
sellər-sular axır…
Eşq şimşəyi
qu quşunun
nəğməsi kimi bir şeydi, –
o şimşək ömürdə
bircə yol çaxır…

**19.03.2018**



## MUZEYDƏ İŞLƏYƏN QIZ

Həftənin yeddi gününü də
işdə keçirən qız,
xəbərin varmı
bu muzeyi sən öz gözəlliyinlə
bəzəməyindən?!
Xəbərin varmı
özün də bu muzeydə
qiymətli bir inciyə
bənzəməyindən? –
Bura gələn istər-istəməz
sənə də sevgi ilə baxır,
adam qorunan
qiymətli əşyalar kimi
sənə də toxunmağa qorxur…
Hər eksponatın üstündə
yarpaq kimi əsirsən…
Elə bil özün də qoruduğun
bu sehrli dünyada əsirsən!
Həftənin yeddi gününü də
muzeydə keçirən qız,
çox doğmasan mənə sən.
Ancaq qorxuram ki, bir gün
özün də bir muzey
eksponatına dönəsən…
Başın işə elə qarışıb ki,
həsrət qalmısan meşənin,
dağın, dənizin üzünə!
Bəsdi bizi tarixə apardığın,

Bir az da vaxt ayır özünə!
Ömrün üzü
keçmişə deyil,
gələcəyədi…
Ürək sözlərini
keçmişə deyil,
gələcəyə de!
Sevgini əvəz eləyə bilməz
ən qiymətli inci də,
altun da!
Qoşul mənə
birlikdə islanaq
yaz yağmurunun
altında…

**04.04.2018**

***

Mən xatirələr dünyasının
Qaçaq Nəbisiyəm,
Sənin vüsalın isə
yüyəninə belə
əlim çatmayan
Boz atdı...
Onsuz da məndən
uzaq idin,
Sükutunla
aramazdakı o məsafəni
bir az da uzatdın!

**28.07.2018**



## SƏN MƏNDƏN ŞEİR İSTƏMİŞDİN

Səsin ovsunlayıb qəlbimi,
nəfəsin ətir qoxuyur.
Gözlərinə baxanda
Ürəyim elə bil
nəğmə oxuyur…
Bu vaxtacan harda idin,
Niyə çıxmamışdın qarşıma?
Sən bir şahlıq quşu kimi
hardan üçub gəldin,
qondun mənim başıma?! –
Küskün ürəyimi
sevdalı baxışlarınla dindirdin.
Məni sevgi dünyasının
sultanına döndərdin!
Göz yaşıyla yoğrulan səsin, nəfəsin
içimdə sevgi göyərtdi…
Həsrətin ürəyimi
göyüm-göyüm göynətdi…
Sevdalı gözlərini görəndə
düşündüm ki,
daha mənim nə dərdim?
Həsrətli baxışlarımla
üzündən təbəssüm çiçəkləri dərdim…
…Sən məndən şeir istəmişdin,
mən isə sənə qəlbimi verdim…

**13.05.2018**

## İLHAM VƏ İLHAM PƏRİLƏRİ

Gözlərin gözlərimə dikilib,
Nazlı-nazlı kirpiklərini döyürsən.
"İlhamınız gələndə
məndən də yazarsınız", – deyirsən!
Gülə-gülə baxıb deyirəm
gözəlliyini bir az da
artıran xalına:
–İlham pərisinin
libasına bürünüb
özün gəlməsən,
çətin ki, bir şey alına!
Unutma ki,
hər ürək sevə,
hər torpaq
çiçək bitirə bilmir!
İlhamım həmişə mənimlədi,
ancaq
ilham pəriləri çoxdu deyə
onların bütün sifarişlərini
yerinə yetirə bilmir!

**07.06.2018**



## DƏLİ VƏ DƏLİ SEVDA

Ən zülmətli gecələrdə belə
İnsanın qəlbinə nur ələyən var…
Heç kəs anadan dəli doğulmur,
Dəlini dəli eləyən var.
Dəlidən doğru xəbər alınca
Qaçmaq istəyirsən
dünyanın bu başından o başına
ayağı yalınca…
Gəzmək istəyirsən
diyar-diyar, ölkə-ölkə…
Dəlini ağıllandırsa,
bir dəli sevda
ağıllandıra bəlkə?

**14.07.2017**

## MƏNİM SEVDİYİM İNSAN

Mən məni qoyub gedənə
mane olan deyiləm!
Mən sevgidə aza
qane olan deyiləm!
Mənim sevdiyim insan
həsrətimə qənim olmalıdı.
Mənim sevdiyim insan
təpədən dırnağacan
mənim olmalıdı...

**11.11.2018**

***

Başıma min oyun açıb,
bu sevgi macərası...
Ləçək dodaqlarından
doyarmı
həsrətimin ac arısı?

**11.11.2018**

***

Bəsdi dikbaş gəzdiyin,
Sevgi önündə əyil!
Ürəyi möhürləmək
Bəndənin işi deyil...

**2018**

## UTANCAQ SƏTİRLƏR

Mənə bir məktub yazdın,
silkələdi içimi!
Hər kəlmənin,
hər sözün
ayrı idi biçimi...
Qayıtdı ürəyimə
abır-həya yenidən.
Utancaq sətirlərin
utandırdı məni də…

**11.11.2018**



## SÖNMÜŞ OCAĞIMIN KÖZÜ QAYITDI

Bizə mane oldu konül saflığın,
Sevda bulağından içməyə qorxduq.
Döndü sıldırıma utancaqlığın,
Üstündən adlayıb keçməyə qorxduq.

Hələ gül dərməmiş sevgi bağından
Həsrət cin atına mindirdi məni.
Bircə təbəssümün vüqar dağından,
Sevgi dərsinə endirdi məni...

İsitdi qəlbimi bu od, bu atəş,
Bir azca səngitdi eşq əzabımı...
Həsrət buludundan sıyrılan günəş,
Şəfəq telləriylə döydü qapımı!

Neçə dağ aşaram həvəsin ilə,
Perikən nəğməmin sözü qayıtdı...
Sənin yaz qoxulu nəfəsin ilə
Sönmüş ocağımın közü qayıtdı...

**01.01.2019**

***

Laciverd səmalar quşa halaldı,
Təmizlik, bəyazlıq qışa halaldı...
Mənim sözlərimlə böyüyən gözəl,
Mənim sevgim ilə yaşa, halaldı!

**2018**

## AĞ ATLI OĞLANIN OLA BİLMƏDİM

Solan çiçəklərin üzü gülmədi,
Heç kəs zorla yağış yağdıra bilməz.
"Əlvida" bircə söz, bircə kəlmədi,
Amma qarşısında dağ dura bilməz!

Eşq çəkər hər qəlbin haqq-hesabını,
Hərə özünə yar seçər, – bilirsən!
Tapa bilməyirsə bablı babını
Günü ah-vay ilə keçər, – bilirsən!

Məndən umduğunu ala bilmədin,
Budur ürəyini yoxsa üşüdən?
Ağ atlı oğlanın ola bilmədim,
Axı nə umurdun ağsaç kişidən?!

Qış ilə dostluğu tutmaz baharın,
Sevdalı ürəyin qaynar ocaqdır...
Gələcək nə vaxtsa sevgi qatarın
Səni çəmənlərə aparacaqdır...

Ürək məhəbbətsiz çətin keçinə!
Nur olub ömrünə töküləcəyəm.
Sonra da qoşulub qışın köçünə
Uca zirvələrə çəkiləcəyəm...

**24.02.2019**



## BİLMİRƏM SƏN HARDAN YUXUMA GƏLDİN

Sevgi güllərimi vurmuşdu sazaq,
Tək-tənha qalmışdım bu yer üzündə.
Yuxu da gözümdən düşmüşdü qaçaq,
Qəlbim sızlayırdı həsrət közündə...

Dünyada sananda tənha özümü,
Bilirsən heç nələr ağlıma gəldi?!
Bilmirəm heç necə yumdum gözümü,
Bilmirəm sən hardan yuxuma gəldin?!

Üzün közərmişdi həsrət odundan,
Səs verdik sevginin qadir səsinə!
Dərənin dibindən, qaya altından
Sən məni qaldırdın həzz zirvəsinə!

Uşaq tək ağlayan qəlbim kiridi,
Səninlə göz-gözə xoşbəxtəm necə!
Ağır dərdlərimi gün tək əridib,
Uğur mələyimə döndün o gecə!

İşıqlı qamətin dönmüşdü saca,
Unutmaq mümkünmü od saçan gözü?
"Tanrı sevdalıyam" dedin astaca,
Bizi qovuşdurdu Tanrının özü...

**06.04.2019**

## NURA BƏLƏMİŞ SAZAQ

Yol çəkən qəmli gözlərin
Niyə dikilib uzağa?!
Ən qənirsiz gözəli də
Həsrət döndərir yazığa...

Ürəyini sazaq kəsir,
Sevgiyə olmusan əsir,
Tənhalıqdan qəlbin əsir,
Elə mən də yalquzağam...

Həsrət çağlayır qanımda,
Sırsıralar var canımda,
Ancaq qəlbimin yanında
Ömrüm boyu üzü ağam!

Yatmamısan bütün gecə,
Sevgidə gücə bax, gücə!
Mən sənin içindən keçən
Nura bələnmiş sazağam!

**16.12.2018**

## SƏN MƏNİM TURACIMSAN

Sən mənim turacımsan,
Mənsə sənin ovçunam!
Sevgi ulduzum olub,
Düşdün mənim ovcuma!

**14.01.2019**



## BAŞIMDA EŞQ HAVASI VAR

Ömür əyirən dünyanın
Cəhrəsi var, həvəsi var.
İnsanın hər an sevməyə,
Sevilməyə həvəsi var!

Qəlb dinirsə həzin-həzin,
Dinləyin, söhbəti kəsin!
Sevməyi bacaran kəsin
İçində yaz nəfəsi var...

Çiçək gülür, əsir budaq,
Yamacda çağlayır bulaq,
Nə yaxşı ki, işıq, torpaq,
Nə yaxşı ki, hava, su var!

Üzümdə zamanın zehi,
Bəbəyimdə həsrət şehi,
İçimdə dağların mehi,
Başımda eşq havası var!

**13.01.2019**

## XALLI ÇİÇƏK

Ürəyimə xal salmısan,
Ay sinəsi xallı çiçək!
Dadını hər naşı duymaz,
Ay ləçəyi ballı çiçək!

Naümid qaytarma geri
Yanına gələn arını...
Qoyma özgə çəmənzara
Dərdindən ölən arını...

Gözümüz açılan kimi
Ayrılıq yelləri əsir...
Bizim qısa ömürümüzü
Bir az da əzablar kəsir...

Yalnız sevda məlhəmiylə
Ağrını azaltmaq olar...
Bu qısa ömrü, ilahi
Sevgiylə uzatmaq olar...

**04.02.2019**



## AYRILIQ SAZAĞINDA

Ayrılıq sazağında
Qəlbim dönmüşdü buza...
Göz yaşların çevrildi
Yaramın üstdə duza.

Yazan yazıb əmrimi,
Eşq yoğurub xəmrimi,
Qısa gedən ömrümü,
Sevgin döndərdi yaza...

Can qoymadın canımda,
Bal qalmadı şanımda,
Sevgi kəhkəşanımda
Döndün təzə ulduza.

Əzablara dözmüşəm,
Üzülmüşəm, üzmüşəm,
Yaşamaqdan bezmişəm
Özümü qısa-qısa...

Çox gözəldi yaşamaq,
Qəlbdə həsrət daşımaq,
Sevgiyə bax, yaşa bax! –
Arzu çox, ömür qısa...

Tir-tir əsir ürəyim,
Tanrı olsun köməyim,
Necə "can" söyləməyim,
Mənə "can" deyən qıza?!

12.02.2019

## DƏLİDİ

Dilsiz durmağına baxma,
Bu dağ, bu dərə dəlidi...
Naz eləyir ceyran, cüyür,
Bu bənd, bu bərə dəlidi...

Ləçəyə qonan şehə bax,
Gün köksündə çatıb ocaq,
Bilmir onu qurudacaq? –
Bələnib zərə, dəlidi!

Xiffət azaldıb gücümü,
Çəkirəm ömür köçümü,
Yandırıb yaxır içimi,
Bu saz, bu cürə dəlidi...

Həsrətin qəlbimi deşər,
Sevgisiz qəlb adiləşər,
Mən çılgın, sən dəymədüşər,
Hərə bir cürə dəlidi...

09.03.2019



## QƏRİB ÜZÜK

Həsrət günəşi od saçır,
Biz qar üstdə izik, – qərib!
Yazdığım sevgi məktubu
Olub əzik-üzük, – qərib!

Öləziyib eşqin qoru,
Küləklərdən onu qoru!
Bəbəyimdə sevgi nuru,
Gözlərimdə gözlük qərib...

Yatma namərd kölgəsində,
Alçalarsan el gözündə!
Bu məhəbbət ölkəsində
Sənsən qərib, bizik qərib?

Xəyanət etsələr anda,
Tufan qopar bircə anda!
Qəlbdə sevgi olmayanda
Barmaqdakı üzük qərib...

15.03.2019

## URALANMIŞ SEVGİ BAĞI

Güvənib doğma sandığım
Qurd kimi yedi qəlbimi...
O, öz gizli istəyinə
Qurbanmı dedi qəlbimi?

Hikkəmi udub, susuram,
Hər şeyi səbir düzəldər.
Ancaq yaxşı bilirəm ki,
Qozbeli qəbir düzəldər...

Açıb ağartmaq da olmur,
Kiminlə bölüm bu dərdi?
Becərdiyim çiçəkləri
"Hazıra nazirlər" dərdi...

Onu qəlbimə buraxdım,
Viranə qoydu içimi...
Uralanmış eşq bağından
Çəkib gedirəm köçümü...

**30.03.2019**



## SƏN VARSAN DEYƏ

Gör göylər necə
töküb qaşqabaq?!
Alov püskürən
buludlara bax!

Yaşamağın da
mənası itib,
Bəbəklərimdə
tikanlar bitib...

Baxdım gözünə
kefim düzəldi,
Sən varsan deyə
dünya gözəldi...

**15.11.2018**

## "SƏN" – "SİZ"

Ağlım hey danlasa da,
Ürəyim baxmır sözə.
Geriyə yol qalmayıb,
"Sən"dən qayıtma "Siz"ə!

Bu doğmalıqdan sonra
"Sən" "Siz" olmur, – bilirsən!
Mənsiz yaşamaq olur,
Sənsiz olmur, – bilirsən!

**01.01.2019**

***

Mənə bu gecə üstünə qar yağan
çiçəkli ağac şəkli göndərdin!
Elə bil ömrümü
gülüstana döndərdin!
Qol-boyun olmuşdu
qış ilə bahar!
Sanki qəlbimi
isitdi o soyuq qar...
Elə bildim ki,
o çiçəkli budaq sənsən,
o bəmbəyaz qar mən...
Ağrılar seli ötdü
suyu çoxdan quruyan sinəmdən!
Qədəri yazan yazır,
kim boyun əyməyib ki,
taleyin əmrinə?
O qar güllərini
soldura da bilər,
günəş təbəssümünlə əriyib,
hopa da bilər
çiçəkli ömrünə!
Kim istəyər ki,
min bir arzuyla günəşə boylanan
çiçəklar solsun? –
Ancaq o qarı
o çiçəklərin üstünə yağdıran
Tanrıya şükürlər olsun!

**20.04.2019**



## NƏ HƏDDİ VAR

Sevgi dünyamın qapısını
incə barmaqlarınla
gizlicə döyürsən!
"Yeni il təbinizi, ilhamınızı
bulaq kimi coşduran
xoş hadisələr,
uğurlar gətirsin
həyatınıza", – deyirsən!
Sevgiylə yoğrulub
mesajının hər sözü,
hər kəlməsi!
Sən özün ömrümə gəlsən,
ilhamın nə həddi var ki,
gəlməsin!

**01.01.2019**

***

Mən səni suyu tərtəmiz
bulaq sanırdım,
yamacları çiçəkli
dağ sanırdım...
Sən isə adicə
kül təpəciyi imişsən! –
Bircə xəfif meh
göyə sovurdu külünü...
Vəfasızlıq afatı vurdu

təzəcə qönçələyən
sevgi gülünü!
Ömrüm boyu
insanlardan umacağım
sevgi, sədaqət olub,
var-dövlətə, vəzifəyə
salmamışam meyil...
...İndi mənim yamacda
gül dərən vaxtımdı,
küllükdə küllənən
vaxtım deyi...

**11.07.2019**

***

İnsanı el arasında
mərdliyi tanıda bilər!
Özgələrə qan udduran
özü də qan uda bilər!
Sevgimlə, sədaqətimlə
qəlblərdə yuva qurmuşam,
Yalnız özünü unudan
məni də unuda bilər...

**2018**

***

Bəyazdı, yaraşmır leyləyə sarı,
Həmişə can atır ley leyə sarı...
Bircə yol gəzsəydi Məcnun Bakıda,
Bir daha baxmazdı Leyliyə sarı...

**24.02.2019**



***

Dolan həsrət buludu
yol gəlir ağır-ağır,
Ayrılığın əlindən
hara qaçım mən fağır?
Gözlərimin önündə
şümşürüklər oynayır,
Yağşı pəncərəmə yox,
indi içimə yağır...

**31.05.2019**

***

Elədiklərin
ürəyimi ağrıdır,
içimi göyüm-göyüm
göynədir, –
Əməllərini
alqışlaya bilmirəm!
Sənə istədiyini
bağışlaya bilmədim,
Səni də
bağışlaya bilmirəm...

**03.04.2019**

***

Ağrı – uf olub yaşayır.
İnsan – ruh olub yaşayır...

***

Bu dünyada görüş, amma
O dünyada görüş umma!

***

Gözlər payız buludu,
içində yaş qaynayır,
Damlalar iri-iri,
getdiyim yola damır...
Zirvənin o üzündə
ildırımlar oynayır,
Bir sehrli maqnit tək
hey çəkir yol adamı...

Qətrələr bəbəyimdə
olub mirvari, inci,
Sel yuyub üzümdəki
qorxaq, qərib sevinci...
Yolçu yolunda gərək,
nə məndən küs, nə inci, –
Sən bir dayanacaqsan,
mən isə yol adamı...

Ağlama, yola damır,
Dinc qoymur yol adamı.
Sən bir dayanacaqsan,
Mən isə yol adamı...

**08.08.2019**



# TƏMSİLLƏR VƏ SATİRİK ŞEİRLƏR

## VİCDANLAR PAS TUTANDA

Vicdanlar pas tutanda
Zibil dönər altuna.
Dəmir layiq görülər
Qızıl mükafatına….

**04.04.2017**

## ÖN SÖZ

Sənət çəmənzarını
Alaq otları basıb.
Qarğanın kitabına
Sağsağan ön söz yazıb…

## İMZA GÜNÜ

Hamı şair olubdur,
Düşüb yaman bəhsabəhs.
İmza günü keçirir,
İmzası olmayan kəs...

## QURBAĞA HAVADARLIĞI

Qarıldayan Qarğaya
Quruldayan Qurbağa
Yamanca qahmar durdu:
–Mənim qurultu səsim,
Sənin qarıltı səsin
Bülbül səsindən gurdu…
İkimiz də doğmayıq,
Sən "qar"san, mən də "qur"am.
Bülbülün tənqidindən
İncimə bircə qram…
Sənin mahnın hamının
Mahnısından gözəldi. –
Qarıldadı, Qarğanın
Kefi bir az düzəldi…
–Can, ay Qurbağa qardaş,
Dərdim qalmadı daha…
Gedək qarıldamağa,
Gedək quruldamağa…
"Qar" qədrini "qur" bilər,
"Qur" qədrini "qar" bilər…

2017



## TƏQDİMAT MƏRASİMİ

Bülbülü çağırıblar
Qarğanı tərifləsin!
Desin əvəzi yoxdu
Bu nəfəsin, bu səsin…

## ƏXLAQ DƏRSİ

Hey əxlaqdan dəm vurur
Hamının əvəzinə. –
Eşşək düşübdür ata
Dərs vermək həvəsinə!

## EŞŞƏK NƏVƏSİ

Ceyran güllü çəməndə
Rast gəldi bir Qoduğa…
Onu hey təriflədi,
Güc verdi dil-dodağa…

Dedi: –Sən nə qəşəngsən,
Söylə kimsən, nəçisən?
Bəlkə balaca atsan,
Bəlkə bala keçisən?

Qoduq forslandı: –Yox-yox,
Ayrıdır soyum, əslim.
Yaxşıca ad çıxardıb,
Mənim əcdadım, nəslim…

Sonra da o, anqırdı,
Ceyran qorxdu səsindən.
Gülüb dedi: –Tanıdım,
Eşşəyin nəvəsisən…

03.06.2017

## DUZSUZ DUZ

Yamacda quzu yoxdu,
Bərəkət-ruzi yoxdu.
Hər şeyin dadı qaçıb,
Duzun da duzu yoxdu...

***

Ağzına gələni deyir,
Siz Allah, bu səyə baxın!
Ay aman, daşın halına
Ağlayan kəsəyə baxın!

***

O, öz ömrünü çürütdü
Uyub qızıla, altuna.
Torpaq üstündə dalaşıb,
Getdi torpağın altına...

2019



***

Ən qiymətli nə varsa,
Daşınıbdır ofşora!
Yağ ceyran belindədi,
Şükür olsun, of, şora!

26.01.2019

***

Ən gözəl guşələrdə
Ərəblər qurub çadır.
Ölkənin ceyranları
Yalnız onlara çatır...

26.01.2019

## BU NƏ BİÇİM ADAMDI

Piyadalar yanında,
Kişiləndi, "atlandı"...
Vəzifəli görəndə,
Baş endirdi, qatlandı.

Yalandan hıqqıldadı,
Zarıdı, zıqqıldadı,
Dişləri şaqqıldadı,
Bu nə biçim adamdı?

Oğurluq meyvə dərdi,
"Novruz dərdiymiş" dərdi,
Bir körpə cüyür gördü,
Baxşından od damdı...

...Leş qənimləri artır,
Hərə bir yana dartır,
Çaqqal var gödən yırtır,
Qurdun adı beddamdı...

26.10.2018

***

Adam var beş quruşa
dəyməz gödəni,
Kişi eləmək
mümkün deyil
gədəni.
Yana-yana qayıtmaq gözləyir
Yandıq verə-verə gedəni...

***

Özünü dartan adam,
Heç bilirsən nə qədər
kiçiksən?! –
Tayların hürə-hürə it oldu,
Sən hələ də küçüksən!

2018



***

Namus məşəqqət çəkər,
namus sızlar,
Namusdan dəm vuranda
namussuzlar…

2017

***

Danışanda vicdansızlar,
Qəlb ağrıyar, vicdan sızlar…

***

Yalan olub ilanlar,
Zəhərlidi klanlar!
Pula həris kalanlar
Nə ofsun, nə dil anlar!

***

Mən halalam, sən haram,
Xoşuna gəlmir haram?

2017

***

Əzəldən səninki
belə gətirib,
Əzabla, ağrıyla
yoğrulan şəhər…
Zavod tüstüsündən
canı qurtarıb,
Kabab tüstüsündə
boğulan şəhər…

2017

***

Gecəni bəyənən yoxdu,
hamı san atır səhərə,
Bu torpağa məhəbbətin
bünövrəsi pis qoyulub,
Zığın-palçığın əlindən
kəndlilər qaçıb şəhərə,
Əkən-biçən də qalmayıb,
hamı "qorodskoy" olub...

**27.01.2017**

***

Par-par alışan almanı kəsdim, zədə çıxdı,
Vay, vay, bu iblis də gəlib, məbədə çıxdı!
Zəndim yenə aldatdı məni, qəlbim üzüldü,
Səd heyf, kişi sandığım oğlan gədə çıxdı...

**2018**

## ŞİRİNLİK

Ay qaqaş, adamların bilmirsənmi dilini?
Ağıllıya döndərir para xalis dəlini!
Pul əl çirkidir, oğul, gətir yuyum əlini! –
Bəsdi yalvardın göyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

Nə dilbilməz adamsan, yoxdurmu abır-həyan?
Bu rüşvət deyil, bala, danışma hərzə-hədyan!
Adamsız adamları varmı bir adam sayan? –
Gəl çıxım sənə yiyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!



Anlamırsan heç nəyi, gədəsən ki, gədəsən!
İstəmirəm ki, burdan sən əliboş gedəsən!
Əlini sal cibinə, simic olma, gədə, sən
Dönmək istəsən bəyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

Sən uğurun sirrini dərk elə bala-bala!
Şirin dildən nə fayda, özünü yorma, bala!
Şirinliklə ən acı zəqqutum dönər bala,
Bunu qanmırsan niyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

***

Həyasız-həyasız şirinlik istəmək,
Sağalmaz bir şəkər olub..
O qədər şirinlik alıblar ki,
Hamısı şəkər olib!!!

**20.06.2018**

## RUS VƏ ALMAN DİLİNƏ TƏRCÜMƏ OLUNAN ŞEİRLƏR

Рафиг Юсифоглу

### ПЕРВЫЙ РЯД

Нас вели дороги в гору каждый раз,
а с небес на головы нам падал град.
Никогда к вершинам не пускали нас,
как всегда, в первых рядах те, кто богат…

И отменная вода на виллах их,
где для них всегда готовят шашлыки.
Джипы, лучшие машины – все для них,
им достались наилучшие куски.

Пеплом в воздухе развеяны мечты,
лишь глаза полны цветением весны.
Трудится бедняк, не разогнув спины,
как всегда, на заднем плане, без вины.

А богач врагу продаст свой край родной,
он в сторонке будет, выбрав путь иной.
Если весь народ идет в священный бой,
тот, кто сзади был, тот на передовой…

Перевела с азербайджанского
Надежда Паина

### ВОЗВРАЩАЯСЬ ИЗ ШЕМАХЫ

На устах у ветра – Сабира стихи,
На лепестках алых маков Шемахы –
автографы.
В ее сердце – ширь раскудистых лугов
и отрадная прохлада родников.
В легких леса –



чистый воздух родников.
А во взоре –
Гор вершины, оврагов глубина.
Тишина, а в ушах песнь ручиев слышна.
В голове поэта – чары Пиркули.
На устах у ветра – Сабира стихи…

Перевела с азербайджанского
Надежда Паина

Rafiq Yusifoghlu

### Old and young

You're young, I'm old.
You are sunrise,
I am sunset.
In your heart have themselves
The wishes of a nest built,
In my heart - the memories...
We both expect,
That fate is fate
Laughing at our face.
When I look at you,
I see my past,
When you look at me,
Do you see your future...

Translated from azerbaijani
von Yusif Savalan

## RAFİQ YUSİFOĞLUNUN ÇAP OLUNAN KİTABLARI

1. Yurdum-yuvam (şeirlər). Bakı, Gənclik, 1983.
2. Ətirli düymələr (şeirlər). Bakı, Gənclik, 1986.
3. Ocaq yeri (şeirlər). Bakı, Yazıçı, 1989.
4. Aylı cığır (şeirlər və poemalar). Bakı, Gənclik, 1992.
5. Qəm karvanı (şeirlər və poema). Bakı, Sumqayıt, 1997.
6. Həsrət köçü (şeirlər). Bakı, Sumqayıt, 1998.
7. Sladkiy dojd (şeirlər, rus dilində). Bakı, Şuşa, 1998.
8. Dünya xalqlarının nağılları (tərcümələr). Bakı, Azərbaycan, 1998.
9. Azərbaycan poeması: axtarışlar və perspektivlər (monoqrafiya). Bakı, Elm, 1998.
10. Xatirə kəcavəsi (elmi-publisistik məqalələr). Bakı, Elm, 1999.
11. Bahar qatarı (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 1999.
12. Kitabi-Dədə Qorqud (komikslər). Bakı, İşıq, 1999.
13. Böyük arzuya gedən yol (şeirlər). Bakı, Azərbaycan, 2000.
14. Möcüzəli xəzinə (tərcümələr). Bakı, Azərbaycan, 2000.
15. Təzə sevdalara doğru (şeirlər və tərcümələr) Bakı, Şuşa, 2000.
16. Çiçək yağışı (şeirlər və poemalar). Bakı, Şuşa, 2000.
17. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Sabah, 2001.
18. Söz çəməni (şeirlər). Bakı, Azərbaycan, 2002.
19. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Təhsil, 2002.
20. Ayrılığın qəm hasarı (şeirlər). Bakı, Təhsil, 2002.
21. Günlərimiz, aylarımız (şeirlər). Bakı, Azərbaycan, 2003.
22. Bir sevdalı ürəyim var (məqalələr). Bakı, Çaşıoğlu, 2003.
23. Ədalətli hakim (tərcümələr). Bakı, Azərbaycan, 2004.
24. Şirin yuva (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2004.
25. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2004.
26. Min dovşan otaran çoban (tərcümələr). Bakı, Azərbaycan, 2005.
27. Zamanın qatarı (şeirlər). Bakı, Azərbaycan, 2005.
28. Həsrət sazağı (şeirlər). Bakı, Şirvannəşr, 2005.
29. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, Şirvannəşr, 2005.
30. Dəniz səviyyəsi (nəsr əsərləri). Bakı, Şirvannəşr, 2005.
31. Meymunlar ölkəsi (tərcümələr). Bakı, Azərbaycan, 2006.
32. Yollar (şeirlər). Bakı, Azərbaycan, 2006.
33. Uşaq ədəbiyyatı (dərslik). Bakı, Şirvannəşr, 2006.



34. Daha uşaq deyiləm (şeirlər). Bakı, Şirvannəşr, 2006.
35. Sevdalı sabahlar (şeirlər və poema). Bakı, Şirvannəşr, 2007.
36. Namuslu oğru (tərcümələr). Bakı, Azərbaycan, 2007.
37. Ana dilim (şeirlər). Bakı, Azərbaycan, 2007.
38. Tanrının ömür payı (məqalələr). Sumqayıt, 2007.
39. İlahi qazlar (tərcümələr). Bakı, Azərbaycan, 2008.
40. Sehrli üzük (tərcümələr). Bakı, Azərbaycan, 2008.
41. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2008.
42. Eşqin qarlı yollarında (şeirlər). Bakı, ADPU, 2008.
43. Ana dili -1 (Əlifba, oxu) Birinci siniflər üçün dərslik. Bakı, Çaşıoğlu, 2009.
44. Dəniz, sən və mən (şeirlər). Bakı, ADPU, 2009.
45. Ədəbiyyatşünaslığın əsasları (dərslik). Bakı, ADPU, 2009.
46. Qızıl balıq (tərcümələr). Bakı, Lider-press, 2009.
47. Ulu yurd yerlərimiz (məqalələr). Bakı, Lider-press, 2009.
48. Azərbaycan dili – 2. İkinci siniflər üçün dərs vəsaiti. Bakı, Çaşıoğlu, 2009.
49. Çiçək yağışı (şeirlər). Bakı, Çaşıoğlu, 2009.
50. Pamela Trevers. Meri Poppins (tərcümə). Bakı, Çaşıoğlu, 2009.
51. Möcüzəli ağac (tərcümələr). Bakı, Azərbaycan, 2010.
52. Elm və helm (hekayələr və nağıllar). Bakı, Azərbaycan, 2010.
53. Qoruq və yasaqlıqlarımız (məqalələr). Bakı, Azərbaycan, 2010.
54. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri (monoqrafiya). Bakı, ADPU, 2010.
55. Qızıl saçlı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2011.
56. Quşlar dünyası (şeirlər). Bakı, Azərbaycan, 2012.
57. Qurbağa libaslı gözəl (tərcümələr). Bakı, Azərbaycan, 2012.
58. Xoşbəxt günlər yolçusu (tərcümələr). Bakı, Azərbaycan, 2012.
59. Könül səltənəti (şeirlər və tərcümələr). Bakı, ADPU, 2012.
60. Tapmacalar ölkəsi (nağıllar və hekayələr). Bakı, Azərbaycan, 2013.
61. Həyat ağacı (tərcümələr). Bakı, Azərbaycan, 2013.
62. Kiçik siçanın böyük sərgüzəştləri (tərcümələr). Bakı, Azərbaycan, 2013.
63. Qızılı məktublar (şeirlər). Bakı, ADPU, 2013.
64. Müasir ədəbi proses və ədəbi tənqid (dərslik). Bakı, Çaşıoğlu, 2014.
65. Ağıl sınağı (tərcümələr). Bakı, Azərbaycan, 2014.

66. Arzular kəhkəşanı (şeirlər). Bakı, ADPU, 2015.
67. Xeyirxah ovçu (tərcümələr). Bakı, Azərbaycan, 2015.
68. Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri (monoqrafiya). Bakı, Elm və təhsil, 2016.
69. Sabahın sorağında (şeirlər). Bakı, ADPU, 2016.
70. Durna lələyi (tərcümələr). Bakı, Azərbaycan, 2016.
71. Bulud fayton (şeirlər). Bakı, ADPU, 2017.
72. Üçüncü qərinə (şeirlər). Bakı, ADPU, 2017.
73. Gəzən balqabaq tağı: tərcümələr. Bakı, Azərbaycan, 2017.
74. Rain, flowers and I. Yağış, çiçəklər və mən. Şerlər və kiçik hekayələr (ingilis dilində və orijgnalda). Baku, ADPU, 2017.
75. Bədii söz – məna ocağının közləri (ədəbi-tənqidi məqalələr) Bakı, ADPU, 2018.
76. Ağıllı dovşan (tərcümələr). Bakı, Azərbaycan, 2018.
77. Bitdilicə (hekayələr və nağıllar) Bakı, Azərbaycan, 2018.
78. Nağıl qapısı (şeirlər, poemalar, mənzum nağıllar). Bakı, ADPU, 2018.
79. Ömür ağacından düşən yarpaqlar (şeirlər). Bakı, ADPU, 2019.
80. Yaddaş kitabı – 1 (şeirlər). Bakı, Azərbaycan, 2019.
81. Yaddaş kitabı – 2 (şeirlər). Bakı, Azərbaycan, 2019.
82. Taleyimdən keçən yollar (publisistika). Bakı, ADPU, 2019.
83. Sevdalı ömür yaşadım (şeirlər). Bakı, ADPU, 2019.



# KİTABIN İÇİNDƏKİLƏR

## Hikmət xəzinəsi

Ey yaradan ....... 3
Rəsədxana və məscid ....... 4
"Kainatın böyüklüyünü" ....... 4
Bu taleyin naxışına min şükür ....... 5
Selləmə yağışla bu il gəldi yaz ....... 6
Qocası, cavanı olmur şairin ....... 8
Bizim vaxt itirən vaxtımızdımı ....... 9
Tanrı əsirgəməz səxavətini ....... 10
Özümüz düzəlsək, düzələr dünya ....... 11
Sınaq meydanıdır bu qoca dünya ....... 13
Bəyaz saçlar ....... 14
Yazığım gəlir ....... 14
Mənim sükutum ....... 15
Dağlar, dərələr ....... 17
Yaşadım ....... 18
Gedirəm ....... 19
Ola bilmərəm ....... 20
Yaşayır ....... 21
Adam yoxdu ....... 22
Dünya sevmir heç-heçəni ....... 23
Olarmı ....... 24
Zamandı bu ....... 25
Ömür gələcəyə yoldu ....... 26
Sirlər ilə göz-gözə ....... 28
Bu dünyanı necə tutsan ....... 30
Yavaş-yavaş ....... 31
İşıq simfoniyası ....... 32
Əbədiyyət arzusu ....... 33
Tanıdığımız, tanımadığımız adamlar ....... 34

İnsan xisləti...35
“Quş dünyanın ağırlığını...”...35
Bu gün, sabah...36
“Sevdalı insanlar”...36
Kim deyir ki...37
“Şeirə-sənətə könül verdim”...37
Gözəl şeir...38
“İnsanlar bağlıdı”...38
Hasar qəfəslər...39
“Ətirli gülün altında”...39
“Xalq elçisi”...40
Qətliyam...41
İşğal...41
Qürbət qoxusu...42
“Kəlmələr qığılcım saçan”...42
“Gözə kül üfürənləri görəndə”...43
“İnsan zəkası ilə”...43
“İşıqdan çox his verən çıraq”...43

**İşaran həsrət közləri**

Zərrələrdən yaranan kainat...44
Sonsuz yurd həsrəti...45
Cənnət nəsimi...45
Başın sağ olsun, Vətən...47
Lələtəpə...47
Mənim əziz şəhərim...50
Keçmiş, gələcək...51
Ötən illəri xatırlayanda...51
Xatirələr qışı...52
Qaçqın şəhərcikləri...53
İndi biz neyləyək, Füzuli babam...54
Bir şəhid övladının harayı...55



“İşıq seli gözə yağır”...55
“Həyat mənim ömrümə”...55
Qışın qu nəğməsi...56
Qış libaslı yaz nağılı...57
Bu qış da bir ayrı qışdı...57
Kövrək payız...58
Qusarda payız...59
Payıza qonaq gedək...60
Mən payız axtarıram...61
Yağış altında...62
Yağışdan sonra...63
“Niyə belə yazılıb”...63
Payızda yaz havası...64
Nəvəmlə söhbət...64
“Görkəmi gözəl olana”...64
Xəstəlik...65
Tənhalıq...66
İtiririk, tapırıq...67
Dağ yamacında bulaq...68
“Səsin gah zildən gəlir”...69
Ömrün əvvəli, sonu...69

**Düşüncələr**

Allah hər şeyi görür...72
Məni istəməyən xəbislər...77
Biz niyə sevmirik bir-birimizi...78
İlin son gecəsində düşüncələr...80
“Başım həmişə ucadı”...81
Dilimizi dilçilərdən qoruyaq...82
“Naşı qələminizlə”...84
Durğu işarələri...84
Nöqtə...85

Üç nöqtə....85
Söz adamı....86
Sevgidən başqa....86
"Mənə keçmişin qalığı kimi"....87
Mənim kimi....87
Məni istəməyənlərin sayı....88
"Hər oxuyan qu deyil"....88
Mən....89
Görəsən....89
"Ahıl sözünün ilk hecası"....90
"Həyatda hər adama"....91
"Yaşımı soruşursan"....91
Gileylənmə....91
"Sevgiyə həssas ürəyim"....92
Gün işığının altında....92
"Dünyanı gözəlləşdirən"....93
Əlvida, qələm....93
Şükür elə ki....94
Bu dünyanın uzun işləri....94
Zamanın sığalı....95
"İnsan kimi yaşamağa"....96
"Qəlbimə də xal düşür elə bil"....96
Vəzifə....97
Külək və yuva....98
"Ağaclar yazda belə"....98
Qarsız qış....99
"Bu il də qış"....99
"Çıxarmırsan cıqqırını"....99
Ulduza hürən köpək....100
"Həyatımız olsa da"....101
"Sağlamlığını qoru"....101
Xiffət xəzinəsi....102



"Şübhə - həqiqətə açar"....103
"Ocaq közünü tərifləyir"....103
Gəlin bir şəkil çəkdirək....104
"Yer üzündə qanan üçün"....104
Saqqal....105
"Şərikik doğmaların"....105
"Mən bir qətrə göz yaşı tək"....106
"Çıraq var ki"....106
Dağı dəli olanın....106
Ömrün payızı gələndə....107
"Tutur gözlərimi çən, qocalıram"....107

## İstanbullu sətirlər

Yer....108
İstanbul....109
İstanbulda gəzirəm....111
İstanbul, mənim şəhərim....112
Nağıllar dünyası....113

## Amerika dəftərindən

Yaşıl, ya bəyaz ada....116
Dünya....117
Mənim üçün....118
Vətəndən uzaqlaşdıqca....118
Hər anın öz hökmü var....119
Sakit okean sahilindəki qayalıqda düşüncələr....120
Həyat sehrli güzgüdür....121
Məni sevən hicablı qız....122
Sözün bitdiyi yerdə....123
Əlçatmaz sevgi....124
Zəifləri yox, zərifləri xoşlayıram....125

Mən beləyəm....................125
Zamanın qatarı....................126
İnsanlıq....................126
"Sənin kimi nadürüstə" ....................127
"Min ildi Sizə sarı gəlirdim" deyən qıza....................128
"Məni qorxutmur, gülüm" ....................128
"Ürəyimdən bu sevginin" ....................129
"Kətanın üstündə" ....................129
"Bilirəm ki" ....................130
"Şairi yaltaq millətin" ....................130
Bu dünya mənim evimdi....................131
"Qaynayıb, qaynayıb, su tək duruldum" ....................132
Daha yaxşı bilirəm....................132
Ürəyim bulaq istəyir....................133
Hasar və körpü....................134
Malibu dağlarında....................135
Zalım dünya, gözəl dünya....................136
"Qəlbindən baş qaldırıb"....................137
Malibu dağlarından Sakit okeana baxarkən....................138
Mələklər şəhəri....................139
Rəngli dalğalar....................140
Gözünüz aydın....................141
Qürub və sübh şəfəqləri....................141
Sevdalı ömür yaçadım....................142
"Dünyanın ən gözəl işi" ....................143
Ehtiyac....................143
Katalina adası....................145
Sakit okeanda düşüncələr....................146
"Qürbət məni yaman sıxır" ....................146
Ballona çayının Sakit okeana birləşdiyi yerdə düşüncələr....................147
"Hər şeydən, hamıdan" ....................148
"Gözlərin dikilibdir" ....................148



"Qürbətdə çox darıxmışam" ....................148
"Təyyarənin qanadı" ....................149
Bu boyda dünyada özünə yer tapa bilməyən adam....................149
Dünya elə həmin dünyadı....................150
Qürbət....................151
Təkrar....................152
Xatirə ağacının kölgəsi....................153
"Mənə "həmişə istirahətdə" deyənlər"....................154
"Sakit okeanın" ....................155
"Ayrılıq əzablarına" ....................155
"Qarışqa üçün bir qaşıq su ilə"....................155
Yurda bənzər yurd gəzirəm....................156
Salam, Mark Tven....................157
Sən hardan çıxdın qarşıma....................158
Buluddan ayrılan yağış....................158
Çadırdan boylanan nisgilli gözlər....................159
Özgə adıyla dostluğuma daxıl olan "dost"lara....................160
"Əsrlər boyu"....................161
"Macalımız da yoxdu"....................162
Qısa qapanma....................162
"Adam bu kişiyə baxanda"....................163
"Ömrüm boyu"....................163
Tutuquşular....................165
"Sizi sevənlərin qədrini bilin" ....................165
Heyvanxanada....................166
Yaxşılıq və pislik....................167
Üzümə bağlı yollar....................167
Bomboş küçələr....................168
Baba və nəvə....................169
"İstini paylaş"....................170
"Ötən günlərə"....................170
"Neçə ki, ordasan"....................170

"Gedəndə".........170

## Bodrumda düşüncələr

"Səhra da çəmənzara".........171
İztirab zəlzələləri.........172
Xəyanət qayıqları.........172
Üzü dənizə sarı.........173
Sıldırımda qəbirlər.........174
"Elə bil bizim kimi".........175
Qum zanbaqları.........176
"Mən dağlar oğluyam".........177
"Bu it özgəyə yox".........177
Şəkil çəkdirəndə.........178
Adi həqiqət.........179
"Mənimki mənə dəyir".........179
Zamanın ələyi.........180
Sən məni özünçün sev, sevə bilsən.........181

## Sevgi qəfil gələn selə bənzəyir

Göydə Tanrı kəsib nikahımızı.........182
Yaralı durna tək.........183
Sevgi qatarına geciksən əgər.........184
"Bacarsan sev məni, oxşa, əzizlə".........185
Sevgini ürəkdə gizləmək olmur.........186
Sevgi seli və bəndə hasarı.........188
"Dənizsən, tənhayam sahilində mən".........188
Əgər sən istəsən.........189
Niyə belə gec gəlmisən dünyaya.........190
Qış yağışı.........192
Bu yaz sabahında.........193
İlk bahar yağmuru, sevgi günəşi.........195



Sevgi göylərimin ayı sən oldun.........196
Bu dünya gözündən düşəcək sənin.........197
Həsrət sazağında üşüyən çiçək.........198
Hərdəmxəyalları sevə bilmədim.........199
"Sözlərinə vurulub uydun bir sərsəriyə".........199
Sən elə ucasan.........200
Söz adi olsaydı.........201
"Qəlbim nurla dolar baxsan da gendən".........201
Sevgi yağışı altında.........202
Zərif gülün üstünə payız yelləri əsib.........203
Etiraf.........203
Düzünü de.........204
"Nə qədər durub gendən baxım sənin xalına".........204
Sən bir sevgi çiçəyisən.........205
"Unutmaq, unudulmaq söylə, kimə xoş gələr".........205
Dəniz, dəniz sevdalı şair və dəniz gözlü qısqanc qız.........206
Altılıqlar.........207
Sahibsiz ada.........207
"Sevə bilməz kimsəni".........208
Dördlüklər.........208
Sevgi dünyamın lələsi.........209
Dəniz gözlüm.........209
Sən sevgi bağımda təzə fidansan.........210
Bəlkə ilham pərimsən.........211
"Qürbət alıb əldən mənim Əfsanəmi yoxsa".........213
"Eşq bağında yetişən meyvələri - barı sevim".........213
"Sevgilim, mən nə qədər səndən əgər olsam uzaq".........214
"Qısqanclıq atəşi yandırır, yamandır".........215
Sevgim həqiqət oldu.........216
Sevgi çiçəyi.........217
Sevgi arxımız.........218
Unutmaq olmur.........219

"Dəniz, sevgilini aldım"....219
Sevgi məni tək buraxmaz....220
"Yenəmi üstümüzə"....221
Mən səni çiçək sanırdım....222
Sarı çiçək və arı....223
"Solan sevgi gülünü"....224
"Ötən sevgi əzabıyla"....224
Mənim sevgi günəşim....225
"Yazırsan ki, əvvəl-axır"....226
"Günəşə don geydirsən"....226
Şəbi-yelda....227
Nə yaxşı ki....227
İlham pərisinin gileyi....228
"Gözüm qara xalında"....228
Sarı çiçək, arı və sevgi rüzgarı....229
"Niyə səsin kəsildi"....229
"Sən günəşsən, mən dəniz"....229
"Necə onu fəth eləyim"....229
Qocalan sevgi....230
Qaraya bürünən qadın....231
"Yurdumun düzlərində"....231
"Danışma ayrılıq haqda"....231
Qürbət buludu....232
"Bu dünyada taparsan"....232
Bənövşə ömrü....233
"Siz"dən "biz"ə....233
Nə qalıb ki....234
"Eşqin zülmət gecəsini"....234
"Arzum da, diləyim də sən"....234
Nə deyirlər desinlər....235
Çəkirəm....236
Xallı gözəl....237



Özünü qoru....238
Sevgi məlhəmdi....239
"Ən gözəl çiçəklər də"....240
"Qadın –qəlbimizdə işıq"....240
"Sevginin önündə qürur"....240
"Rüsvay gərək həmişə aşiq"....241
Dəniz sahilində günəşi seyr edən qız....241
Qəlbimi sevinc ilə doldura bilsən....242
Geriyə yol varmı....243
"Qoyma qalxım mən zilə"....243
"Bu da təzə siyahı"....243
Qaratikan, daş, mən və sən....244
"Qiymət vermə gözəyarı"....244
"Mənə könlünü ver, gül"....244
"Saçlarım bəmbəyazdı indi"....245
Çalış ki....245
Dəli bir sevda....246
Sinəüstü kitablar....247
"Çox şükür"....248
"Gör bizi haralara çəkib apardı"....248
Yəqin bilirsən ki....249
"Ona sarı can atır"....249
"Mən bir sevgi ağacıyam"....250
Utancaq məhəbbət....251
Qar köynəyin altında üşüyən bənövşə....251
Bütün həsrətlərə son qoyulsa....252
"Sevməli o qədər qəşəng"....252
Sevdalı bəbəklər....253
Bəyaz nağıl....253
Eşq şimşəyi....254
Muzeydə işləyən qız....255
"Mən xatirələr dünyasının"....256

Sən məndən şeir istəmişdin....257
İlham və ilham pəriləri....258
Dəli və dəli sevda....259
Mənim sevdiyim insan....259
"Başıma min oyun açıb"....260
"Bəsdi dikbaş gəzdiyin"....260
Utancaq sətirlər....260
Sönmüş ocağımın közü qayıtdı....261
"Lacivərd səmalar quşa halaldı"....261
Ağ atlı oğlanın ola bilmədim....262
Bilmirəm sən hardan yuxuma gəldin....263
Nura bələnmiş sazaq....264
Sən mənim turacımsan....264
Başımda eşq havası var....265
Xallı çiçək....266
Ayrılıq sazağında....267
Dəlidi....268
Qərib üzük....269
Uralanmış sevgi bağı....270
Sən varsan deyə....271
"Sən"-"Siz"....271
"Sən bu gecə üstünə qar yağan"....272
Nə həddi var....273
"Mən səni suyu tərtəmiz"....273
"İnsanı el arasında"....274
"Bəyazdı, yaraşmır leyləyə sarı"....274
"Dolan həsrət buludu"....275
"Elədiklərin"....275
"Ağrı – uf olub yaşayır"....275
"Bu dünyada görüş, amma"....275
"Gözlər payız buludu"....276



**Təmsillər və tikanlı misralar**

Vicdanlar pas tutanda....277
Ön söz....277
İmza günü....277
Qurbağa havadarlığı....278
Təqdimat....279
Əxlaq dərsi....279
Eşşək nəvəsi....279
Duzsuz duz....280
"Ağzına gələni deyir"....280
"O, öz ömrünü çürütdü"....280
"Ən qiymətli nə varsa"....281
"Ən gözəl guşələrdə"....281
Bu nə biçim adamdı....281
"Adam var beş quruşa"....282
"Özünü dartan adam"....282
"Namus məşəqqət çəkər"....283
"Danışanda vicdansızlar"....283
"Yalan olub ilanlar"....283
"Mən halalam, sən haram"....283
"Əzəldən səninki"....283
"Gecəni bəyənən yoxdu"....284
"Par-par alışan almanı kəsdim, zədə çıxdı"....284
Şirinlik....284
"Həyasız-həyasız şirinlik istəmək"....284

**Rus və alman dilinə tərcümə edilmiş şeirlər**

Первый ряд....286
Возвращаясь из Шемахы....286
Old and young....287
Rafiq Yusifoğlunun çap olunan kitablarının siyahısı....288

**Rafiq Yusifoğlu**

(Əliyev Rafiq Yusif oğlu)

**SEVDALI ÖMÜR YAŞADIM**

(şeirlər)

Bakı, ADPU nəşriyyatı, 2019

Rəssamlar: İ.Tofiqoğlu

K.Əkbərova

Korrektor: F.Əliyeva

Arzu və təkliflərinizi bu ünvana göndərməyi xahiş edirik:

rafig_yusifoglu@mail.ru

***Çapa imzalanmış 03.09.2019-cu il***
***Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi 19***
***Sifariş 279, sayı 300***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***Email: poliqrafiya@mail.ru***